# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# ALİ MƏHKƏMƏSİ

# B Ü L L E T E N

№ 2 (32)

Naxçıvan – 2021



*Biz hüquqi dövləti, demokratik dövləti yaradırıq. Bunun da ən prinsipial bir hissəsi məhkəmə sistemində islahatların keçirilməsi, onun beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasıdır.*

*Heydər Əliyev*

**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ**

*Rəsmi sayt:* www.supremecourt.nakhchivan.az


**Buraxılış üçün məsul şəxs:**
*Q.V.Əliyev*

**Redaktor:**
*Ə.K.Allahverdiyev*

**Redaksiya heyəti:**
*Ə.K.Allahverdiyev*
*Y.S.Qurbanov*
*İ.M.Mirzəyev*
*V.K.Quliyev*
*M.Ə.Əliyev*
*G.Ə.Qurbanova*
*Y.F.Xəlilov*



**Redaksiyanın ünvanı:**
*Naxçıvan şəhəri, Atatürk küçəsi, 19*

*Tel: 544-61-75*
*Faks: 544-70-82*


# M Ü N D Ə R İ C A T

## Yeni sənədlər, normativ aktlar


*Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu*.........................**7**

*“Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 363-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı* .............................................**57**

*Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu*.......................................... **58**

*Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsində, “Sosial sığorta haqqında”, “Tibbi sığorta haqqında”, “Dövlət rüsumu haqqında”, “Məhkəmə-Hüquq Şurası haqqında” və “İnzibati icraat haqqında” Azərbaycan*

*Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu*.....................................................................**60**

*“Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsində, “Sosial sığorta haqqında”, “Tibbi sığorta haqqında”, “Dövlət rüsumu haqqında”, “Məhkəmə-Hüquq Şurası haqqında” və “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 360-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı*...............**75**

*“Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Qanunu*................................................**78**

*Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin və sədrlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*....................................................................**81**

*Q.V.Əliyevə “Əməkdar hüquqşünas” fəxri adının verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı*...........................................................................................**82**

## Məhkəmə fəaliyyəti

### Mülki kollegiyadan

*Mülki mühakimə sahəsində məhkəmə fəaliyyətinə dair 2021-ci ilin birinci yarısı üzrə statistik məlumatların təhlili* ................................ **83**

### Kommersiya kollegiyasından

*Məhkəmə fəaliyyətinə dair 2021-ci ilin birinci yarısı üzrə statistik məlumatların təhlili* ......................................................................... **91**

**İnzibati kollegiyadan**

*Məhkəmə fəaliyyətinə dair 2021-ci ilin birinci yarısı üzrə statistik məlumatların təhlili* ........................................................................**93**

**Cinayət kollegiyasından**

*Cinayət kollegiyasının 2021-ci ilin birinci yarısı üzrə fəaliyyətinin nəticələrini əks etdirən statistik məlumatlar* ..................................... **95**

## İnsan hüquqları və məhkəmə təcrübəsi

*İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icmalı* ..........................................................................................**103**

## Nəzəriyyə və hüquqtətbiqetmə problemləri

*İştirakçılıq və icraçının ekstsessi: nəzəri və praktiki baxış* ..............**116**

## Hakimlərin milli və beynəlxalq qurumlarında

*Hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları ilə bağlı Məhkəmə-Hüquq Şurasının 2021-ci ilin birinci yarısında baxdığı bir sıra işlər haqqında* ........................................................................................ **125**

## Azad tribuna

*Ədalət mühakiməsinin iqtisadi inkişafda rolu: milli qanunvericilik və beynəlxalq təcrübə*........................................................................**138**

## Ali Məhkəmənin mətbuat xidmətindən

*2021-ci ilin iyul-dekabr aylarında keçirilən tədbirlərin xülasəsi*...........................................................................................**145**



# YENİ SƏNƏDLƏR, NORMATİV AKTLAR

Bülletenin "Yeni sənədlər, normativ aktlar" sərlövhəsini təqdim etməkdə məqsəd muxtar respublikamızla əlaqədar məsələləri nizama salan, habelə məhkəmə sistemi ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyi, Naxçıvan Muxtar Respublikasının hüquqi aktları, eləcə də Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, qanunvericiliyə edilən dəyişikliklər, normativ-hüquqi aktlar sisteminə daxil olmayan, lakin muxtar respublikamız üçün mühüm əhəmiyyətə malik olan rəsmi sənədlərlə oxucularımızı tanış etməkdir.

Sərlövhədə bu günədək 330-a yaxın qanunvericilik aktı və mühüm rəsmi sənəd dərc edilmişdir. Bu isə məhkəmə və hüquq-mühafizə orqanları əməkdaşlarının, həmçinin əhalinin muxtar respublikamızla bağlı zəruri hüquqi sənədlərlə yaxından tanış olmalarına geniş imkan yaratmışdır.

Bülletenin bu sayının sözügedən sərlövhəsində oxucularımızı yeni qəbul edilmiş bir sıra qanunvericilik aktları ilə tanış edirik.

**Redaksiya heyəti**

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq qərara alır:

Maddə 1. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 201 1, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 61 9, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 201 5, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1 935, 1 975; 2018, № 5, maddə 879, № 8, maddə 1672, № 11, maddələr 2209, 2225, № 12 (I kitab), maddələr 2524, 2534; 2019, № 1, maddə 23, № 5, maddələr 792, 81 2, № 7, maddə 1197, № 1 2, maddələr 1897, 1907; 2020, № 7, maddə 832, №11, maddə 1 333; 2021, № 4, maddə 309) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 9.3-cü maddənin üçüncü cümləsindən “tərəfləri dəvət etmədən” sözləri çıxarılsın;

1.2. 10-cu maddə üzrə:

1.2.1. aşağıdakı məzmunda 10.8-1-ci maddə əlavə edilsin:

“10.8-1. Bu Məcəllənin 159, 269, 280, 284-5, 394-1, 397.2, 403-1.6, 414.1, 422, 431-3 və 437-ci maddələrində nəzərdə tutulmuş hallarda işlərə yazılı icraat qaydasında, yəni məhkəmə iclası keçirilmədən və tərəflər izahatları dinlənilmək üçün çağırılmadan baxılır. Bu Məcəllənin 394-1, 397.2 və 414.1-ci maddələrində nəzərdə tutulmuş hallarda məhkəmənin qərardadına əsasən işə məhkəmə iclasında baxıla bilər.”;

1.2.2.10.10-cu maddədən “və şəxsi teleqraf” sözləri çıxarılsın;

1.3. 10-1-ci maddə üzrə:

1.3.1. 10-1.3-cü maddəyə “məhkəmə icraatı” sözlərindən sonra “, habelə “Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə mülki işlər üzrə məhkəmə icraatı” sözləri əlavə edilsin;

1.3.2. 10-1.4-cü maddə ləğv edilsin;

1.3.3. 10-1.5-ci maddədə “və 10-1.4-cü maddələrində” sözləri “maddəsində” sözü ilə əvəz edilsin;

1.3.4. aşağıdakı məzmunda 10-1.9-cu maddə əlavə edilsin:

“10-1.9. “Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə məhkəmə icraatının aparılması zamanı işdə iştirak edən şəxslərin adlarının, onların poçt ünvanlarının, istifadələrində olan elektron poçt ünvanlarının, mobil telefon nömrələrinin “Elektron məhkəmə” informasiya sistemində yerləşdirilməsi işə baxan məhkəmə tərəfindən təmin edilir.”;

Aşağıdakı məzmunda 10-2-ci maddə əlavə edilsin:

“Maddə 10-2. Məhkəmə icraatının videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi

10-2.1. Məhkəmə aşağıdakı hallarda məhkəmə icraatını işdə iştirak edən şəxsin, onun nümayəndəsinin (qanuni nümayəndəsinin), vəkilin, şahidin, ekspertin, mütəxəssisin, tərcüməçinin məhkəmənin iclas zalında bilavasitə iştirakı olmadan videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirə bilər:

10-2.1.1. işdə iştirak edən şəxslər, onların nümayəndələri (qanuni nümayəndələri), vəkil, şahid, ekspert, mütəxəssis, tərcüməçi ölkədən kənarda və ya ölkə daxilində başqa şəhərdə (rayonda) olmaqla, üzrlü səbəbdən onların məhkəmə iclasında şəxsən iştirak etməsi mümkün olmadıqda;

10-2.1.2. tərəflərdən hər hansı birinin bu Məcəllənin 255.0.1-3-cü maddələrində nəzərdə tutulmuş səbəblərdən məhkəmə iclasında şəxsən iştirak etməsi mümkün olmadıqda və iş üzrə icraat dayandırılmadıqda;

10-2.1.3. işdə iştirak edən şəxslər, onların qanuni nümayəndələri və şahidlərin azadlıqdan məhrum etmə və ya həbs yerlərində saxlanılması səbəbindən məhkəmə iclasında şəxsən iştirak etməsi mümkün olmadıqda;

10-2.1.4. təbii və ya texnogen qəzalar, epidemiya, fövqəladə, hərbi vəziyyət və ya qarşısıalınmaz qüvvənin təsiri nəticəsində işdə iştirak edən

şəxslər, onların nümayəndələri (qanuni nümayəndələri), vəkil, şahid, ekspert, mütəxəssis, tərcüməçi müvafiq icraatda bilavasitə iştirak edə bilmədikdə;

10-2.1.5. məhkəmə icraatının lüzumsuz uzadılmasının qarşısının alınması məqsədilə digər hallarda.

10-2.2. Məhkəmə icraatının videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi üçün məhkəmə öz təşəbbüsü ilə və yaxud tərəflərin əsaslandırılmış vəsatəti əsasında müvafiq qərardad qəbul edir.

10-2.3. Məhkəmə icraatı videokonfrans əlaqə sistemindən istifadə edilməklə keçirildikdə tətbiq edilən texniki vasitələr səsin və görüntünün keyfiyyətini və real vaxt rejimində məhkəmə iclas zalına ötürülməsini, icraatın aşkarlığı və digər əsas prinsip və şərtlərinə riayət edilməsini, habelə informasiya təhlükəsizliyini təmin etməlidir.

10-2.4. Videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilən məhkəmə iclaslarının və prosessual hərəkətlərin videoyazısı aparılmalı, videoyazıya uyğun olaraq protokol tərtib edilməli və videoyazı elektron daşıyıcıda işə əlavə edilməlidir.”;

1.5. 13-cü maddə üzrə:

1.5.1. adından “normativ” sözü çıxarılsın;

1.5.2. 13.1-ci maddəyə “hüquqi aktlara,” sözlərindən sonra “Azərbaycan Respublikasının tərəfdar olduğu beynəlxalq müqavilələrə,” sözləri əlavə edilsin və həmin maddədə “, habelə Azərbaycan Respublikasının tərəfdar olduğu beynəlxalq müqavilələrə” sözləri “və normativ xarakterli aktlara” sözləri ilə əvəz edilsin;

1.6. 19-cu maddə üzrə:

1.6.1. adından “və hakimə etiraz etmək üçün əsaslar” sözləri çıxarılsın;

1.6.2. 19.1.3-cü maddəyə “işin” sözündən sonra “mahiyyəti üzrə” sözləri əlavə edilsin və maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

1.6.3. aşağıdakı məzmunda 19.1.4 - 19.1.7-ci maddələr əlavə edilsin:

“19.1.4. o, əvvəllər tərəflərdən birinin nümayəndəsi, yaxud vəkili olmuşsa və ya işdə şahid, ekspert, mütəxəssis, tərcüməçi, məhkəmə iclasının katibi kimi iştirak etmişsə;

19.1.5. o, məhkəmədə baxılan mübahisə üzrə əvvəllər tərəflər arasında mediasiya prosesində mediator kimi iştirak etmişdirsə;

19.1.6. o, tərəflərdən biridirsə və ya tərəflərdən birinin və yaxud onun nümayəndəsinin və ya vəkilinin qohumudursa və ya qohumu olmuşsa;

19.1.7. onun şəxsən, bilavasitə və ya dolayı yolla işin nəticəsində maraqlı olmasına, obyektivliyinə və qərəzsizliyinə dair şübhə doğuran kifayət qədər əsas varsa.”;

1.6.4. 19.2-ci maddə ləğv edilsin;

1.7. 23-cü maddə üzrə:

1.7.1. 23.2-ci maddədə “tərkibinə” sözü “hakimlərinə ayrı-ayrılıqda” sözləri ilə əvəz edilsin;

1.7.2. aşağıdakı məzmunda 23.5-ci maddə əlavə edilsin:

“23.5. Apellyasiya instansiyası məhkəməsinin bütün məhkəmə tərkiblərinə ayrı-ayrılıqda edilmiş etiraz təmin edilmişsə, bu halda iş kassasiya instansiyası məhkəməsi tərəfindən başqa apellyasiya instansiya məhkəməsinə verilir.”;

1.8. Aşağıdakı məzmunda 24.3-cü maddə əlavə edilsin:

“24.3. Məhkəmə mübahisənin məhkəmə aidiyyəti ilə əlaqədar məsələlərini ərizənin məhkəmənin icraatına qəbul edilməsi zamanı yoxlamalıdır.”;

1.9. 28-ci maddədə “məhkəmələr” sözü “Azərbaycan Respublikasının məhkəmələri bu Məcəllə ilə müəyyən edilmiş aidiyyət qaydalarına uyğun olaraq” sözləri ilə əvəz edilsin;

1.10. 32.7-ci maddənin üçüncü cümləsində “kassasiya instansiyası məhkəməsi tərəfindən iş bir məhkəmədən başqasına verilir” sözləri “iş onu baxmağa qəbul etmiş məhkəmənin əsaslandırılmış qərardadı ilə kassasiya instansiyası məhkəməsinə göndərilir və aidiyyət məsələsi həmin məhkəmə tərəfindən həll edilir” sözləri ilə əvəz edilsin;

1.11. 35.3-cü maddəyə “iddia,” sözündən sonra “ərazi” sözü əlavə edilsin;

1.12. 36.8-ci maddə ləğv edilsin;

1.13. 39.1-ci maddədə “Tikintiyə, qurğuya, torpaq sahəsinə” sözləri “Daşınmaz əşyaya” sözləri ilə, “tikintinin, qurğunun, torpaq sahəsinin” sözləri hər iki halda “daşınmaz əşyanın” sözləri ilə, “sahibkarın” sözü “mülkiyyətçinin” sözü ilə əvəz edilsin;

1.14. 40-cı maddə üzrə:

1.14.1. 40.2-ci maddənin birinci cümləsindən “mübahisəli” sözü çıxarılsın;

1.14.2. 40.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"40.3. Saziş tərəflər arasında gələcəkdə baş verə biləcək konkret mübahisə ilə bağlı əvvəlcədən, habelə məhkəmənin icraatında olan müəyyən məhkəmə işi ilə bağlı həmin iş üzrə məhkəmənin hazırlıq iclası keçirilənədək bağlana bilər.";

1.15. 45-ci maddə üzrə:

1.15.1. adında "aidiyyət" sözü "ərazi aidiyyəti" sözləri ilə əvəz edilsin;

1.15.2. 45.1-ci maddə aşağıdakı redaksiyada verilsin

"45.1. Məhkəmə mübahisənin ərazi aidiyyəti ilə əlaqədar məsələləri ərizənin məhkəmənin icraatına qəbul edilməsi zamanı yoxlamalıdır. Ərazi aidiyyəti ilə bağlı məsələlərə məhkəmə tərəfindən onun öz təşəbbüsü və ya işdə iştirak edən şəxslərin əsaslandırılmış vəsatəti ilə baxılır.";

1.15.3. 45.2-ci maddədə "Mübahisənin məhkəməyə aid olmaması və ya işin başqa məhkəməyə verilməsi məsələləri barədə hakim" sözləri "Məhkəmə mübahisənin ərazi aidiyyəti ilə bağlı" sözləri ilə əvəz edilsin;

1.16. 49.5-ci maddədən ", inzibati" sözü çıxarılsın;

1.17. 50.1-ci maddənin ikinci cümləsindən "vəzifəli şəxslər," sözləri çıxarılsın;

1.18. 51.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"51.3. Başqa cavabdeh işə məhkəmə tərəfindən iddiaçının yazılı vəsatəti əsasında və ya məhkəmənin başqa cavabdehin cəlb edilməsinə dair təklifinə iddiaçının yazılı razılığı əsasında işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər cəlb edilir. Məhkəmə baxışı zamanı başqa cavabdehin işə cəlb edilməsinə o halda yol verilir ki, bunun üçün əsaslar məhkəmə baxışı gedişində əmələ gəlmiş olsun və ya iddiaçı bu hərəkətlərin işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər edilməsinin ondan asılı olmayan səbəblərə görə mümkün olmadığını əsaslandırsın.";

1.19. 53-cü maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"İddiaçı işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər iddianın əsasını və ya predmetini dəyişməyə, iddia tələbinin həcmini artırmağa və ya azaltmağa haqlıdır. Məhkəmə baxışı zamanı iddianın əsasını və ya predmetini dəyişməyə, iddia tələbinin həcmini artırmağa və ya azaltmağa o halda yol verilir ki, bunun üçün əsaslar məhkəmə baxışı gedişində əmələ gəlmiş olsun və ya iddiaçı bu hərəkətlərin işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər edilməsinin ondan asılı olmayan səbəblərə görə mümkün olmadığını əsaslandırsın.";

1.20. 54.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“54.1. İddia tələb hüququ olmayan şəxs tərəfindən verildikdə və ya iddiaya cavab verməli olmayan şəxsə verildikdə məhkəmə işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər iddiaçının yazılı razılığı ilə iddiaçını və ya cavabdehi əsl iddiaçı və ya cavabdeh ilə əvəz edə bilər. Məhkəmə baxışı zamanı iddiaçının və ya cavabdehin əsl iddiaçı və ya cavabdeh ilə əvəz edilməsinə o halda yol verilir ki, bunun üçün əsaslar məhkəmə baxışı gedişində əmələ gəlmiş olsun.”;

1.21. 55.1-ci maddədə “məhkəmə qətnamə çıxarana qədər” sözləri “işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər” sözləri ilə əvəz edilsin;

1.22. 57.1-ci maddədən “iş üzrə birinci instansiya məhkəməsi tərəfindən” sözləri çıxarılsın;

1.23. 60-cı maddədə “birinci instansiya məhkəməsi” sözləri “məhkəmə” sözü ilə əvəz edilsin;

1.24. 71-ci maddə üzrə:

1.24.1. 71.4-cü maddə ləğv edilsin;

1.24.2. 71.5-ci maddədə “Etirazların” sözü “Bu Məcəllənin 71.1-71.3-cü maddələrində nəzərdə tutulmuş şəxslərə verilən etirazların” sözləri ilə əvəz edilsin;

1.25. 77.2-ci maddə ləğv edilsin;

1.26. 78-ci maddə üzrə:

1.26.1. 78.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“78.1. Sübutlar işdə iştirak edən şəxslər tərəfindən birinci instansiya məhkəməsinə işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər təqdim edilir. Məhkəmə baxışı zamanı sübutların təqdim edilməsinə o halda yol verilir ki, bunun üçün əsaslar məhkəmə baxışı gedişində əmələ gəlmiş olsun və ya işdə iştirak edən şəxslər işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər sübutların təqdim edilməsinin onlardan asılı olmayan səbəblərə görə mümkün olmadığını əsaslandırsın.”;

1.26.2. aşağıdakı məzmunda 78.1-1-ci maddə əlavə edilsin:

“78.1-1. “Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə bu Məcəllənin 10-1.3-cü maddəsində nəzərdə tutulmuş qaydada aparılan elektron məhkəmə icraatı zamanı işdə iştirak edən şəxslər yazılı sübutları yalnız “Elektron məhkəmə” informasiya sistemində yaradılan elektron kabinet vasitəsilə təqdim edirlər. Bununla belə bu

qaydada təqdim olunmuş yazılı sübutun həqiqiliyi şübhə doğurarsa, məhkəmə həmin yazılı sübutun əslinin və ya lazımi qaydada təsdiq olunmuş surətinin təqdim olunmasını tələb edə bilər.”;

1.26.3. 78.4-cü maddədə “iki yüz iyirmi” sözləri “iki min” sözləri ilə əvəz edilsin;

1.27. 79.3-cü maddəyə “ekspertlər” sözündən sonra “, mütəxəssislər” sözü əlavə edilsin;

1.28. 89.3-cü maddədə “Lazımi” sözü “Yazılı” sözü ilə əvəz edilsin;

1.29. 95.3-cü maddədən “10.9 və” sözləri çıxarılsın və həmin maddədə “maddələrinin” sözü “maddəsinin” sözü ilə əvəz edilsin;

1.30. 97.1-ci maddənin birinci cümləsinə “şəxsin” sözündən sonra “yazılı qaydada verilən əsaslandırılmış” sözləri əlavə edilsin;

1.31. 101.1-ci maddənin birinci cümləsində “172.2-ci” sözləri “172.1.1 - ci” sözləri ilə əvəz edilsin;

1.32. 106-cı maddə üzrə:

1.32.1. 106.3-cü maddənin ikinci cümləsində “Faktın” sözü “Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə məhkəmə iclaslarının fasiləsiz audio yazısının aparıldığı hallar istisna olmaqla faktın” sözləri ilə əvəz edilsin;

1.32.2. 106.4-cü maddədən “həqiqi” sözü çıxarılsın;

1.33. 108.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“108.1. Mülki məhkəmə icraatında dövlət rüsumu aşağıdakı hallarda ödənilir:

108.1.1. iddia ərizəsi verildikdə;

108.1.2. iddianın predmetinə dair müstəqil tələb irəli sürən üçüncü şəxslər işə qoşulmaq barədə ərizə verdikdə;

108.1.3. xüsusi icraat qaydasında baxılan işlər üzrə ərizə verildikdə;

108.1.4. məhkəmə əmri haqqında ərizə verildikdə;

108.1.5. müvəqqəti təminat tədbiri barədə ərizə verildikdə;

108.1.6. iş üzrə icraatın xitam verilməsi, iddianın baxılmamış saxlanılması, məhkəmə cərimələrinin qoyulması, müvəqqəti təminat tədbirinin tətbiqi və ya bundan imtina barədə qərardadlardan şikayət verildikdə;

108.1.7. apellyasiya, kassasiya və ya əlavə kassasiya şikayəti verildikdə

108.1.8. qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yeni açılmış hallar üzrə yenidən baxılması üçün ərizə verildikdə;

108.1.9. məhkəmə aktlarının surətləri təkrarən verildikdə.”;

1.34. 112-ci maddə üzrə:

1.34.1. 112.4-cü maddədən ikinci cümlə çıxarılsın;

1.34.2. aşağıdakı məzmunda 112.5-ci və 112.6-cı maddələr əlavə edilsin:

“112.5. İddianın qiyməti iddia ərizəsi verilən vaxt mövcud olmuş bazar qiymətlərinə uyğun olaraq iddia ərizəsinin icraata qəbul edilməsi mərhələsində müəyyən olunmalıdır.

112.6. İddianın qiyməti açıq-aşkar əmlakın bazar qiymətinə uyğun olmadıqda, onun dəyəri məhkəmə tərəfindən müəyyən olunur.”;

1.35. 113.1-ci maddədə “dövlət rüsumunun miqdarı əvvəlcədən hakim tərəfindən müəyyən edilir” sözləri “, habelə iddianın qiyməti düzgün göstərilmədiyi hallarda dövlət rüsumunun miqdarı hakim tərəfindən müəyyən edilən iddia qiymətinə müvafiq hesablanır” sözləri ilə əvəz edilsin;

1.36. 119.1-ci və 119.2-ci maddələrdə “münasib” sözü “mütənasib” sözü ilə əvəz edilsin;

1.37. 1 35.7-ci maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

“Bu halda işdə iştirak edən şəxs məhkəmə iclasının vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş hesab edilir. SMS-in işdə iştirak edən şəxsə çatdırıldığı vaxt barədə məlumat “Elektron məhkəmə” informasiya sistemində qeyd edilir.”;

1.38. 138.1-ci və 138.2-ci maddələrə “vəzifələri,” sözündən sonra “işə şifahi və ya yazılı icraat qaydasında baxılması,” sözləri əlavə edilsin;

1.39. Aşağıdakı məzmunda 139.3-cü və 139.4-cü maddələr əlavə edilsin:

“139.3. Məhkəmə bildirişində verilmiş apellyasiya və kassasiya şikayətinin qərarın ləğv edilməsinə yönəldiyi və ya şikayətdə ifadə olunmuş dəlillərə əsasən mübahisənin predmetinin bölünməz olduğu halda, mübahisələndirilən hissə ilə bağlı işdə iştirak edən digər şəxslərin şikayət vermək hüquqlarından vaxtında istifadə etməmələrinin, habelə dəlillərini irəli sürməmələrinin sonradan şikayət vermə hüquqlarını aradan qaldırması ilə nəticələnəcəyi xüsusi olaraq izah edilməlidir.

139.4. İşə yazılı icraat qaydasında baxılması barədə bildirişdə bu Məcəllənin 139.2.1, 139.2.3-139.2.8-ci maddələrində nəzərdə tutulmuş məlumatlar, apellyasiya və kassasiya instansiyası icraatında isə həmçinin

işdə iştirak edən şəxslərə şikayətlərə dair onların etiraz və ya izahatlarının təqdim edilməsinə dair təklif göstərilməlidir.”;

1.40. 149-cu maddə üzrə:

1.40.1. 149.2.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“149.2.2. iddiaçının, onun nümayəndəsinin (əgər iddia ərizəsini nümayəndə təqdim edirsə), cavabdehin və işdə iştirak edən digər şəxslərin, şahidin və məhkəmə iclasına dəvət etmək istədiyi digər şəxslərin soyadı, adı, atasının adı (hüquqi şəxsə münasibətdə adı), şəxsiyyəti eyniləşdirməyə imkan verən digər məlumatlar, yaşayış yeri və ya olduğu yer (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), yazışmaların aparılmasının istənildiyi digər ünvan, olduğu halda - iş yerinin ünvanı, telefon nömrələri, o cümlədən mobil telefon nömrələri, elektron poçt ünvanı, cavabdehin və işdə iştirak edən digər şəxslərin eyniləşdirmə məlumatları (şəxsiyyət vəsiqəsinin seriya nömrəsi və ya VÖEN, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, xarici hüquqi şəxslərin və ya onların nümayəndəsinin eyniləşdirmə məlumatları);”;

1.40.2. 149.2.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

“149.2.3. iddianın predmeti və qiyməti, iddiaçının və ya ərizəçinin tələbləri, onların öz tələblərinin əsası kimi istinad etdiyi fakt və hallar və onları təsdiq edən sübutların siyahısı, iddia bir neçə cavabdehə verildikdə isə onların hər birinə qarşı yönələn tələb;”;

1.41. 150-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

“150.1. İddia ərizəsinə aşağıdakı sənədlər əlavə edilir:

150.1.1. cavabdehlərin və üçüncü şəxslərin sayına görə iddia ərizəsinin surətləri (iddia ərizəsi elektron formada verildiyi hal istisna olmaqla);

150.1.2. dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd;

150.1.3. iddia ərizəsinin səlahiyyətli şəxs tərəfindən imzalanmasını təsdiq edən sənəd (iddia ərizəsi elektron qaydada verildiyi halda belə səlahiyyətin elektron imza ilə təsdiq edildiyi hal istisna olmaqla);

150.1.4. bu Məcəllənin 150.2-ci maddəsinə uyğun olaraq kommersiya mübahisələri üzrə işdə iştirak edən digər şəxslər tərəfindən iddia ərizəsinin surətinin və ona əlavə edilmiş sənədlərin alınması haqqında sənəd;

150.1.5. iddia ərizəsi elektron qaydada verildiyi hal istisna olmaqla, iddia ərizəsində göstərilən bütün yazılı sübutların işdə iştirak edən şəxslərin sayına görə surətləri;

150.1.6. müqavilə ilə və ya həmin kateqoriya mübahisələr üçün qanunda bu nəzərdə tutulmuşsa, cavabdehlə mübahisənin məhkəməyə qədər və ya

pretenziya qaydasında nizama salınmasına riayət edilməsini təsdiq edən sənəd (kommersiya mübahisələri üzrə həmin sənədlər bu Məcəllənin 1 50.2-ci maddəsinə uyğun olaraq verilir);

150.1.7. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tərəflərin məhkəməyə müraciət etməzdən əvvəl mediasiya prosesində iştirakı tələb olunduğu halda, həmin tələbə riayət edilməsini təsdiq edən sənəd.

150.2. Kommersiya mübahisələri üzrə elektron qaydada verilən iddia ərizəsi və ona əlavə edilmiş sənədlər işdə iştirak edən digər şəxslərin "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinetinə göndərilir və bu barədə məlumat elektron qaydada (elektron poçt və SMS vasitəsilə) onlara çatdırılır. Əgər sahibkar olan cavabdeh "Elektron məhkəmə" informasiya sistemində qeydiyyatdan keçməmişsə, bu halda kommersiya mübahisələri üzrə elektron qaydada verilən iddia ərizəsi barədə bildiriş və "Elektron məhkəmə" informasiya sistemində qeydiyyatdan keçmə qaydasına dair məlumat həmin şəxsin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində yaradılmış elektron kabinetinə göndərilir və bu barədə məlumat elektron qaydada (elektron poçt və SMS vasitəsilə) ona çatdırılır. Cavabdeh qeyri-rezident olduğu halda iddia ərizəsi və ona əlavə edilmiş sənədlər onun nümayəndəsinin "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinetinə göndərilir.

150.3. İddiaçı ondan asılı olmayan səbəblərə görə hər hansı konkret sübutu iddia ilə birgə təqdim edə bilmədikdə, bunu iddia ərizəsində göstərməlidir.";

1.42. 151.3-cü maddədə "10" rəqəmləri "5" rəqəmi ilə əvəz edilsin;

1.43. 152-ci maddə üzrə:

1.43.1. 152.1.1-ci maddəyə "edilmədikdə" sözündən sonra "və ya bu Məcəllənin 150.1.1-ci maddəsində göstərilən sənədlər iddia ərizəsinə əlavə edilmədikdə" sözləri əlavə edilsin;

1.43.2. 152.1.3-cü maddəyə "ərazi" sözündən sonra "və ya məhkəmə" sözləri əlavə edilsin;

1.43.3. 152.1.9-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 152.1.10-cu maddə əlavə edilsin:

"152.1.10. kommersiya mübahisələri üzrə iddia ərizəsi bu Məcəllənin 10-1.3-cü maddəsinin tələblərinə uyğun verilmədikdə.";

1.44. 153-cü maddə üzrə:

1.44.1. 153.2.1-ci maddəyə “qaydasında” sözündən sonra “və ya mülki məhkəmə icraatı qaydasında” sözləri əlavə edilsin”;

1.44.2. 153.3-cü maddənin ikinci cümləsinə “qaydasında” sözündən sonra “və ya mülki məhkəmə icraatı qaydasında” sözləri, “orqana” sözündən sonra “və ya məhkəməyə” sözləri əlavə edilsin;

1.45. 154-cü maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 154. İddia ərizəsinə etiraz etmə

İşdə iştirak edən şəxs iddia ərizəsinin surətini aldıqdan sonra 20 gün ərzində iddiaya etirazını, qoyulmuş suallara cavablarını və ərizəyə əlavə olunmuş sənədlərə münasibətini, həmçinin iddiaya etirazın və ona əlavə olunmuş sənədlərin surətlərini iddiaçıya və məhkəməyə təqdim edir.

154.2. İddiaya etirazda aşağıdakılar göstərilməlidir:

154.2.1. etirazın göndərildiyi məhkəmənin adı;

154.2.2. işdə iştirak edən şəxsin, onun nümayəndəsinin (əgər etirazı nümayəndə təqdim edirsə), şahidin və məhkəmə iclasına dəvət etdiyi digər şəxslərin soyadı, adı, atasının adı, yaşayış yeri (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), olduğu halda - iş yerinin ünvanı, telefon nömrələri, o cümlədən mobil telefon nömrələri, elektron poçt ünvanı, cavabdehin və işdə iştirak edən digər şəxslərin eyniləşdirmə məlumatları (şəxsiyyət vəsiqəsinin seriya nömrəsi və ya VÖEN, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, xarici hüquqi şəxslərin və ya onların nümayəndəsinin eyniləşdirmə məlumatları);

154.2.3. iddianı etiraf edib-etməməsi, əgər qismən etiraf edirsə hansı hissədə;

154.2.4. iddianı etiraf etmirsə, onun etirazının əsaslandığı fakt və hallar;

154.2.5. istinad etdiyi fakt və halları təsdiq edən sübutların siyahısı;

154.2.6. olduğu halda vəsatətlər (hakimə etiraz etmə, üçüncü şəxslərin və (və ya) başqa cavabdehin cəlb edilməsi, əsl olmayan tərəfin əvəz edilməsi, iddia tələblərinin birləşdirilməsi və ya ayrılması, sübutların tələb edilməsi, şahidlərin çağırılması, ekspertizanın təyin olunması və s. barədə);

154.2.7. əlavə olunmuş sənədlərin siyahısı.

154.3. İddiaya etirazda ardıcıl və tam şəkildə iddiaçının göstərdiyi hər bir dəlilə münasibət bildirilməli, işin faktiki halları və sübutlara dair dəlillər əks olunmalıdır. İşdə iştirak edən şəxs iddiada göstərilən hər hansı halla

razılaşmadıqda bunun səbəblərini və əsaslandırılmış dəlillərini göstərməlidir.

154.4. İşdə iştirak edən şəxs iddiaya etirazda göstərilən bütün sübutların siyahısını təqdim etməlidir. Ondan asılı olmayan səbəblərə görə hər hansı sübut barədə məlumatın iddiaya etiraz ilə birgə təqdim edilməsi mümkün olmadıqda, işdə iştirak edən şəxs bunu göstərməlidir.

154.5. İddiaya etiraz işdə iştirak edən şəxs və ya onun nümayəndəsi tərəfindən imzalanır. Nümayəndənin imzaladığı etiraza onun işi aparmağa səlahiyyətini təsdiq edən sənədlər əlavə edilir.”;

1.46. 155-ci maddə üzrə:

1.46.1. 155.1-ci maddənin ikinci cümləsində “işin baxılmasına başlanana kimi” sözləri “bu Məcəllənin 154.1-ci maddəsində nəzərdə tutulmuş müddət ərzində” sözləri ilə əvəz edilsin;

1.46.2. 155.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“155.2. Bu Məcəllənin 154.1-ci maddəsində nəzərdə tutulmuş müddətin keçməsindən sonra və ya məhkəmə baxışı zamanı qarşılıqlı iddia o halda verilə bilər ki, onun verilməsi üçün əsaslar həmin dövrdə əmələ gəlmiş olsun və ya cavabdeh qarşılıqlı iddianın həmin müddətdə təqdim edilməsinin ondan asılı olmayan səbəblərə görə mümkün olmadığını əsaslandırsın. Bu Məcəllənin 154.1-ci maddəsində nəzərdə tutulmuş müddətin keçməsindən sonra bu Məcəllənin 156.1.3-cü maddəsində nəzərdə tutulmuş əsaslarla qarşılıqlı iddianın verilməsinə yol verilmir.”;

1.47. 13-cü fəslin adı aşağıdakı redaksiyada verilsin:

“Fəsil 13. Müvəqqəti təminat tədbirləri”;

1.48. 157-ci maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 157. Müvəqqəti təminat tədbirlərinin tətbiqi

157.1. Maraqlı şəxslərin ərizəsi ilə məhkəmə müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərardad qəbul edə bilər.

157.2. Müvəqqəti təminat tədbirləri cavabdehin və ya digər şəxslərin hərəkətləri (hərəkətsizliyi) nəticəsində mövcud vəziyyətin dəyişəcəyi təqdirdə ərizəçinin hüquqlarının qorunmasının (təmin və ya bərpa edilməsinin) mümkün olmayacağı və ya əhəmiyyətli dərəcədə çətinləşəcəyinin qarşısını almaq məqsədilə tətbiq edilir.

157.3. Müvəqqəti təminat tədbirinin tətbiqi haqqında ərizə məhkəmədə iddia ərizəsi verilənədək, iddia ilə eyni vaxtda və ya məhkəmə icraatının gedişində verilə bilər.

157.4. İddia ərizəsi verilənədək müvəqqəti təminat tədbirinin tətbiqi haqqında ərizə verildikdə məhkəmə 1 aydan çox olmayan müddətə müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərardad qəbul edə bilər. Qərardadda müvəqqəti təminat tədbirinin qüvvədən düşəcəyi tarix qeyd edilməlidir. Bu müddət ərzində iddia ərizəsi verilərsə, müvəqqəti təminat tədbirlərinin tətbiqi məsələsinə müvafiq vəsatət əsasında yenidən baxılır və qərardad qəbul edilir.

157.5. Müvəqqəti təminat tədbirinin tətbiqi haqqında ərizədə aşağıdakılar əsaslandırılmalıdır:

157.5.1. müvəqqəti təminat tədbiri tətbiq edilmədən bu Məcəllənin 157.2-ci maddəsində nəzərdə tutulmuş məqsədlərə nail olmağın mümkün olmadığı;

157.5.2. iddia tələbinin kifayət qədər əsaslılığına dair ilkin sübutların mövcudluğu.

157.6. Müvəqqəti təminat tədbirləri bu Məcəllənin 157.2-ci maddəsində göstərilən məqsədlərə mütənasib olmalı və əks tərəfin hüquqlarının lüzumsuz məhdudlaşdırılması ilə nəticələnməməlidir.

157.7. Məhkəmənin müvəqqəti təminat tədbirinin tətbiqi barədə qərardadı müvəqqəti xarakter daşıyır və işin qabaqcadan mahiyyəti üzrə həll edilməsi hesab edilmir.";

1.49. 158-ci maddə üzrə:

1.49.1. 158-ci maddənin adı aşağıdakı redaksiyada verilsin:

"Maddə 158. Müvəqqəti təminat tədbirlərinin növləri və həmin tədbirlərə riayət edilməməsinin nəticələri";

1.49.2. 158.1-ci maddədə "İddianı təmin etmək üçün aşağıdakı tədbirlər görülə" sözləri "Aşağıdakı müvəqqəti təminat tədbirləri tətbiq edilə" sözləri ilə əvəz edilsin;

1.49.3. 158.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"158.2. Məhkəmə zəruri hallarda digər müvəqqəti təminat tədbirlərini də tətbiq edə bilər. Məhkəmə müvəqqəti təminat tədbirlərinin bir neçə növünü birlikdə tətbiq edə bilər.";

1.49.4. 158.5.1-ci maddədə "50% miqdarında" sözləri "50 faizinədək miqdarda" sözləri ilə əvəz edilsin;

1.49.5. 158.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

“158.6. Maraqlı şəxslər müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərardadın icra edilməməsi nəticəsində dəymiş ziyanın ödənilməsini məhkəmə qaydasında tələb etməyə haqlıdır.”;

1.50. 159-cu maddə üzrə:

1.50.1. adında “İddianı təmin etmək” sözləri “Müvəqqəti təminat tədbirləri” sözləri ilə əvəz edilsin;

1.50.2. 159.1-ci maddədə “İddianı təmin etmək haqqında” sözləri “Müvəqqəti təminat tədbirləri haqqında əsaslandırılmış” sözləri ilə əvəz edilsin və həmin maddəyə “təxirə salınmadan” sözlərindən sonra “ayrıca icraatda” sözləri əlavə edilsin;

1.50.3. aşağıdakı məzmunda 159.4-cü və 159.5-ci maddələr əlavə edilsin:

“159.4. Məhkəmə aşağıdakı hallarda müvəqqəti təminat tədbirlərinin görülməsinə dair ərizənin geri qaytarılması haqqında qərardad qəbul edir:

159.4.1. ərizəyə müəyyən edilmiş qaydada dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd əlavə edilmədikdə;

159.4.2. ərizə imzalanmadıqda və ya onu imzalamağa hüququ olmayan şəxs tərəfindən, yaxud xidməti vəziyyəti göstərilməyən şəxs tərəfindən imzalandıqda.

159.5. Bu Məcəllənin 159.4.1-ci və 159.4.2-ci maddələrində göstərilən hallar aradan qaldırıldıqdan sonra yenidən ərizə ilə məhkəməyə müraciət edilə bilər.”;

1.51. 160-cı maddə üzrə:

1.51.1. adında və 160.1-ci maddədə “İddianı təmin etmək” sözləri “Müvəqqəti təminat tədbirləri” sözləri ilə əvəz edilsin;

1.51.2. 160.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“160.2. Müvəqqəti təminat tədbirlərinin görülməsi haqqında qərardad icra edilməsi üçün aidiyyəti orqanlara göndərilir və ya həmin qərardad əsasında icra vərəqəsi verilir. Qərardad və ya icra vərəqəsinin təsdiq olunmuş surəti aidiyyəti orqana təqdim edilməsi üçün ərizəçinin tələbi ilə ona verilə bilər.”;

1.52. 161-ci maddə üzrə:

1.52.1. adında və 161.2-ci maddədə “İddianı təmin etmənin” sözləri “Müvəqqəti təminat tədbirinin” sözləri ilə əvəz edilsin;

1.52.2. 161.1-ci maddədə “iddianı təmin etmə” sözləri “müvəqqəti təminat” sözləri ilə əvəz edilsin;

1.52.3. 161.2-ci maddədə "təmin etmənin" sözləri "müvəqqəti təminat tədbirinin" sözləri ilə əvəz edilsin;

1.53. 162-ci maddə üzrə:

1.53.1. adında və 162.2-ci maddənin birinci cümləsində "İddianı təmin etmənin" sözləri "Müvəqqəti təminat tədbirinin" sözləri ilə əvəz edilsin;

1.53.2. 162.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"162.1. Müvəqqəti təminat tədbirləri məhkəmənin təşəbbüsü ilə və ya tərəflərin, işdə iştirak edən şəxslərin, yaxud işdə iştirak etməyə cəlb edilməyən, lakin qəbul edilən qərardad onların hüquq və vəzifələrinə toxunan hallarda digər şəxslərin ərizəsi ilə həmin məhkəmənin özü tərəfindən ləğv oluna bilər.";

1.53.3. 162.2-ci maddənin üçüncü cümləsində "iddianı təmin etmənin" sözləri "müvəqqəti təminat tədbirinin" sözləri ilə əvəz edilsin;

1.53.4. 162.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"162.3. İddia rədd edildikdə, baxılmamış saxlanıldıqda və ya iş üzrə icraata xitam verildikdə məhkəmənin tətbiq etdiyi müvəqqəti təminat tədbiri məhkəmə aktı qanuni qüvvəyə minənə qədər saxlanılır. Məhkəmə qətnamə ilə eyni zamanda və ya qətnamə çıxarıldıqdan sonra, müvəqqəti təminat tədbirinin ləğv edilməsi haqqında qərardad çıxara bilər.";

1.53.5. 162.4-cü maddədə "onun təmin edilməsi üçün görülmüş tədbirlər" sözləri "müvəqqəti təminat tədbirləri" sözləri ilə əvəz edilsin;

1.54. 163-cü maddə üzrə:

1.54.1. adında "İddianı təmin etmək haqqındakı" sözləri "Müvəqqəti təminat tədbirinin tətbiqi barədə" sözləri ilə əvəz edilsin;

1.54.2. 163.1-ci maddədə "İddianı təmin etmək məsələləri" sözləri "Müvəqqəti təminat tədbirləri" sözləri ilə əvəz edilsin;

1.54.3. 163.2-ci maddədə "İddianı təmin etmək" sözləri "Müvəqqəti təminat tədbiri" sözləri ilə əvəz edilsin;

1.54.4. 163.3-cü maddədə "İddianın təmin edilməsi" sözləri "Müvəqqəti təminat tədbiri" sözləri ilə əvəz edilsin;

1.54.5. 163.4-cü maddədə "İddianı təmin etməni" sözləri "Müvəqqəti təminat tədbirini" sözləri ilə, "iddianın" sözü "müvəqqəti təminat tədbirinin" sözləri ilə əvəz edilsin;

1.55. 164-cü maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 164. Müvəqqəti təminat tədbirinin tətbiqi nəticəsində vurulmuş zərərin ödənilməsi

İşi mahiyyəti üzrə həll edən məhkəmə aktı qüvvəyə mindikdən sonra, habelə məhkəmədə iddia ərizəsi verilənədək müvəqqəti təminat tədbirinin tətbiqi barədə qərardad qəbul edildikdə, lakin iddia ərizəsi bu Məcəllənin 157.4-cü maddəsində müəyyən edilmiş müddətdə verilmədikdə maraqlı şəxslər məhkəmə tərəfindən təyin edilmiş müvəqqəti təminat tədbirlərinin tətbiqi nəticəsində vurulmuş zərəri məhkəmə qaydasında tələb etməyə haqlıdır.";

1.56. 166.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"166.3. Məhkəmənin hazırlıq iclası ərizə məhkəməyə daxil olduqdan sonra 40 (qırx) gündən gec olmayaraq keçirilir. Sonrakı müddətdə işin xüsusiyyətlərindən asılı olaraq daha bir neçə hazırlıq iclası keçirilə bilər.";

1.57. 167-ci maddə üzrə:

1.57.1. 167.1.1-ci maddədə "iddianın məhkəməyə çıxarılması" sözləri "işin məhkəmə baxışına təyin edilməsi" sözləri ilə əvəz edilsin;

1.57.2. 167.1.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"167.1.2. tərəflərə təqdim olunmuş yazılı sənədləri tamamlamağı, zərurət olduqda təqdim olunmuş yazılı materiallarla bağlı izahlar verməyi, habelə iş üçün əhəmiyyətli olan sənədləri və digər sübutları işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər təqdim etməyi təklif edir;";

1.57.3. 167.1.3-cü maddə ləğv edilsin;

1.57.4. 167.1.10-cu maddə aşağıdakı redaksiyada verilsin:

"167.1.10. Bu Məcəllənin 78.2-ci maddəsinə uyğun olaraq işdə iştirak edən şəxslərin əsaslandırılmış vəsatəti ilə fiziki və hüquqi şəxslərdən və ya orqanlardan sübutlar tələb edir;";

1.57.5. 167.1.11-ci maddədən "təxirə salınmamalı hallarda" sözləri çıxarılsın;

1.58. 168.1 -ci maddə aşağıdakı redaksiyada verilsin:

"168.1. Hakim iddia ərizəsini icraata götürdükdən sonra 5 gün müddətində iddia ərizəsinin surətinin və ona əlavə edilmiş sənədlərin işdə iştirak edən şəxslərə göndərilməsini və ya rəsmi qaydada verilməsini təmin edir.";

1.59. 172-ci maddə üzrə:

1.59.1. 172.1-ci və 172.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"172.1. İşə ağlabatan müddətdə, lakin ərizə məhkəməyə daxil olduğu vaxtdan aşağıdakı müddətlərdən gec olmayaraq baxılmalı və işin həllinə dair qətnamə və ya qərardad çıxarılmalıdır:

172.1.1 işə bərpa, aliment tutulmasına dair işlərə - 2 ay;

172.1.2 ipoteka müqaviləsindən irəli gələn mübahisələrə və iflas haqqında işlərə - 3 ay;

172.1.3. digər mübahisələrə dair işlərə - 4 ay müddətində.

172.2. İşdə iştirak edən şəxslərin sayının çoxluğu və ya baxışın təşkilinin xüsusilə mürəkkəb olması ilə əlaqədar bu Məcəllənin 172.1.3-cü maddəsində nəzərdə tutulmuş müddət məhkəmənin əsaslandırılmış qərardadı ilə 2 aydan artıq olmayan müddətə uzadıla bilər.";

1.59.2. 172.3-cü maddədə "qanunla" sözü "bu Məcəllə ilə" sözləri ilə əvəz edilsin;

1.60. 173-cü maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Bu Məcəllədə nəzərdə tutulmuş hallarda işlərə yazılı icraat qaydasında baxıldığı hallar istisna olmaqla, işə məhkəmə iclasında baxılır. İşdə iştirak edən şəxslər məhkəmə iclası barədə həmin iclasa ən azı 5 (beş) iş günü qalmış xəbərdar edilməlidirlər.";

1.61. Aşağıdakı məzmunda 174.5-ci maddə əlavə edilsin:

"174.5. Məhkəmə, işə düzgün və tezliklə baxılmasına və onun həll edilməsinə aşkar surətdə maneçilik törədən, o cümlədən dəfələrlə açıq-aşkar əsassız vəsatət və ya şikayətlər verən işdə iştirak edən şəxsləri, onların nümayəndələrini və ya vəkillərini 500 manatadək cərimə edə bilər. Cərimənin məbləği məhkəmə tərəfindən konkret hallar nəzərə alınmaqla ağlabatan miqdarda müəyyən edilir.";

1.62. 175-ci maddə üzrə:

1.62.1. 175.1 -ci maddədə "dinləməyə" sözü "öyrənməyə" sözü ilə əvəz edilsin;

1.62.2. 175.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"175.3. İşə hakimlərin dəyişilməz tərkibində baxılır. Bu Məcəllədə nəzərdə tutulmuş hallar istisna olmaqla, işə şifahi dinləmələr keçirilməklə baxılır.";

1.63. 177.3-cü maddədə "əlli beş" sözləri "beş yüz" sözləri ilə əvəz edilsin;

1.64. 184-cü maddə üzrə:

1.64.1. 184.1-ci maddədən ", onların bütün sübutları təqdim edib-etməmələrini, iş materialları ilə tanış olub-olmamalarını aydınlaşdırır" sözləri çıxarılsın;

1.64.2. 184.2-ci maddədə "Hakimin işdə iştirak edən şəxslərə təklif etməsinə baxmayaraq, onların iddia ərizəsinə dair rəyi (etirazı) və ya əlavə" sözləri "İşdə iştirak edən şəxslərin iddia ərizəsinə etirazı və ya" sözləri ilə əvəz edilsin;

1.64.3. 184.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"184.3. Hakim yeni sübutun təqdim və ya tələb edilməsi barədə vəsatəti yalnız o halda təmin edir ki, bunun üçün əsaslar məhkəmə baxışı gedişində əmələ gəlmiş olsun və ya işdə iştirak edən şəxslər işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər həmin vəsatətin verilməsinin onlardan asılı olmayan səbəblərə görə mümkün olmadığını əsaslandırsın.";

1.64.4. aşağıdakı məzmunda 184.5-ci maddə əlavə edilsin:

"184.5. İşdə iştirak edən şəxslərin vəsatətləri əsaslandırılmalıdır. Hakim işin baxılmasını yubatmaq məqsədilə verilmiş vəsatətləri rədd edir.";

1.65. 188-ci maddə üzrə:

1.65.1. 188.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"188.1. İşə baxılmasının təxirə salınmasına məhkəmənin əsaslandırılmış qərardadı ilə, qabaqcadan nəzərdə tutula bilməyən aşağıdakı müstəsna hallarda yol verilir:

188.1.1. işdə iştirak edən şəxslərdən hər hansı biri və ya tərcüməçi gəlmədikdə;

188.1.2. iddianın əsasını və ya predmetini dəyişmək üçün ərizə verildikdə;

188.1.3. qarşılıqlı iddia verildikdə;

188.1.4. əlavə sübutlar təqdim və tələb etmək zərurəti yarandıqda;

188.1.5. işdə iştirak etməyə digər şəxs cəlb edildiyinə görə məhkəmə həmin iclasda işə baxılmasını qeyri-mümkün hesab etdikdə;

188.1.6. bu Məcəllədə nəzərdə tutulmuş digər hallarda.";

1.65.2. 188.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"188.3. İşə baxılması 3 dəfədən artıq təxirə salına bilməz.";

1.66. 190-cı maddə üzrə:

1.66.1. maddənin mətninin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin

"Bundan sonra sədrlik edən iddianı və iddiaya etirazda göstərilmiş işin faktiki hallarını, işin mübahisəsiz hallarını və tərəflərin mübahisələndirdiyi halları, həmçinin tərəflərin təqdim etdiyi sübutları elan edir.";

1.66.2. aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“İşin məruzəsindən sonra sədrlik edən əlavələrin və ya dəqiqləşdirmələrin olub-olmamasını aydınlaşdırır.”;

1.67. aşağıdakı məzmunda 192.3-cü maddə əlavə edilsin:

“192.3. Uşaqların hüquq və mənafeləri ilə bağlı mübahisələrin həlli zamanı mübahisə ilə mənafelərinə toxunulan uşaqların fikrinin öyrənilməsi uşağın təhsil aldığı müəssisənin nümayəndəsinin iştirakı ilə aparılır. Zəruri halda həmin iclasda uşağın valideynləri, övladlığa götürənlər, qəyyum və ya himayəçi də iştirak edə bilər. Göstərilən şəxslər sədrlik edənin icazəsi ilə uşağa suallar verə bilərlər.”;

1.68. 193-cü maddənin mətni 193.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 193.2-ci maddə əlavə edilsin:

“193.2. “Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə bu Məcəllənin 10-1.3-cü maddəsində nəzərdə tutulmuş qaydada aparılan elektron məhkəmə icraatında bu Məcəllənin 78.2-ci maddəsində nəzərdə tutulmuş qaydada məhkəmənin tələbi əsasında işdə iştirak etməyən şəxslər tərəfindən təqdim olunmuş yazılı sübutlar, məhkəmə araşdırması gedişində təqdim olunmuş ekspert rəyi, mütəxəssisin məsləhəti, dövlət orqanlarının və yerli özünüidarə orqanlarının rəyləri, bu Məcəllənin 83-cü, 85-ci və 167.1.11-ci maddələrində nəzərdə tutulmuş qaydada toplanmış yazılı sübutlar və ya onların müayinə protokolları, 105.2-ci maddəsində nəzərdə tutulmuş qaydada toplanmış şahid ifadələri işə baxan məhkəmə tərəfindən elektron məhkəmə icraatı materiallarına əlavə edildikdən sonra tədqiq edilə bilər.”;

1.69. 200-cü maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 200. Şəxsi yazışmaların elan edilməsi

Şəxsi yazışmaların gizliliyini qorumaq məqsədi ilə bu yazışmalar yalnız onların ünvanlandığı şəxslərin razılığı ilə açıq məhkəmə iclasında açıqlana bilər. Əgər belə razılıq olmazsa həmin sübutların elan və tədqiq edildiyi məhkəmə iclasları qapalı keçirilir.”;

1.70. 209-cu maddə üzrə:

1.70.1. 209.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“209.1. Bütün sübutlar tədqiq edildikdən sonra, sədrlik edən işdə iştirak edən şəxslər və onların nümayəndələrinin bu barədə mövqeyini öyrənməklə iş üzrə halların tədqiqinin qurtardığını elan edir və məhkəmə çıxışlarına keçir.”;

1.70.2. 209.2-ci maddə ləğv edilsin;

1.71. 212-ci maddədən "yeni" sözü hər iki halda çıxarılsın və həmin maddəyə "sübutları" sözündən sonra "yenidən" sözü əlavə edilsin;

1.72. 214-cü maddə üzrə:

1.72.1. 214.2-ci maddədə "qətnamə" sözü "qətnamənin nəticə hissəsi" sözləri ilə əvəz edilsin;

1.72.2. 214.4-cü maddənin üçüncü cümləsi aşağıdakı redaksiyada verilsin:

"İşdə iştirak edən şəxslərin tələbi ilə qətnamənin giriş və nəticə hissələrini əks etdirən çıxarış elan olduğu gün həmin şəxslərə rəsmi qaydada verilir.";

1.73. 215-ci maddədə "qətnaməni və yaxud onun" sözləri "qətnamənin" sözü ilə əvəz edilsin;

1.74. 216-cı maddə üzrə:

1.74.1. adından "və elan edilməsi" sözləri çıxarılsın;

1.74.2. 216.4-cü maddə ləğv edilsin;

1.75. 217-ci maddə üzrə:

1.75.1. 217.3-cü maddədən "həqiqi" sözü çıxarılsın;

1.75.2. aşağıdakı məzmunda 217.5-ci maddə əlavə edilsin:

"217.5. Bu Məcəllənin 10-1.3-cü maddəsində nəzərdə tutulmuş məhkəmə icraatında işə baxan məhkəmə öz qətnaməsini yalnız elektron məhkəmə icraatı materiallarına əlavə edilmiş və məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır.";

1.76. 218.2-ci maddədə "yeni halları aydınlaşdırmağı və ya əlavə sübutları" sözləri "halları əlavə olaraq aydınlaşdırmağı və ya sübutları əlavə olaraq" sözləri ilə əvəz edilsin;

1.77. 220-ci maddə üzrə:

1.77.1. 220.3-cü maddədən "və ya mülahizələri" sözləri çıxarılsın;

1.77.2. 220.4-cü maddənin birinci cümləsinə "qanun və" sözlərindən sonra "digər" sözü əlavə edilsin, həmin maddədə "normativ" sözü "digər" sözü ilə əvəz edilsin;

1.78. 222.2-ci maddədə "ziyan" sözü "faiz borcunu, zərər" sözləri ilə əvəz edilsin;

1.79. 227.1-ci maddə ləğv edilsin və 227.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"227.2. Qətnamənin nəticə hissəsi elan edildikdən sonra əsaslandırılmış qətnamənin tərtib edilməsi 10 iş günü müddətinədək başa çatdırılmalıdır.";

1.80. 228-ci maddə üzrə:

1.80.1. adında "Qətnamədəki" sözü "Qətnamədə və qərardadda" sözü ilə əvəz edilsin;

228.2-ci maddəyə "qətnamədə" sözündən sonra "və ya qərardadda" sözləri əlavə edilsin;

1.81. 229-cu maddə üzrə:

1.81.1. adına "qətnamə" sözündən sonra "və əlavə qərardad" sözləri əlavə edilsin;

1.81.2. 229.1-ci maddəyə "İş üzrə qətnamə" sözlərindən sonra "və ya qərardad" sözləri əlavə edilsin, "əlavə qətnamə" sözlərindən sonra "və ya əlavə qərardad" sözləri əlavə edilsin;

1.81.3. 229.1.1-ci maddəyə "qətnamə" sözündən sonra "və ya qərardad" sözləri əlavə edilsin;

1.81.4. 229.2-ci maddənin birinci cümləsinə "Əlavə qətnamənin" sözlərindən sonra "və ya əlavə qərardadın" sözləri, "məsələyə qətnamənin" sözlərindən sonra "və ya qərardadın" sözləri əlavə edilsin;

1.81.5. 229.2-ci maddənin ikinci cümləsinə "qətnamə" sözündən sonra "və ya əlavə qərardad" sözləri əlavə edilsin;

1.81.6. 229.2-ci maddənin üçüncücümləsində "əlavə qətnamənin çıxarılması məsələsinə" sözləri "məsələyə" sözü ilə əvəz edilsin;

1.81.7. 229.3-cü maddəyə "qətnamə" sözündən sonra "və ya əlavə qərardad" sözləri əlavə edilsin, "qətnamədən" sözündən sonra "və ya əlavə qərardaddan" sözləri əlavə edilsin;

1.82. 230-cu maddə üzrə:

1.82.1. adına, 230.4-cü maddənin birinci cümləsinə, 230.5-ci maddəyə "Qətnamənin" sözündən sonra "və ya qərardadın" sözləri əlavə edilsin;

1.82.2. 230.1-ci maddədə ", apellyasiya instansiyası məhkəməsi tərəfindən" sözləri "işdə iştirak edən şəxslərin ərizəsi əsasında" sözləri ilə əvəz edilsin;

1.82.3. 230.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"230.2. Birinci instansiya və apellyasiya instansiyası məhkəməsinin qətnaməsi və ya qərardadı dəyişirsə və yeni məhkəmə aktı çıxarılırsa, onun izah edilməsini iş üzrə son qətnaməni və ya qərardadı çıxarmış məhkəmə həyata keçirir.";

1.82.4. 230.3-cü maddəyə “Qətnamə” sözündən sonra “və ya qərardad” sözləri əlavə edilsin;

230.4-cü maddənin üçüncü cümləsində “qətnamənin izah edilməsi məsələsinə” sözləri “məsələyə” sözü ilə əvəz edilsin;

1.83. 233.1-ci maddədə “qəbul edildiyi” sözləri “işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi” sözləri ilə əvəz edilsin;

1.84. aşağıdakı məzmunda 236-1-ci maddə əlavə edilsin:

“Maddə 236-1. İcrada dönüş

236-1.1. İcra edilmiş qətnamə ləğv edildikdə və işə yenidən baxıldıqdan sonra iddianın tamamilə və ya onun bir hissəsinin rədd edilməsi haqqında qətnamə, yaxud iş üzrə icraata xitam verilməsi, yaxud da iddianın baxılmamış saxlanması haqqında qərardad çıxarıldıqda bu aktı qəbul etmiş məhkəmə icrada dönüş edilməsi barədə tədbirlər görməli, o cümlədən ləğv edilmiş qətnamə üzrə bir tərəfin xeyrinə alınanları digər tərəfə qaytarmalı, əmlakı qaytarmaq mümkün olmadıqda isə, həmin əmlakın dəyərini tutmalıdır.

236-1.2. Məhkəmə öz təşəbbüsü ilə icrada dönüş haqqında məsələyə baxmalı və iş üzrə icraatın yekunlaşdığı yeni qətnamədə, yaxud qərardadda onu həll etməlidir.

236-1.3. Məhkəmə ləğv edilmiş qətnamənin icrasında dönüş haqqındakı məsələni həll etməzsə, işdə iştirak edən şəxslərin, yaxud işdə iştirak etməyə cəlb edilməyən, lakin ləğv edilmiş qətnamə və ya qərardad əsasında aparılmış icra onların hüquq və vəzifələrinə toxunan hallarda digər şəxslərin icrada dönüş haqqında ərizəsi üzrə məhkəmə qərardad qəbul edir. Bu ərizəyə işdə iştirak edən şəxslər xəbərdar edilməklə, məhkəmə iclasında baxılır. Lakin həmin şəxslərin gəlməməsi məhkəmə qarşısında qoyulmuş məsələni həll etməyə mane olmur.

236-1.4. İcrada dönüş haqqında məsələ üzrə məhkəmə qərardadından şikayət verilə bilər.

236-1.5. İşə kassasiya, əlavə kassasiya, hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə və qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yeni açılmış hallar üzrə yenidən baxılması üzrə məhkəmə icraatı qaydasında baxan məhkəmə, yeni qərar qəbul edirsə və ya iş üzrə icraata xitam verirsə, yaxud iddianı baxılmamış saxlayırsa, qətnamənin icrasında dönüş barədə məsələni həll etməli, yaxud da onu apellyasiya instansiyası məhkəməsinin həllinə verməlidir.

236-1.6. Bu maddənin müddəaları ilə müəyyən edilmiş qaydalar icra edilmiş məhkəmə qərardadlarına münasibətdə müvafiq olaraq tətbiq edilir.”;

1.85. 254-cü maddə üzrə:

1.85.1. 254.1-ci maddədə “Hakim” sözü “Məhkəmə” sözü ilə əvəz edilsin;

1.85.2. 254.2-ci maddə ləğv edilsin;

1.86. 255.0-cı maddənin birinci abzasında “Hakim” sözü “Məhkəmə” sözü ilə əvəz edilsin;

1.87. 256.0-cı maddənin birinci abzasında “hallarda” sözü “müddətdə” sözü ilə əvəz edilsin;

1.88. 259-cu maddə üzrə:

1.88.1. 259.0.9-cu maddə ləğv edilsin;

1.88.2. 259.0.12-ci maddədə “150.0.1-150.0.3-cü” sözləri “150.1.2-ci və ya 150.1.3-cü” sözləri ilə əvəz edilsin;

1.89. 261.0.1-ci maddəyə “məhkəmədə” sözündən sonra “və ya mülki məhkəmə icraatı qaydasında” sözləri əlavə edilsin;

1.90. 262.3-cü maddədə “İşin məhkəmə orqanlarına aid olmaması nəticəsində və ya bu Məcəllənin 261.0.8-ci maddəsində” sözləri “Bu Məcəllənin 261.0.1-ci və ya 261.0.8-ci maddələrində” sözləri ilə əvəz edilsin;

1.91. 265.4-cü maddədə “tərəflərin və ya digər şəxslərin hərəkətlərində” sözləri “proses iştirakçılarının və ya digər şəxslərin əməllərində” sözləri ilə əvəz edilsin;

1.92. 266-cı maddə üzrə:

1.92.1. 266.1-ci maddəyə “çıxardığı” sözündən sonra “müvəqqəti təminat tədbirinin tətbiqi və ya ləğvi barədə qərardadı həmin gündən gec olmayaraq, digər qərardadları isə” sözləri əlavə edilsin;

1.92.2. 266.3-cü maddədə “qərardadı çıxardıqdan sonra” sözləri “müvəqqəti təminat tədbirləri haqqında qərardadı çıxardıqdan sonra dərhal, digər qərardadları isə” sözləri ilə əvəz edilsin;

1.93. 268.2-ci maddə ləğv edilsin;

1.94. 269-cu maddə üzrə:

1.94.1. 269.1-ci maddəyə “müddətində” sözündən sonra “yazılı icraat qaydasında” sözləri əlavə edilsin;

1.94.2. 269.3-cü maddəyə "verildikdə isə" sözlərindən sonra "həmin şikayət bu Məcəllənin 403-1.5-ci maddəsinin tələbləri izah edilməklə işdə iştirak edən şəxslərə rəsmi qaydada verilir və iş" sözləri əlavə edilsin;

1.95. 271.1-ci maddədə "Məhkəmə iclasının və ya məhkəmədən kənar ayrıca prosessual hərəkətin protokolu işə baxmanın" sözləri "Protokol məhkəmə iclasının" sözləri ilə əvəz edilsin;

1.96. 273-cü maddəyə "nümayəndələr" sözündən sonra ", həmçinin vəkillər" sözləri əlavə edilsin;

1.97. 278-ci maddə üzrə:

1.97.1. 278.2.2-ci və 278.2.3-cü maddələrə "və ya olduğu yer" sözlərindən sonra "(həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), olduğu halda - iş yerinin ünvanı, telefon nömrələri, o cümlədən mobil telefon nömrələri, elektron poçt ünvanı, həmin şəxslərin eyniləşdirmə məlumatları (şəxsiyyət vəsiqəsinin və ya VÖEN nömrəsi, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, xarici hüquqi şəxslərin və ya onların nümayəndəsinin eyniləşdirmə məlumatları)" sözləri əlavə edilsin;

1.97.2. aşağıdakı məzmunda 278.4-cü maddə əlavə edilsin:

"278.4. Ərizənin bu Məcəllənin 278.1-ci və 278.2-ci maddələri ilə müəyyən olunmuş formasına və məzmununa riayət edilmədikdə, yaxud bu Məcəllənin 152.1.2-152.1.9-cu maddələrində müəyyən edilmiş əsaslar olduqda hakim ərizəni və ona əlavə olunmuş sənədləri geri qaytarır. Ərizənin qaytarılması həmin nöqsanlar aradan qaldırıldıqdan sonra əmr icraatı qaydasında yenidən məhkəməyə müraciət etməyə mane olmur.";

1.98. 283-cü maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Borclunun etirazı vaxtında verilmişdirsə, hakim əmrin ləğv edilməsi və işə iddia icraatı qaydasında baxılması barədə qərardad çıxarır. Həmin qərardaddan şikayət verilə bilməz.";

1.99. 284-1-ci maddədə "iki" sözü "beş" sözü ilə əvəz edilsin;

1.100. 284-3-cü maddə üzrə:

1.100.1. 284-3.2.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"284-3.2.2. iddiaçının, onun nümayəndəsinin (əgər ərizəni nümayəndə verirsə), cavabdehin soyadı, adı, atasının adı, yaşayış yeri (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), olduğu halda - iş yerinin ünvanı, telefon nömrələri, o cümlədən mobil telefon nömrələri, elektron poçt ünvanı, həmin şəxslərin eyniləşdirmə məlumatları (şəxsiyyət vəsiqəsinin seriya nömrəsi və

ya VÖEN, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, xarici hüquqi şəxslərin və ya onların nümayəndəsinin eyniləşdirmə məlumatları);

1.100.2. 284-3.2.4-cü maddəyə “sənədlər” sözündən sonra “, əmlakın verilməsi tələbləri üzrə tələb olunan əmlakın dəyərinə dair sübutlar” sözləri əlavə edilsin;

1.100.3. aşağıdakı məzmunda 284-3.5-ci maddə əlavə edilsin;

“284-3.5. Ərizənin bu Məcəllənin 284-3.1-ci və 284-3.2-ci maddələri ilə müəyyən olunmuş formasına və məzmununa riayət edilmədikdə, yaxud bu Məcəllənin 152.1.2-152.1.9-cu maddələrində müəyyən edilmiş əsaslar olduqda hakim iddia ərizəsini və ona əlavə olunmuş sənədləri geri qaytarır. Ərizənin qaytarılması həmin nöqsanlar aradan qaldırıldıqdan sonra kiçik iddialar üzrə sadələşdirilmiş icraat qaydasında yenidən məhkəməyə müraciət etməyə mane olmur.”;

1.101. 284-4.1.3-cü maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 284-4.1.4-cü maddə ləğv edilsin;

1.102. 284-5-ci maddə üzrə:

1.102.1. 284-5.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

“284-5.4. Məhkəmə aşağıdakı hallarda işə iddia icraatı qaydasında baxılması haqqında əsaslandırılmış qərardad çıxarır:

284-5.4.1. qarşılıqlı iddia verilərsə;

284-5.4.2. üçüncü şəxsin işə daxil olması barədə vəsatəti təmin edilərsə;

284-5.4.3. tərəflərin təqdim etdiyi sənədlər iş üzrə yekun qərarın çıxarılması üçün kifayət etmirsə;

284-5.4.4. iş üzrə əlavə araşdırmanın, o cümlədən sübutların yerində müayinəsi, tərəfləri çağıraraq izahatların alınması, yaxud şahidlərdən ifadələrin və ya ekspertlərdən rəyin alınması zərurəti yaranırsa.”;

1.102.2. aşağıdakı məzmunda 284-5.5-ci maddə əlavə edilsin:

“284-5.5. Bu Məcəllənin 284-5.4-cü maddəsində nəzərdə tutulan qərardaddan şikayət verilə bilməz.”;

1.103. 284-6-cı maddə üzrə:

1.103.1. 284-6.1-ci maddəyə “iddianın” sözündən sonra “tam və ya qismən” sözləri əlavə edilsin;

1.103.2. 284-6.3-cü maddə ləğv edilsin;

1.104. 305.1.7-ci, 305.1.8-ci və 339-341 -ci maddələr ləğv edilsin;

1.105. 329.3-cü maddədən “xüsusi” sözü çıxarılsın;

1.106. 338-1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Məhkəmə bu barədə qərardad çıxarır və həmin qərardaddan şikayət verilə bilər.";

1.107. 350.1-ci maddənin birinci cümləsində "qərar" sözü "qətnamə" sözü ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Qətnamə yalnız qapalı məhkəmə iclası iştirakçıları üçün elan edilir.";

1.108. Aşağıdakı məzmunda 355-18-1-ci maddə əlavə edilsin:

"Maddə 355-18-1. Bankın öhdəliklərinin könüllü restrukturizasiyası müddətinin uzadılması

355-18-l.l. Bankın öhdəliklərinin könüllü restrukturizasiyası müddəti "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada bankın əsaslandırılmış ərizəsi əsasında işə baxan məhkəmə tərəfindən uzadıla bilər.

355-18-1.2. Bankın öhdəliklərinin könüllü restrukturizasiyası müddətinin uzadılması haqqında ərizəyə məhkəməyə verildikdən sonra məhkəmə tərəfindən 10 gün ərzində baxılır və qərardad qəbul edilir. Qərardad dərhal qüvvəyə minir və qərardaddan şikayətin verilməsi onun icrasını dayandırmır.

355-18-1.3. Həmin qərardaddan şikayət, qərardad rəsmi qaydada işdə iştirak edən şəxslərə verildiyi gündən 10 gün müddətində bu Məcəllənin 21-ci fəsli ilə müəyyən edilmiş qaydada verilə bilər.";

1.109. 361-ci maddə üzrə:

1.109.1. 361.1-ci maddədə "Apellyasiya" sözü "Bu Məcəllə ilə müəyyən edilmiş formada verilən apellyasiya" sözləri ilə əvəz edilsin;

1.109.2. 361.1.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"361.1.2. şikayəti verən şəxsin soyadı, adı, atasının adı, (hüquqi şəxsə münasibətdə adı) şəxsiyyətini eyniləşdirməyə imkan verən digər məlumatlar, yaşayış yeri və ya olduğu yer (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), yazışmaların aparılmasının istənildiyi digər ünvan, işdə prosessual vəziyyəti;";

1.109.3. 361.1.3-cü maddədə "qətnamə" sözü "məhkəmə aktı" sözləri ilə, "qətnaməni" sözü "həmin aktı" sözləri ilə əvəz edilsin;

1.109.4. 361.1.4-cü maddədə "işin materiallarına istinad etməklə ərizəçinin qətnaməni düzgün hesab etmədiyi əsaslar" sözləri "məhkəmə aktının hansı hissədə mübahisələndirildiyi" sözləri ilə əvəz edilsin;

1.109.5. 361.1.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"361.1.5. şikayət verən şəxsin məhkəmə aktını düzgün hesab etmədiyi konkret əsaslar;";

1.109.6. aşağıdakı məzmunda 361.1.6-cı və 361.1.7-ci maddələr əlavə edilsin:

"361.1.6. şikayət verən şəxsin istinad etdiyi konkret fakt və hallar, habelə onları təsdiq edən sübutlar;

361.1.7. şikayətə əlavə edilən sənədlərin siyahısı.";

1.110. 363-cü maddə üzrə:

1.110.1. 363.1.1-ci maddəyə "imzalanmışdırsa" sözündən sonra ", habelə apellyasiya şikayəti vermək hüququ olmayan şəxs tərəfindən verilmişdirsə" sözləri əlavə edilsin;

1.110.2. aşağıdakı məzmunda 363.1.1-1-ci maddə əlavə edilsin:

"363.1.1-1. apellyasiya şikayəti bu Məcəllənin 361-ci maddəsinin tələblərinə riayət edilmədən verilmişdirsə;";

1.110.3. 363.1.4-cü maddədə "şikayətinin icraata qəbul edilməsi haqqında qərardad işdə iştirak edən şəxslərə" sözləri "şikayət ona əlavə olunmuş sənədlərlə və işlə birlikdə apellyasiya instansiyası məhkəməsinə" sözləri ilə əvəz edilsin;

1.110.4. 363.1.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 363.1.5-ci maddə əlavə edilsin:

"363.1.5. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə bu Məcəllənin 10-1.3-cü maddələrində nəzərdə tutulmuş qaydada aparılan elektron məhkəmə icraatında apellyasiya şikayəti həmin maddənin tələblərinə uyğun verilmədikdə.";

1.111. 364-cü maddənin mətni 364.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 364.2-ci maddə əlavə edilsin:

"364.2. Apellyasiya şikayəti işdə iştirak etməyən şəxslər tərəfindən verildikdə məhkəmə qəbul edilən qətnamənin onların hüquq və vəzifələrinə toxunmasını, daha sonra isə bu Məcəllənin 361-ci maddəsinin tələblərinə uyğunluğunu yoxlayır və bunun nəticəsinə dair qərardad qəbul edir. Bu qərardaddan şikayət verilə bilər.";

1.112. 367.1-ci maddədə “əks tərəfə” sözləri “işdə iştirak edən şəxslərə” sözləri ilə əvəz edilsin;

1.113. 369.1-ci maddədə “tanınmasına” sözü “qanuni qüvvəyə minməsinə” sözləri ilə əvəz edilsin;

1.114. 371-ci və 372.5-ci maddələr ləğv edilsin;

1.115. 372.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“372.2. Yeni sübutlar və yeni tələblər apellyasiya instansiyası məhkəməsi tərəfindən o halda qəbul edilir ki, işdə iştirak edən şəxslər həmin sübutların və tələblərin birinci instansiya məhkəməsində təqdim edilməsinin onlardan asılı olmayan səbəblərə görə mümkün olmadığını əsaslandırsın.”;

1.116. 382-ci maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 382. İşin baxılmasına dair məhkəmə aktının çıxarılması və elan edilməsi

382.1. İş üzrə araşdırma yekunlaşdıqdan sonra məhkəmə yerində müşavirə apararaq və ya müşavirə otağında səs çoxluğu ilə məhkəmə aktını qəbul edir. İşdə iştirak edən şəxslərin məhkəmə iclasına gəlmədiyi hallar istisna olmaqla, məhkəmə aktının giriş və nəticə hissələrini elan edir, məhkəmə aktından şikayət etmə qaydası və müddətini, habelə tərəflərin müraciəti olduğu halda onun nəticə hissəsini izah edir.

382.2. “Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə qətnamənin elan edilmiş nəticə hissəsi barədə məlumat həmin gün hakimlərin elektron imzası ilə təsdiq edilməklə “Elektron məhkəmə” informasiya sistemində yerləşdirilir.”;

1.117. 383-cü maddədə “Apellyasiya icraatında” sözləri “Şikayətə məhkəmə iclasında baxıldıqda” sözləri ilə əvəz edilsin;

1.118. 384-cü maddə üzrə:

1.118.1. 384.0.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

“384.0.4. işə məhkəmə və ya ərazi aidiyyəti qaydalarının pozulması ilə baxıldığını müəyyən etdikdə, qətnaməni ləğv edib, işi aidiyyəti üzrə birinci instansiya məhkəməsinə göndərə bilər;”;

1.118.2. aşağıdakı məzmunda 384.0.5-ci və 384.0.6-cı maddələr əlavə edilsin:

“384.0.5. birinci instansiya məhkəməsinin qətnamə və ya qərardadını qismən ləğv edə, qətnamə və ya qərardadı tamamilə, yaxud qismən ləğv edib, bu Məcəllənin 259.0.1-259.0.5-ci və 259.0.8-259.0.12-ci maddələrinə müvafiq olaraq iddianı tamamilə, yaxud qismən baxılmamış saxlaya,

qətnamə və ya qərardadı tamamilə, yaxud qismən ləğv edib, bu Məcəllənin 261-ci maddələrinə müvafiq olaraq iş üzrə icraata xitam verə bilər. Bu Məcəllənin 259.0.11-ci maddəsində göstərilən əsaslar işə yalnız birinci instansiya məhkəməsində baxılarkən yarandığı halda tətbiq edilir;

384.0.6. apellyasiya şikayətinin bu Məcəllənin tələblərinə zidd olaraq icraata qəbul olunması, yaxud da icraata qəbul olunduqdan sonra digər şəxslərin apellyasiya şikayəti ilə birinci instansiya məhkəməsinə müraciət etməsi müəyyən edilərsə, icraata qəbul qərardadını ləğv edərək işi apellyasiya baxışından çıxarmaqla birinci instansiyası məhkəməsinə qaytara bilər.";

1.119. 385-ci maddənin adında və 385.1-ci maddədə "qətnaməsinin" sözü "aktının" sözü ilə əvəz edilsin;

1.120. 387-ci maddə üzrə:

1.120.1. 387.1-ci maddəyə "qətnamənin" sözündən sonra hər iki halda "və ya qərardadın" sözləri əlavə edilsin;

1.120.2. 387.2-ci maddəyə "qətnaməsi" sözündən sonra "və ya qərardadı" sözləri əlavə edilsin;

1.120.3. 387.2.5-ci və 387.2.6-cı maddələrə "qətnamə" sözündən sonra "və ya qərardad" sözləri əlavə edilsin;

1.120.4. 387.2.7-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 387.2.8-ci və 387.2.9-cu maddələr əlavə edilsin:

"387.2.8. iddianın baxılmamış saxlanılması və ya iş üzrə icraata xitam verilməsi üçün bu Məcəllədə müəyyən edilmiş əsaslar olduğu halda məhkəmə işə mahiyyəti üzrə baxmışsa;

387.2.9. işə ərazi və ya məhkəmə aidiyyəti qaydalarının pozulması ilə baxılmışdırsa.";

1.120.5. 387.3-cü maddədə "387.2.7-ci" sözləri "387.2.9-cu" sözləri ilə əvəz edilsin;

1.121. 389-cu maddəyə, 390-cı maddənin adına və mətninə "qətnamədə" sözündən sonra "və ya qərardadda" sözləri əlavə edilsin;

1.122. 391-ci maddə ləğv edilsin;

1.123. aşağıdakı məzmunda 394-1-ci maddə əlavə edilsin:

"Maddə 394-1. Kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat qaydasında baxılmış işlərlə bağlı çıxarılmış məhkəmə qətnamələrindən verilmiş apellyasiya şikayətlərinə baxılması

394-1.1. Kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat qaydasında baxılmış işlər üzrə çıxarılmış məhkəmə qətnamələrindən verilmiş apellyasiya şikayəti mümkün hesab edilirsə, məhkəmə onun daxil olduğu vaxtdan 5 iş günü ərzində apellyasiya şikayətini və ona əlavə edilmiş sənədləri işdə iştirak edən şəxslərə rəsmi qaydada verir.

394-1.2. İşdə iştirak edən şəxslər apellyasiya şikayətinin surəti onlara rəsmi qaydada verildiyi vaxtdan 10 iş günü müddətində apellyasiya şikayətinə qarşı əsaslandırılmış etirazını və ona əlavə edilmiş sənədləri məhkəməyə göndərə bilər.

394-1.3. Apellyasiya şikayəti məhkəməyə daxil olduğu gündən 30 iş günü ərzində işə yazılı icraat qaydasında işdə olan sənədlər əsasında baxılmalı və həmin işin həllinə dair qətnamə çıxarılmalıdır. Məhkəmə işdə iştirak edən şəxsin bu barədə verdiyi vəsatəti əsaslı hesab etdikdə və ya öz təşəbbüsü ilə işə məhkəmə iclasında baxa bilər. Bu barədə məhkəmə tərəfindən müvafiq qərardad qəbul edilməklə işdə iştirak edən şəxslərə məlumat verilir.

394-1.4. İş materiallarında olan sənədlər iş üzrə yekun qərarın çıxarılması üçün kifayət etmirsə, habelə iş üzrə əlavə araşdırmanın, o cümlədən tərəfləri çağıraraq izahatların alınması, yaxud şahidlərdən ifadələrin və ya ekspertlərdən rəyin alınması zərurəti yaranırsa məhkəmə işə iddia icraatı qaydasında baxılması haqqında əsaslandırılmış qərardad çıxarır. Bu qərardaddan şikayət verilə bilməz.";

1.124. 396.2-ci maddə ləğv edilsin;

1.125. 397-ci maddə üzrə:

1.125.1. 397.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"397.2. Apellyasiya instansiyası məhkəməsi qərardaddan verilən şikayətə onun məhkəməyə daxil olduğu vaxtdan 20 gün müddətində yazılı icraat qaydasında baxır. Məhkəmə işdə iştirak edən şəxsin bu barədə verdiyi vəsatəti əsaslı hesab etdikdə və ya öz təşəbbüsü ilə şikayət üzrə işə məhkəmə iclasında baxa bilər. Bu barədə məhkəmə tərəfindən müvafiq qərardad qəbul edilməklə işdə iştirak edən şəxslərə məlumat verilir.";

1.125.2. aşağıdakı məzmunda 397.3-cü maddə əlavə edilsin:

"397.3. Şikayət verən şəxs apellyasiya instansiyası məhkəməsində qərardad qəbul edilənə kimi yazılı formada ondan imtina edə bilər. Şikayətdən imtina birinci instansiya məhkəməsinin qərardadının qüvvəyə minməsinə səbəb olur.";

1.126. 398.0.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 398.0.4-cü maddə əlavə edilsin:

“398.0.4. qərardaddan verilmiş şikayətdən imtina olunduqda, apellyasiya icraatına xitam vermək.”;

1.127. 402-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

“402.1. Mülki işlər üzrə qəbul edilmiş qətnamənin mübahisələndirilən hissəsində iddianın qiyməti beş min manatdan, kommersiya mübahisələrinə dair işlər üzrə isə müvafiq olaraq on min manatdan az olan əmlak xarakterli iddialar üzrə qətnamələr istisna olmaqla, apellyasiya məhkəmələrinin mülki və kommersiya kollegiyalarının və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki və kommersiya kollegiyalarının qətnamələrindən kassasiya şikayəti verilə bilər.

402.2. Apellyasiya məhkəmələrinin mülki və kommersiya kollegiyalarının və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki və kommersiya kollegiyalarının aşağıdakı qərardadlarından kassasiya şikayəti verilə bilər:

402.2.1. apellyasiyanın qeyri-mümkün hesab edilməsi haqqında;

402.2.2. kassasiya şikayətinin qaytarılması (kassasiya şikayəti kassasiya instansiyası məhkəməsinin şikayətin qeyri-mümkünlüyü barədə qərarına əsasən qaytarıldığı hallar istisna olunmaqla) haqqında;

402.2.3. kassasiya şikayətinin verilməsi müddətinin bərpasından imtina edilməsi barədə;

402.2.4. iş üzrə icraata xitam verilməsi barədə;

402.2.5. bu Məcəllənin 384.0.4-cü maddəsində nəzərdə tutulmuş işin aidiyyəti üzrə göndərilməsinə dair və bu Məcəllənin 394.0.6-cı maddəsində nəzərdə tutulmuş apellyasiya şikayətinin bu Məcəllənin tələblərinə zidd olaraq icraata qəbul olunması əsası ilə icraata qəbul qərardadının ləğv edilərək işin apellyasiya baxışından çıxarılmaqla birinci instansiyası məhkəməsinə qaytarılması haqqında.

402.3. Birinci instansiya məhkəmələrinin məhkəmə aidiyyəti haqqında qərardadlarından və həmin qərardadlardan verilən şikayətin qaytarılması haqqında qərardaddan kassasiya şikayəti verilə bilər.”;

1.128. 403-cü maddə üzrə:

1.128.1. 403.1-ci maddədə “Apellyasiya instansiyası məhkəməsinin qətnamələrindən və qərardadlarından” sözləri “Bu Məcəllənin 402-ci

maddəsində nəzərdə tutulmuş qətnamə və ya qərardadlardan" sözləri ilə əvəz edilsin;

1.128.2. 403.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"403.2. İşdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslər apellyasiya instansiyası məhkəmələrinin qətnamələrindən və qərardadlarından ərizə ilə Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinə müraciət edə bilər. Ərizədə qəbul edilmiş qətnamə və ya qərardadla şəxsin hüquq və vəzifələrinin pozulmasının nədən ibarət olması, yaxud hansı maraq və ya mənafelərinə toxunması əsaslandırılmalıdır. Ərizəyə kassasiya şikayəti əlavə edilməlidir.";

1.128.3. aşağıdakı məzmunda 403.2-1-403.2-3-cü maddələr əlavə edilsin:

"403.2-1. Ərizə Ali Məhkəmənin sədri tərəfindən işin materialları ilə birgə öyrənilməsi və apellyasiya instansiyası məhkəmələrinin qətnamələrindən və ya qərardadlarından işdə iştirak etməyə cəlb olunmayan şəxslərin kassasiya şikayətinin verilməsi üçün əsasların olub-olmamasının müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və ya Kommersiya kollegiyalarına verilir.

403.2-2. İşdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxsin ərizəsi mülki və ya kommersiya kollegiyalarına daxil olan 3 hakimdən ibarət məhkəmə tərkibi tərəfindən məhkəmə baxışı keçirilmədən araşdırıldıqdan sonra, ərizəsinin təmin və yaxud rədd edilməsi barədə qərardad qəbul edilir.

403.2-3. Məhkəmə işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxsin ərizəsinin təmin olunmasına dair qərardad qəbul etdikdə, ərizəyə əlavə edilmiş kassasiya şikayətini bu Məcəllənin 407-409-cu maddələri ilə nəzərdə tutulmuş tələblərin yerinə yetirilməsi üçün müvafiq apellyasiya instansiyası məhkəməsinə göndərilir.";

1.129. 403-1-ci maddə üzrə:

1.129.1. 403-1.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"403-1.5. Şikayətin surəti birinci instansiya məhkəməsi tərəfindən işdə iştirak edən şəxslərə rəsmi qaydada verildikdən sonra onlar, 5 gündən gec olmayaraq şikayətə dair etirazlarını və yaxud izahatlarını kassasiya instansiyası məhkəməsinə göndərməyə haqlıdırlar.";

1.129.2. 403-1.6-cı maddəyə “şikayətlərə” sözündən sonra “və məhkəmə aidiyyətinə dair məhkəmələr arasında fikir ayrılığı məsələlərinə” sözləri əlavə edilsin;

1.129.3. 403-1.8.2-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 403-cü maddə əlavə edilsin:

“403-1.8.3. işin məhkəmə aidiyyəti üzrə göndərilməsi və ya məhkəmə aidiyyəti haqqında ərizənin rədd edilməsi barədə qərardadı tamamilə ləğv edib, ərizəni yenidən baxılması üçün birinci instansiya məhkəməsinə göndərə bilər.”;

1.129.4. 403-1.9-cu maddə aşağıdakı redaksiyada verilsin:

“403-1.9. Kassasiya instansiyası məhkəməsi, məhkəmə aidiyyətinə dair məhkəmələr arasında fikir ayrılığı məsələsinə baxarkən:

403-1.9.1. işi məhkəmə aidiyyəti üzrə göndərə bilər;

403-1.9.2. məhkəmələr arasında fikir ayrılığının yaranmasına əsas olmuş hallarla bağlı əlavə araşdırmanın aparılmasını zəruri hesab etdikdə, məhkəmə aidiyyətinin yenidən müəyyən edilməsi üçün işi iddia ərizəsinin verildiyi birinci instansiya məhkəməsinə göndərə bilər.”;

1.129.5. aşağıdakı məzmunda 403-1.10-cu maddə əlavə edilsin:

“403-1.10. Bu Məcəllənin 403-1.8-ci və 403-1.9-cu maddələrinə uyğun olaraq çıxarılmış qərar işdə iştirak edən şəxslərə qəbul edildiyi gündən 3 gün müddətində sifarişli məktubla göndərilməli və yaxud qəbz alınmaqla təqdim edilməlidir.”;

1.130. 404-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 404-1. Kassasiya şikayətinin mümkünlüyünün yoxlanılması

404-1.1. Kassasiya instansiyası məhkəməsi iş məhkəməyə daxil olduqdan sonra 15 gün müddətində kassasiyanın mümkünlüyünü yoxlayır. Buraya işə kassasiya qaydasında baxmaq üçün prosessual əsasların olması daxildir.

404-1.2. işə kassasiya qaydasında baxmaq üçün prosessual əsaslar olmadıqda kassasiya şikayətinin qeyri-mümkün hesab edilməsinə dair qərardad qəbul edilir.

404-1.3. kassasiya şikayətinin icraata qəbul edilməsi barədə qərardad işdə iştirak edən şəxslərə göndərilənə kimi şikayəti verən şəxsdən onun geri qaytarılması barədə ərizə daxil olduqda kassasiya instansiyası məhkəməsi şikayətin geri qaytarılması barədə qərardad qəbul edir.”;

1.131. 407-ci maddə üzrə:

1.131. adına “şikayətinin” sözündən sonra “forması,” sözü, “məzmunu” sözündən sonra “və əlavə edilən sənədlər” sözləri əlavə edilsin;

1.131.2. 407.1-ci maddədə “Kassasiya” sözü “Bu Məcəllə ilə müəyyən edilmiş formada verilən kassasiya” sözləri ilə əvəz edilsin;

1.131.3. 407.1.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“407.1.2. şikayəti verən şəxsin soyadı, adı, atasının adı, (hüquqi şəxsə münasibətdə adı) şəxsiyyətini eyniləşdirməyə imkan verən digər məlumatlar, yaşayış yeri və ya olduğu yer (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), yazışmaların aparılmasının istənildiyi digər ünvan, işdə prosessual vəziyyəti;”;

1.131.4. 407.1.4-cü maddəyə “tələbi,” sözündən sonra “məhkəmə aktının hansı hissədə mübahisələndirildiyi,” sözləri, “ibarət olması” sözlərindən sonra “, işə məhkəmə iclasında baxılması istənildiyi halda bu Məcəllənin 414.1-ci maddəsində nəzərdə tutulmuş əsasların mövcudluğunun əsaslandırılması” sözləri əlavə edilsin;

1.132. 408-ci maddə üzrə:

1.132.1. 408.1-ci maddəyə “hallarda” sözündən sonra “apellyasiya instansiyası məhkəməsi tərəfindən” sözləri əlavə edilsin;

1.132.2. 408.1.1-ci maddədə “407.1-ci maddəsinin” sözləri “402-ci və 407.1-ci maddələrinin” sözləri ilə əvəz edilsin və həmin maddəyə “imzalanmışsa” sözündən sonra “, habelə kassasiya şikayəti vermək hüququ olmayan şəxs tərəfindən verilmişdirsə” sözləri əlavə edilsin.

1.132.3. 408.1.2-ci maddə ləğv edilsin;

1.132.4. 408.1.6-cı maddə aşağıdakı redaksiyada verilsin və aşağıdakı məzmunda 408.1.7-ci maddə əlavə edilsin:

“408.1.6. kassasiya şikayəti işlə birlikdə kassasiya instansiyası məhkəməsinə göndərilənədək şikayəti verən şəxsin onun geri qaytarılması haqqında ərizəsi daxil olmuşdursa;

408.1.7. “Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunduğu apellyasiya məhkəmələrində bu Məcəllənin 10-1.3-cü maddəsində nəzərdə tutulmuş qaydada aparılan elektron məhkəmə icraatında kassasiya şikayəti həmin maddənin tələblərinə uyğun verilmədikdə.”;

1.132.5. 408.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“408.2. İşin məhkəmə aidiyyəti üzrə göndərilməsi və ya məhkəmə aidiyyəti haqqında ərizənin rədd edilməsi barədə qərardadlardan şikayət bu

maddədə nəzərdə tutulmuş əsaslarla birinci instansiya məhkəməsi tərəfindən qaytarılır.";

1.132.6. 408.4-cü maddə ləğv edilsin;

1.132.7. 408.5-ci maddədə "408.1.1-408.1.6-cı" sözləri "408.1.1-408.1.5 və 408.1.7-ci" sözləri ilə əvəz edilsin;

1.133. 409-cu maddənin birinci və ikinci cümlələrində "407-ci maddəsinin" sözləri "402, 405 və 407-ci maddələrinin" sözləri ilə əvəz edilsin;

1.134. 412.1-ci maddədə "əks tərəfə" sözləri "işdə iştirak edən şəxslərə" sözləri ilə əvəz edilsin;

1.135. 414-cü maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 414. Kassasiya şikayətinə baxılması müddəti və qaydası

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasına, yaxud Kommersiya kollegiyasına işlə birlikdə daxil olmuş qətnamələrdən verilmiş kassasiya şikayətinə onun daxil olduğu gündən 3 ay müddətində, bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda qərardaddan verilmiş kassasiya şikayətinə isə 1 ay müddətində yazılı icraat qaydasında baxılır. Məhkəmə hüququn inkişafının və ya məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi üçün əhəmiyyətli hesab etdikdə, işə məhkəmə iclasında baxılması barədə qərardad qəbul edir. Bu barədə işdə iştirak edən şəxslərə məlumat verilir.

Kassasiya şikayətinə məhkəmə iclasında baxılması barədə əsaslandırılmış vəsatət kassasiya şikayəti, yaxud işdə iştirak edən şəxsin kassasiya şikayəti ilə bağlı etirazı və ya izahatı ilə birlikdə verilə bilər.";

1.136. 415-ci maddə üzrə:

1.136.1. 415.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"415.2. İşdə iştirak edən şəxslər, onların nümayəndələri və vəkilləri işə şifahi və ya yazılı qaydada baxılması, işə məhkəmə iclasında baxıldığı halda iclasın vaxtı və yeri barədə xəbərdar edilirlər.";

1.136.2. 415.3-cü maddədə "İclasın" sözü "Kassasiya instansiyasında işə məhkəmə iclasında baxıldıqda, iclasın" sözləri ilə əvəz edilsin;

1.137. 415-1-ci maddə üzrə:

1.137.1. adına "Kassasiya instansiyasında işə" sözlərindən sonra "məhkəmə iclasında" sözləri əlavə edilsin;

1.137.2. 415-1.2-ci maddənin ikinci və üçüncü cümlələri çıxarılsın;

1.138. Aşağıdakı məzmunda 415-2-ci maddə əlavə edilsin:

"Maddə 415-2. Ümumi şərtlər

Kassasiya icraatına bu fəslin və Məcəllənin kassasiya icraatının mahiyyətinə zidd olmayan müddəaları tətbiq olunur.”;

1.139. 416-cı maddənin mətni aşağıdakı redaksiyada verilsin:

“416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.”;

1.140. 417-ci maddə üzrə:

1.140.1. 417.1.3-cü maddəyə “qərardadını” sözündən sonra “qismən ləğv edə və ya” sözləri əlavə edilsin;

1.140.2. 417.1.5-ci maddədə “259.0.1-259.0.3-cü və 259.0.8-259.0.10-cu” sözləri “259.0.1-259.0.3, 259.0.8 və 259.0.10-cu” sözləri ilə əvəz edilsin;

1.141. 418-ci maddə üzrə:

1.141.1. 418.4.9-cu maddəyə “işə” sözündən sonra “ərazi aidiyyəti və ya” sözləri əlavə edilsin, həmin maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 418.4.10-cu maddə əlavə edilsin:

“418.4.10. iddianın baxılmamış saxlanılması və ya iş üzrə icraata xitam verilməsi üçün bu Məcəllədə müəyyən edilmiş əsaslar olduğu halda məhkəmə işə mahiyyəti üzrə baxmışsa.”;

1.141.2. 418.5-ci maddədə “418.4.6-418.4.9-cu” sözləri “418.4.6-418.4.10-cu” sözləri ilə əvəz edilsin;

1.141.3. 418.6-cı maddəyə “izahlarına” sözündən sonra “, habelə bu Məcəllənin 418-1.3-cü maddəsində nəzərdə tutulan Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarının mübahisəli hüquqi məsələyə dair hüquqi mövqeyinə” sözləri əlavə edilsin;

1.142. 419-cu maddə üzrə:

1.142.1. 419.2.7-ci maddədə “məhkəmə iclasında” sözləri “kassasiya şikayətinə baxılmasında” sözləri ilə əvəz edilsin;

1.142.2. 419.2.8-ci maddəyə “qanun və” sözlərindən sonra “digər” sözü əlavə edilsin;

1.142.3. 419.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

“419.3. Qərar qəbul edildiyi gün onun nəticə hissəsi barədə məlumat hakimlərin elektron imzası ilə təsdiq edilməklə “Elektron məhkəmə” informasiya sistemində yerləşdirilir. Qərarın tam mətni işdə iştirak edən şəxslərə qəbul edildiyi gündən 1 ay müddətində sifarişli məktubla göndərilməli və yaxud qəbz alınmaqla təqdim edilməlidir.”;

1.143. 421-1-ci maddədə “icraatında" sözü “şikayətinə məhkəmə iclasında baxıldıqda” sözləri ilə əvəz edilsin;

1.144. 422-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu şikayət, ərizə və ya protestə yazılı icraat qaydasında baxır.”;

1.145. 423-cü maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 423. Şikayət, ərizə və protest vermək hüququ

423.1. Şikayəti işdə vəkillə iştirak edən şəxs verə bilər.

423.2. İşdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslər Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının və Kommersiya kollegiyasının qərarlarından ərizə ilə Azərbaycan Respublikasının Ali Məhkəməsinin Plenumuna müraciət edə bilər.

423.3. Bu Məcəllənin 50-ci və 306-cı maddələrində nəzərdə tutulmuş hallarda müvafiq prokuror məhkəmə araşdırmasında iddiaçı və ya ərizəçi olmuşsa, Azərbaycan Respublikasının Baş prokuroru protest vermək hüququna malikdir.

423.4. Şikayət və ya protest məhkəmə aktının işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən 2 ay müddətində, ərizə işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslər tərəfindən məhkəmə aktı barədə məlumatlı olduqları gündən 2 ay müddətində verilə bilər. Mübahisə edilən qərarın qanuni qüvvəyə mindiyi vaxtdan 3 il keçdikdən sonra ərizənin verilməsinə yol verilmir.

423.5. Şikayət və ya ərizə onu verən şəxs (onun qanuni nümayəndəsi və ya nümayəndəsi) və onu tərtib etmiş vəkil tərəfindən imzalanmalıdır.”;

1.146. 425-ci maddə üzrə:

1.146.1. adında “Təqdimatın, protestin və şikayətin” sözləri “Şikayətin, ərizənin və protestin” sözləri ilə əvəz edilsin;

1.146.2. maddənin mətni 425.1-ci maddə hesab edilsin və həmin maddədə “Təqdimat, protest və şikayət” sözləri “Şikayət, ərizə və protest” sözləri ilə əvəz edilsin;

1.146.3. aşağıdakı məzmunda 425.2-ci maddə əlavə edilsin:

“425.2. Ərizədə qəbul edilən qərarla şəxsin hüquq və vəzifələrinin pozulmasının nədən ibarət olması, yaxud hansı maraq və ya mənafelərinə toxunması əsaslandırılmalıdır.”;

1.147. 426-cı maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 426. Şikayətin, ərizənin və protestin göndərilməsi

426.1. Şikayətə, ərizəyə və ya protestə ilkin olaraq Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu tərəfindən təyin edilən 5 hakimdən ibarət məhkəmə tərkibi yazılı icraat qaydasında baxır. Məhkəmə tərkibinə daxil olan hakim tərəfindən işə baxılmasına yol verilməyən hallar olduqda, Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri həmin hakimi Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu tərəfindən təyin edilən 5 ehtiyat hakimdən biri ilə əvəz edir.

426.2. Şikayətin, ərizənin və ya protestin surəti işdə iştirak edən şəxslərə rəsmi qaydada verilir. İşdə iştirak edən şəxslər şikayətin, ərizənin və ya protestin surəti onlara rəsmi qaydada verildiyi vaxtdan 20 gündən gec olmayaraq yazılı etirazlarım göndərməyə haqlıdırlar.

426.3.1. Məhkəmə tərkibi şikayətə, ərizəyə və ya protestə baxaraq aşağıdakı qərardadlardan birini qəbul edir:

426.3.1. şikayət, ərizə və ya protestin forma və məzmununa dair bu Məcəllənin 425-ci maddəsinin tələblərinə riayət edilmədikdə, habelə bu Məcəllənin 423.1-ci maddəsində nəzərdə tutulmuş müddətlərin ötürülməsi ilə verildikdə şikayət, ərizə və ya protestin qaytarılması haqqında;

426.3.2. bu Məcəllənin 424.2.2-424.2.6-cı maddəsində nəzərdə tutulmuş əsaslar olmadıqda isə şikayət və ya protestin, bu Məcəllənin 424.2.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar olmadıqda ərizənin Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna göndərilməsindən imtina haqqında;

426.3.3. bu Məcəllənin 424.2.2-424.2.6-cı maddəsində nəzərdə tutulmuş əsaslar olduqda isə şikayət və ya protestin, bu Məcəllənin 424.2.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar olduqda ərizənin iş ilə birlikdə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna göndərilməsi haqqında.

426.4. Bu Məcəllənin 426.3-cü maddəsində nəzərdə tutulmuş qərardadlardan şikayət verilə bilməz.”;

1.148. 427-ci maddə üzrə:

1.148.1. adında və 427.2-ci maddədə “Təqdimatın, protestin və ya şikayətin” sözləri “Şikayətin, ərizənin və ya protestin” sözləri ilə əvəz edilsin;

1.148.2. 427.1-ci maddədə “Təqdimatı, protesti və ya şikayəti” sözləri “Şikayəti, ərizəni və ya protesti” sözləri ilə əvəz edilsin;

1.149. 428.2-ci maddə ləğv edilsin;

1.150. 429.0.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

“429.0.4. kassasiya instansiyası məhkəməsinin qərarını tamamilə, yaxud qismən ləğv etmək, bu Məcəllənin 259.0.1, 259.0.2, 259.0.8 və 259.0.10-cu maddələrinə müvafiq olaraq iddianı tamamilə, yaxud qismən baxılmamış saxlamaq və ya bu Məcəllənin 261.0.1-261.0.3, 261.0.6 və 261.0.7-ci maddələrinə müvafiq olaraq iş üzrə icraata xitam vermək;”;

1.151. 431-3-cü maddə üzrə:

1.151.1. 431-3.1-ci maddədə “məhkəmə iclasında” sözləri “yazılı icraat qaydasında” sözləri ilə əvəz edilsin;

1.151.2. 431-3.3-cü maddə ləğv edilsin;

1.152. 431-4.2.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 431-4.2.4-cü maddə əlavə edilsin:

“431-4.2.4. Qanuni qüvvəyə minmiş məhkəmə aktlarına əlavə kassasiya və yeni açılmış hallar üzrə yenidən baxılması üzrə məhkəmə tərkibinin bu Məcəllənin 426.3.2-ci və 437.2.2-ci maddələrində nəzərdə tutulmuş qərardadının ləğv edilməsi və ərizəyə, şikayətə, protestə məhkəmə tərkibində yenidən baxılması üçün göndərilməsi barədə.”;

1.153. 437-ci maddə üzrə:

1.153.1. 437.1-ci maddənin birinci cümləsinə “məhkəmə tərkibi” sözlərindən sonra “yazılı icraat qaydasında” sözləri əlavə edilsin, həmin maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“Ərizənin surəti işdə iştirak edən şəxslərə rəsmi qaydada verilir. İşdə iştirak edən şəxslər ərizənin surəti onlara rəsmi qaydada verildikdən sonra 20 gündən gec olmayaraq yazılı etirazlarını göndərməyə haqlıdırlar.”;

1.153.2. 437.4-cü maddənin birinci cümləsində "məhkəmə iclasında" sözləri "yazılı icraat qaydasında" sözləri ilə əvəz edilsin, həmin maddənin ikinci və üçüncü cümlələri çıxarılsın;

1.154. aşağıdakı məzmunda 438-1-ci maddə əlavə edilsin:

"Maddə 438-1. Kassasiya instansiyası məhkəməsinin xüsusi qərardadı

438-1.1. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu bu Məcəllənin 265.4-cü və 265.5-ci maddələrində nəzərdə tutulmuş hallarda, habelə işə birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrində baxılması zamanı prosessual normaların kobud pozulmasına yol vermiş hakimlər barəsində xüsusi qərardad çıxara bilər.

438-1.2. Hakimlər barəsində çıxarılmış xüsusi qərardad intizam icraatının başlanması üçün Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri tərəfindən Məhkəmə-Hüquq Şurasına göndərilir.";

443.0-cı maddəyə "iştirakı ilə olan" sözlərindən sonra "həmçinin" sözü əlavə edilsin;

Bu Məcəllənin "İtirilmiş məhkəmə icraatının və ya icra üzrə icraatın bərpa edilməsi" Əlavəsi "Əlavə 1" hesab edilsin və aşağıdakı məzmunda "Əlavə 2" və "Əlavə 3" əlavə edilsin:

***Əlavə 2***

***Apellyasiya şikayətinin forması***

______________________________

______________________________

*(şikayətin verildiyi apellyasiya instansiyası məhkəməsinin kollegiyasının adı)*

______________________________

______________________________

*(şikayətin verildiyi apellyasiya instansiyası məhkəməsinin kollegiyasının adı)*

***APELLYASİYA ŞİKAYƏTİ***

***1. Apellyasiya şikayəti verən şəxs***

*1.1. Ad (fiziki və ya hüquqi şəxsin):*______________________________

*1.2. Soyad (fiziki şəxsin):*______________________________

*1.3. Ata adı (fiziki şəxsin):_________________________________*

*1.4. Şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi və fərdi identifikasiya nömrəsi (FİN) (fiziki şəxsin):____________________________________*

*VÖEN (hüquqi şəxsin və ya fərdi sahibkar statusuna malik fiziki şəxsin):______________________________________________*

*1.5. Ünvan (yaşayış yeri və ya olduğu yer (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), yazışmaların aparılmasının istənildiyi digər ünvan)______________________________________________*

______________________________________________

*1.6. Elektron poçt ünvanı:_______________________________*

*1.7. Mobil telefon nömrəsi (və ya nömrələri):______________________*

*1.8. Apellyasiya şikayəti verən şəxsin işdə prosessual vəziyyəti*

______________________________________________

***2. Apellyasiya şikayəti verən şəxsin vəkili***

*2.1. Ad:_____________________________________________*

*2.2. Soyad:__________________________________________*

*2.3. Ata adı: _________________________________________*

*2.4. Ünvan (yaşayış yeri və ya olduğu yer (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), yazışmaların aparılmasının istənildiyi digər ünvan)_________________________________*

*2.5. Elektron poçt ünvanı:______________________________*

*2.6. Mobil telefon nömrəsi (və ya nömrələri):____________________*

*2.7. Fəaliyyət forması:*

*2.7.1. Fərdi qaydada* ☐

*2.7.2. Vəkillik qurumu tərkibində* ☐

*Vəkillik qurumunun adı ______________________________*

*2.8. Orderin nömrəsi və tarixi __________________________*

***3. Apellyasiya şikayəti verən şəxsin qanuni nümayəndəsi və ya nümayəndəsi***

*3.1. Ad:*______________________________________________

*3.2. Soyad:*_______________________________________________

*3.3. Ata adı:* ______________________________________________

*3.4. Ünvan (yaşayış yeri və ya olduğu yer (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), yazışmaların aparılmasının istənildiyi digər ünvan)*________________________________________________________

*3.5. Elektron poçt ünvanı:*______________________________________

*3.6. Mobil telefon nömrəsi (və ya nömrələri):*______________________

*3.7. Etibarnamə (və ya səlahiyyəti təsdiq edən digər sənəd):*

*3.8. Etibarnamənin nömrəsi* ___________________________________

*3.9. Kim tərəfindən təsdiq edilmişdir:* __________________________

*3.10. Verilmə tarixi:* _______________________________________

*3.11. Qüvvədə olma müddəti:* _________________________________

***4. Barəsində şikayət olunan məhkəmə qətnaməsi və ya qərardadı haqqında məlumat***

*4.1. Qətnaməni və ya qərardadı qəbul etmiş birinci instansiyası məhkəməsinin adı*____________________________________________

*4.2. Qətnamə və ya qərardadın tarixi və nömrəsi*___________________

*4.3. Şikayət olunan qətnamə və ya qərardadın alınma tarixi:* _________

*4.4. Mübahisənin predmeti* ____________________________________

***5. İşin halları***

*Bu hissədə apellyasiya şikayəti verən şəxs işin faktiki halları ilə bağlı mövqeyini aydın ifadə etməli, işin materiallarına istinad edilməklə məhkəmələr tərəfindən müəyyən edilmiş hansı halları qəbul etdiyini, hansı*

*halları isə qəbul etməyərək mübahisələndirdiyini dəqiq göstərməli, eləcə də mübahisənin düzgün həlli üçün əhəmiyyətli hesab etdiyi digər hansı faktiki halların məhkəmələr tərəfindən araşdırılmadığını dəqiq bildirməlidir. İşin halları ilə bağlı mövqe mübahisənin predmetinə aidiyyati nəzərə alınmaqla, yığcam şəkildə, xronoloji ardıcıllıqla, sadə və anlaşıqlı formada təqdim edilməlidir.*

| |
|---|
| |

***6. Maddi hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsinə dair dəlillər***

*Bu hissədə şikayət olunan qətnamə və ya qərardad çıxarılarkən düzgün tətbiq edilmədiyi iddia edilən hər bir maddi hüquq norması sıralanmaqla göstərilməlidir. Göstərilmiş hər bir normanın qarşısında düzgün tətbiq edilməmənin nədən ibarət olduğuna dair mövqeni aydın şəkildə ifadə edən izah verilməlidir.*

| ***Sıra №*** | ***Maddi hüquq norması*** | ***Maddi hüquq normasının pozulmasına və ya düzgün tətbiq edilməməsinə dair mövqe (dəlillər)*** |
|---|---|---|
| | | |
| | | |

***7. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsinə dair dəlillər***

*Bu hissədə şikayət edilən qətnamə və ya qərardad çıxarılarkən düzgün tətbiq edilmədiyi iddia olunan hər bir prosessual hüquq norması sıralanmaqla göstərilməlidir. Göstərilmiş hər bir normanın qarşısında düzgün tətbiq edilməmənin nədən ibarət olduğuna dair mövqeni aydın şəkildə ifadə edən izah verilməlidir.*

| ***Sıra №*** | ***Prosessual hüquq norması*** | ***Prosessual hüquq normasının pozulmasına və ya düzgün tətbiq edilməməsinə dair mövqe (dəlillər)*** |
|---|---|---|
| | | |
| | | |

***8. Məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün faktiki halların aydınlaşdırılmamasına dair dəlillər***

*Bu hissədə məhkəmənin hansı faktiki halları aydınlaşdırmadığı dəqiq göstərilməli və hər birinin qarşısında bu halın məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyətinin nədən ibarət olduğuna aydın şəkildə izah verilməlidir.*

| |
|---|
| |
| |
| |
| |

***9. Birinci instansiya məhkəməsi tərəfindən müəyyən edilmiş, iş üçün əhəmiyyəti olan halların sübut edilməməsinə dair dəlillər***

*Bu hissədə məhkəmə tərəfindən müəyyən edilmiş, iş üçün əhəmiyyəti olan hansı halların sübut edilməməsi dəqiq göstərilməli və hər birinin qarşısında bunun nədə ifadə olunmasına (qanunla göstərilən sübutlarla təsdiq edilməməsi və ya qeyri-mötəbər, ziddiyyətli, aid olmayan sübutlarla təsdiq edilməsi) aydın şəkildə izah verilməlidir.*

| |
|---|
| |
| |
| |

***10. Birinci instansiya məhkəməsinin qətnamədə göstərilmiş nəticələrinin işin hallarına uyğun gəlməməsinə dair dəlillər***

*Bu hissədə məhkəmənin müəyyən edilmiş faktlardan tərəflərin qarşılıqlı*

*münasibətləri üzrə səhv nəticəyə gəlməsi ilə bağlı hallar göstərilməli və bunun nədən ibarət olduğuna aydın şəkildə izah verilməlidir.*

| |
|---|
| |

***11. Birinci instansiya məhkəməsinə təqdim edilməmiş yeni sübutlar və onların təqdim edilməsinin əsaslandırılmasına dair dəlillər***

*Bu hissədə birinci instansiya məhkəməsinə təqdim edilməmiş yeni sübutlar göstərilir. Həmin sübutların birinci instansiya məhkəməsinə təqdim edilməsinin şikayət verən şəxsdən asılı olmayan səbəblərə görə mümkün olmadığını əsaslandıran dəlillər qeyd edilməlidir.*

| |
|---|
| |
| |
| |

***12. Apellyasiya şikayəti verən şəxsin tələbi***

*Bu hissədə apellyasiya şikayəti verən şəxs özünün tələblərini aydın göstərməli, yəni, məhkəmə aktının tam və ya qismən ləğv edilməsinə və yaxud dəyişdirilməsinə və mübahisənin həlli ilə bağlı nə barədə qərarın qəbul edilməsinə dair tələblərini dəqiq bildirməlidir.*

| |
|---|
| |

***13. Apellyasiya şikayətinə əlavə edilmiş sənədlər***

*Dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd, order, etibarnamə, vəsatətlər və s.*

| |
|---|
| |
| |
| |

***14. İmza və tarix:***

*14.1. Apellyasiya şikayəti verən şəxsin və ya onun nümayəndəsinin, vəkilinin (olduğu halda) imzası*

*Şikayət hüquqi şəxs tərəfindən verildikdə onu imzalamaq hüququ olan şəxs tərəfindən imzalanmalı və möhürlə təsdiq olunmalıdır.*

*14.2. Tarix.*

***Əlavə 3***
***Kassasiya şikayətinin forması***

***Azərbaycan Respublikası Ali Məhkəməsinin***

______________________________
*(şikayətin verildiyi kollegiyanın adı)*

______________________________

*(Azərbaycan Respublikası Ali Məhkəməsinin ünvanı)*

## *KASSASİYA ŞİKAYƏTİ*

***1. Kassasiya şikayəti verən şəxs***

*1.1. Ad (fiziki və ya hüquqi şəxsin):*______________________________

*1.2. Soyad (fiziki şəxsin):*______________________________

*1.3. Ata adı (fiziki şəxsin):*______________________________

*1.4. Şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi və fərdi identifikasiya nömrəsi (FİN) (fiziki şəxsin):*______________________________

*VÖEN (hüquqi şəxsin və ya fərdi sahibkar statusuna malik fiziki şəxsin):*______________________________

*1.5. Ünvan (yaşayış yeri və ya olduğu yer (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), yazışmaların aparılmasının istənildiyi digər ünvan)*

______________________________________________________________

*1.6. Elektron poçt ünvanı:*______________________________

*1.7. Mobil telefon nömrəsi (və ya nömrələri):*______________________

*1.8. Kassasiya şikayəti verən şəxsin işdə prosessual vəziyyəti*

______________________________________________________________

***2. Kassasiya şikayəti verən şəxsin vəkili***

*2.1.Ad:*_________________________________________________

*2.2. Soyad:*_____________________________________________

*2.3.Ata adı:*___________________________________________

*2.4. Ünvan (yaşayış yeri və ya olduğu yer (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), yazışmaların aparılmasının istənildiyi digər ünvan)*________________________________________________________

*2.5. Elektron poçt ünvanı:*_____________________________________

*2.6. Mobil telefon nömrəsi (və ya nömrələri):*___________________

*2.7. Fəaliyyət forması:*

*2.7.1. Fərdi qaydada* ☐

*2.7.2. Vəkillik qurumu tərkibində* ☐

*Vəkillik qurumunun adı* ___________________________________

*2.8. Orderin nömrəsi və tarixi* _______________________________

***3. Kassasiya şikayəti verən şəxsin qanuni nümayəndəsi və ya nümayəndəsi***

*3.1. Ad:*_________________________________________________

*3.2. Soyad:*______________________________________________

*3.3. Ata adı:* ____________________________________________

*3.4. Ünvan (yaşayış yeri və ya olduğu yer (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), yazışmaların aparılmasının istənildiyi digər ünvan)*_______________________________________

*3.5. Elektron poçt ünvanı:*_____________________________________

*3.6. Mobil telefon nömrəsi (və ya nömrələri):_____________________*

*3.7. Etibarnamə (və ya səlahiyyəti təsdiq edən digər sənəd):*

*3.7.1. Etibarnamənin nömrəsi ______________________________*

*3.7.2. Kim tərəfindən təsdiq edilmişdir: _________________________*

*3.7.3. Verilmə tarixi: _________________________________________*

*3.7.4. Qüvvədə olma müddəti: ______________________________*

***4. Barəsində şikayət verilən məhkəmə qətnaməsi və ya qərardadı haqqında məlumat***

*4.1. Qətnaməni və ya qərardadı qəbul etmiş məhkəmənin adı*

_______________________________________________________________

*4.2. Qətnamə və ya qərardadın tarixi və nömrəsi*

_______________________________________________________________

*Qətnamə* ☐

*Qərardad* ☐

*4.3. Şikayət olunan qətnamə və ya qərardadın alınma tarixi:_________*

*4.4. Mübahisənin predmeti ____________________________________*

***5. Maddi hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsinə dair dəlillər***

*Bu hissədə şikayət olunan qətnamə və ya qərardad çıxarılarkən pozulduğu və ya düzgün tətbiq edilmədiyi iddia olunan hər bir maddi hüquq norması sıralanmaqla göstərilməlidir. Göstərilmiş hər bir normanın qarşısında pozuntunun və ya düzgün tətbiq edilməmənin nədən ibarət olduğuna və bu halların nə ilə nəticələndiyinə dair mövqeni aydın şəkildə ifadə edən izah verilməlidir.*

| ***Sıra №*** | ***Maddi hüquq norması*** | ***Maddi hüquq normasının pozulmasına və ya düzgün tətbiq edilməməsinə dair mövqe (dəlillər)*** |
|---|---|---|

| | | |
|---|---|---|
| | | |
| | | |

***6. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsinə dair dəlillər***

*Bu hissədə şikayət edilən qətnamə və ya qərardad çıxarılarkən pozulduğu və ya düzgün tətbiq edilmədiyi iddia olunan hər bir prosessual hüquq norması sıralanmaqla göstərilməlidir. Göstərilmiş hər bir normanın qarşısında pozuntunun və ya düzgün tətbiq edilməmənin nədən ibarət olduğuna və bu halların nə ilə nəticələndiyinə dair mövqeni aydın şəkildə ifadə edən müvafiq izah verilməlidir.*

| ***Sıra №*** | ***Prosessual hüquq norması*** | ***Prosessual hüquq normasının pozuntusuna və ya düzgün tətbiq edilməməsinə dair mövqe (dəlillər)*** |
|---|---|---|
| | | |
| | | |

***7. Məhkəmə təcrübəsinin vahidliyinin pozulmasına dair dəlillər***

| ***Sıra №*** | ***Məhkəmə aktı*** | ***İzah*** |
|---|---|---|
| | | |
| | | |

***8. Digər məsələlər***

*Kassasiya şikayəti verən şəxsin məhkəmənin nəzərinə çatdırmaq istədiyi digər hüquqi məsələlər.*

***9. Kassasiya şikayəti verən şəxsin tələbi***

*Bu hissədə kassasiya şikayəti verən şəxs özünün tələblərini aydın göstərməli, yəni, məhkəmə aktının tam və ya qismən ləğv edilməsinə, eləcə də iş üzrə yeni qərar çıxarılmasına və ya işin təkrar apellyasiya baxışına göndərilməsinə dair tələblərini dəqiq bildirməlidir.*

| |
|---|
| |

***10. Kassasiya şikayətinə əlavə edilmiş sənədlər***

*Dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd, order, etibarnamə, vəsatətlər və s.*

| |
|---|
| |
| |
| |
| |

***11. İmza və tarix***

*11.1. Kassasiya şikayəti verən şəxsin və ya onun nümayəndəsinin imzası.*

*Şikayət hüquqi şəxs tərəfindən verildikdə onu imzalamaq hüququ olan şəxs tərəfindən imzalanmalı və möhürlə təsdiq olunmalıdır.*

*11.2. Vəkilin imzası*

*11.3. Tarix.*

**Maddə 2. Keçid müddəaları**

Bu Qanun 2021 -ci il oktyabrın 1 -dən qüvvəyə minir.

Bu Qanun onun qüvvəyə minməsindən sonra verilən iddia ərizələri və digər ərizələrə, şikayətlərə və onlar əsasında baxılan işlərə şamil edilir.

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 9 iyul 2021-ci il

**“Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 363-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 363-VIQD nömrəli Qanununun 2021-ci il oktyabrın 1-dən tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 44; 2002, № 8, maddə 478; 2006, № 8, maddə 677, № 12, maddə 1034; 2007, № 3, maddə 226; 2009, № 6, maddə 414; 2011, № 11, maddə 1009; 2016, № 3, maddə 471, № 6, maddə 1045; 2017, № 3, maddə 352, № 4, maddə 551, № 8, maddə 1517, № 11, maddə 2261; 2019, № 6, maddə 1030, № 12, maddə 1931; 2020-ci il, № 11, maddə 1358) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bənddə “355-5.1-ci maddəsində” sözləri “150.2-ci və 355-5.1-ci maddələrində” sözləri ilə əvəz edilsin;

1.2. 2.4-cü bənddən “, 339.1-ci, 341-ci” sözləri çıxarılsın;

1.3. 2.11-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.12-ci bənd əlavə edilsin:

“2.12. həmin Məcəllənin 150.2-ci maddəsində “orqanın (qurumun) informasiya sistemi” dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi nəzərdə tutulur.”.

2. Azərbaycan Respublikasının Ali Məhkəməsinə tövsiyə edilsin ki, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 363-VIQD nömrəli Qanunu ilə həmin Məcəlləyə Ali Məhkəmədə işlərə baxılma qaydası ilə bağlı edilmiş dəyişiklikləri nəzərə alaraq və "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli 604 nömrəli Fərmanında nəzərdə tutulmuş məqsədləri rəhbər tutaraq, Azərbaycan Respublikası Ali Məhkəməsinin fəaliyyətinin hüquqi, təşkilati və informasiya təminatını daha səmərəli şəkildə təşkil etmək üçün Ali Məhkəmənin Aparatının strukturunu yenidən müəyyən etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. mülki məhkəmə icraatında vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxslərin maraqlarının təmsil olunması və prosessual hüquqlarının həyata keçirilməsi məqsədilə onlara dövlət hesabına peşəkar hüquqi yardım göstərilməsi imkanlarının genişləndirilməsi ilə bağlı qanunvericilik aktlarında dəyişiklik edilməsinə dair təklifləri üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 363-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 16 iyul 2021-ci il

§

## Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq qərara alır:

Maddə 1. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 762, № 12, maddə 973; 2010, № 7, maddə 587; 2011, № 6, maddə 485, № 7, maddə 593; 2012, № 5, maddə 410; 2013, № 1, maddə 16, № 11, maddə 1267; 2016, № 1, maddə 12; 2017, № 4, maddə 522, № 5, maddə 752, № 11, maddə 1976; 2018, № 5, maddələr 855, 878, № 7 (I kitab), maddə 1440; 2019, № 1, maddə 23, № 7, maddə 1199, № 12, maddə 1899; 2020, № 6, maddə 669) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 8.1.2-ci maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz olunsun və maddəyə aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

"Bu Məcəllənin 8.1.2-ci maddəsi ilə müəyyən edilmiş aidiyyət qaydaları məcburetmə və öhdəliyin icrası haqqında iddialara da şamil olunur;";

1.2. 16-cı maddə üzrə:

1.2.1. 16.1-ci maddədə "Məhkəmə" sözü "Bu Məcəllənin 16.3-cü maddəsində nəzərdə tutulmuş hallar istisna edilməklə, məhkəmə" sözləri ilə əvəz edilsin;

1.2.2. 16.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"16.3. Bu Məcəllənin 96.4-cü maddəsində nəzərdə tutulmuş halda işlərə yazılı icraat qaydasında, yəni məhkəmə iclası (şifahi məhkəmə baxışı) keçirilmədən və tərəflər izahatları dinlənilmək üçün çağırılmadan baxılır. Mübahisəni mahiyyəti üzrə həll etməyən məhkəmə qərardadları da yazılı icraat qaydasında qəbul edilə bilər.";

1.3. 86.1.4-cü və 95.1.3-cü maddələr ləğv edilsin;

1.4. 96.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"96.4. Kassasiya mümkün sayıldıqda, Ali Məhkəmədə işə yazılı icraat qaydasında baxılır. Məhkəmə hüququn inkişafının və ya məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi üçün əhəmiyyətli hesab etdikdə, işə məhkəmə iclasında baxılması barədə qərardad qəbul edir. Bu barədə proses iştirakçılarına məlumat verilir.";

1.5. 108-ci maddə üzrə:

1.5.1. 108.1-ci maddədən "(dövlət rüsumlarından və digər ödəmələrdən)" sözləri çıxarılsın;

1.5.2. 108.2-ci maddədə "Dövlət rüsumları, vəkilin" sözləri "Vəkilin" sözü ilə əvəz edilsin;

1.5.3. 108.3-cü maddədən "rüsumların," sözü çıxarılsın.

Maddə 2. Keçid müddəaları

2.1. Bu Qanun 2021-ci il oktyabrın 1-dən qüvvəyə minir.

2.2. Bu Qanunun 1.1-ci maddəsi Qanunun qüvvəyə minməsindən sonra verilən iddia ərizələrinə şamil edilir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 9 iyul 2021-ci il

§

**Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında", "Dövlət rüsumu haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 5-ci, 6-cı, 13-cü, 14-cü, 15-ci, 16-cı və 17-ci bəndlərini rəhbər tutaraq, "Mediasiya haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1555-VQ nömrəli Qanununun icrası ilə əlaqədar qərara alır:

Maddə 1. Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5,

maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048, № 12 (I kitab), maddələr 2187, 2189; 2018, № 1, maddə 13, № 6, maddə 1155, № 7 (I kitab), maddələr 1380, 1408, № 12 (I kitab), maddə 2532; 2019, № 1, maddə 35, № 4, maddə 570, № 5, maddələr 796, 804, № 7, maddə 1182, № 8, maddə 1380; 2020, № 1, maddə 1, № 5, maddə 522, № 7, maddə 832, № 11, maddələr 1322, 1332, 1335, № 12 (I kitab), maddə 1424; 2021, № 1, maddə 2; Azərbaycan Respublikasının 2021-ci il 2 aprel tarixli 286-VIQD nömrəli, 23 aprel tarixli 298-VIQD və 301-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 294-cü maddəyə aşağıdakı məzmunda 5-ci hissə əlavə edilsin:

"5. "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinə uyğun olaraq fərdi əmək mübahisələri mediasiya vasitəsilə həll oluna bilər. Fərdi əmək mübahisələri ilə bağlı məhkəməyə müraciət etməmişdən əvvəl "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ilkin mediasiya sessiyasında iştirak tələb olunur.";

1.2. 296-cı maddəyə "Qeyd" hissəsindən əvvəl aşağıdakı məzmunda 7-ci hissə əlavə edilsin:

"7. Mediasiya prosesinin tətbiqi ilə əlaqədar iddia müddətinin axımının dayandırılması məsələsi "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.".

Maddə 2. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə

1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975; 2018, № 5, maddə 879, № 8, maddə 1672, № 11, maddələr 2209, 2225, № 12 (I kitab), maddələr 2524, 2534; 2019, № 1, maddə 23, № 5, maddələr 792, 812, № 7, maddə 1197, № 12, maddələr 1897, 1907; 2020, № 7, maddə 832, № 11, maddə 1333; 2021, № 4, maddə 309) aşağıdakı dəyişikliklər edilsin:

2.1. Aşağıdakı məzmunda 4.5-ci, 4.6-cı, 14.3-1-ci, 71.3-1-ci, 149.2.4-1-ci, 152.1.6-1-ci, 167.1.5-1-ci və 256.0.6-cı maddələr əlavə edilsin:

"4.5. Tərəflərin hər hansı mübahisə ilə bağlı məhkəməyə müraciət etməmişdən əvvəl mediasiya prosesində iştirakını tələb edən müqavilə, müqavilə şərti, yaxud hər hansı digər sənəddə şərt (mediasiyaya dair qeyd-şərt) olduğu halda, həmin qaydaya riayət edildikdən sonra mübahisə məhkəmənin həllinə verilə bilər.

4.6. Kommersiya mübahisələri, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ilkin mediasiya sessiyasında iştirak tələb olunur.";

"14.3-1. Məhkəmə prosesinin istənilən mərhələsində məhkəmə işin hallarını nəzərə alaraq, öz təşəbbüsü ilə, yaxud tərəflərdən birinin müraciəti əsasında onlara mübahisənin mediasiya vasitəsilə həllini təklif edə bilər.";

"71.3-1. Mediator mediasiya predmeti olan mübahisə üzrə məhkəmə prosesində tərəflərdən hər hansı birini təmsil edə bilməz.";

"149.2.4-1. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tərəflərin məhkəməyə müraciət etməzdən əvvəl mediasiya prosesində iştirakı tələb olunduğu halda, həmin tələbə riayət edilməsinə dair məlumat;";

“152.1.6-1. “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tərəflərin məhkəməyə müraciət etməzdən əvvəl mediasiya prosesində iştirakı tələb olunduğu halda, həmin tələbə riayət edilməsini təsdiq edən sənəd təqdim edilmədikdə;”;

“167.1.5-1. tərəflərə mübahisənin mediasiya vasitəsilə ilə həllinə dair təklif verir;”;

“256.0.6. bu Məcəllənin 254.1.7-ci maddəsində nəzərdə tutulan halda barışıq sazişi və ya mediasiya prosesinin nəticələri barədə protokol təqdim edilənədək.”;

2.2. 19.2.3-cü, 104.4.5-ci, 150.0.7-ci, 254.1.6-cı, 259.0.12-ci və 305.1.16-cı maddələrin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və müvafiq olaraq aşağıdakı məzmunda 19.2.4-cü, 104.4.6-cı, 150.0.8-ci, 254.1.7-ci, 259.0.13-cü və 305.1.17-ci maddələr əlavə edilsin:

“19.2.4. o, məhkəmədə baxılan mübahisə üzrə əvvəllər tərəflər arasında mediasiya prosesində mediator kimi iştirak etmişdirsə.”;

“104.4.6. mediasiya zamanı məlum olan məlumatlar barədə - “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallar istisna olmaqla, mediasiya iştirakçıları və mediasiyada iştirak edən digər şəxslər.”;

“150.0.8. “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tərəflərin məhkəməyə müraciət etməzdən əvvəl mediasiya prosesində iştirakı tələb olunduğu halda, həmin tələbə riayət edilməsini təsdiq edən sənəd.”;

“254.1.7. “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada mediasiya prosesinin tətbiqi barədə müqavilə bağlandıqda.”;

“259.0.13. “Mediasiya haqqında” Azərbaycan Respublikası Qanununun 21.9-cu maddəsində göstərilən hallarda.”;

“305.1.17. mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin təsdiq edilməsi haqqında.”;

2.3. 52-ci maddə üzrə:

2.3.1. 52.3-cü maddəyə “işini” sözündən sonra “bilavasitə özləri, yaxud mediasiya vasitəsilə” sözləri əlavə edilsin;

2.3.2. 52.4-cü maddəyə “sazişi” sözündən sonra “, yaxud mübahisənin mediasiya vasitəsilə həlli” sözləri əlavə edilsin;

2.4. 55.2-ci maddədə “həmin kateqoriya mübahisələr üçün qanunda və ya müqavilələrdə nəzərdə tutulmuş, kommersiya məhkəməsində cavabdehlə mübahisənin məhkəməyə qədər həlli (pretenziya) qaydasına” sözləri “bu Məcəllənin 4.3 – 4.6-cı maddələrində müəyyən edilmiş qaydalara” sözləri ilə əvəz edilsin;

2.5. 59.2-ci maddənin birinci cümləsinə “şəxslər” sözündən sonra “mübahisənin mediasiya vasitəsilə həllinə razılıq vermək və ya” sözləri əlavə edilsin və həmin cümlədə “hüququndan” sözü “hüquqlarından” sözü ilə əvəz edilsin;

2.6. 74.2-ci maddəyə “tapşırılması,” sözündən sonra “mübahisənin mediasiya vasitəsilə həllinə razılıq verilməsi,” sözləri əlavə edilsin;

2.7. 191-ci maddə üzrə:

2.7.1. 191.1-ci maddəyə hər iki halda “etiraf etməsi” sözlərindən sonra “, mübahisənin mediasiya vasitəsilə həllinə dair tərəflərin razılığı” sözləri əlavə edilsin;

2.7.2. aşağıdakı məzmunda 191.2-1-ci maddə əlavə edilsin:

“191.2-1. Tərəflər arasında mübahisə mediasiya vasitəsilə həll edildikdə, barışıq sazişi, həll edilmədikdə isə mediasiya prosesinin nəticələri barədə protokol məhkəməyə təqdim olunur. Tərəflərin barışıq sazişini təsdiq etdikdə məhkəmə bu barədə qərardad çıxararaq, bu qərardadla eyni zamanda iş üzrə icraata xitam verir. Məhkəmə tərəfindən təsdiq edilən barışıq sazişinin şərtləri qərardadda göstərilməlidir.”;

2.7.3. 191.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

“191.4. Məhkəmə iddiaçının iddiadan imtina etməsini, cavabdehin iddianı etiraf etməsini qəbul etmədikdə, tərəflərin barışıq sazişini təsdiq etmədikdə və ya mübahisə mediasiya vasitəsilə həll edilmədikdə bununla bağlı əsaslandırılmış qərardad çıxarır və işə mahiyyəti üzrə baxılmasını davam etdirir.”;

2.8. 306.1-ci maddədə “30 – 40-6-cı fəsillərində” sözləri “ikinci bölməsinin üçüncü yarımbölməsində” sözləri ilə əvəz edilsin;

2.9. aşağıdakı məzmunda 40-7-ci fəsil əlavə edilsin:

“Fəsil 40-7.

Mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin təsdiq edilməsinə dair işlər üzrə icraat

Maddə 355-23. Ərizənin verilməsi

355-23.1. "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununda müəyyən edilmiş müddət ərzində mediasiya prosesi nəticəsində əldə edilən barışıq sazişi könüllü qaydada icra edilmədikdə və ya barışıq sazişinin könüllü icrasından imtina olunduqda, ərizəçi barışıq sazişinin məcburi icrası üçün barışıq sazişinin təsdiq edilməsi barədə (barışıq sazişinin bu Məcəllənin 191.2-1-ci maddəsinə uyğun olaraq təsdiq edildiyi hal istisna olmaqla) məhkəməyə müraciət edə bilər.

355-23.2. Mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin təsdiq edilməsi ilə bağlı ərizə ərizəçi fiziki şəxsin yaşadığı yer, hüquqi şəxsin ünvanının olduğu yer üzrə, ərizə dövlət orqanı (qurumu) tərəfindən verildikdə, barışıq sazişinin icrasından imtina edən fiziki şəxsin yaşadığı, hüquqi şəxsin ünvanının olduğu yer üzrə məhkəməyə verilir.

Maddə 355-24. Ərizənin məzmunu

Mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin təsdiq edilməsi ilə bağlı ərizədə barışıq sazişinin könüllü icrası üçün "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun 34.1-ci maddəsi ilə müəyyən olunmuş müddətin keçməsi və ərizəçinin xahişi göstərilməlidir.

Maddə 355-25. Ərizəyə baxılma qaydası və qətnamənin qəbul edilməsi

355-25.1. Barışıq sazişinin təsdiq edilməsi ilə bağlı ərizəyə məhkəməyə daxil olduqdan sonra 10 gün müddətində baxılır.

355-25.2. Məhkəmə ərizəyə baxılması barədə işdə maraqlı olan şəxslərə məlumat verir, lakin həmin şəxslərin üzrlü səbəb olmadan məhkəmə iclasına gəlməməsi işə baxılmasına mane olmur. İşdə maraqlı olan şəxslər üzrlü səbəblərdən gəlmədiyi hallarda, məhkəmə işin baxılmasını təxirə salır.

355-25.3. Məhkəmə ərizəyə baxarkən bu Məcəllənin 355-26-cı maddəsində sadalanmış halların olub-olmadığını müəyyən edir və barışıq sazişinin təsdiq edilməsi və ya təsdiq edilməsindən imtina olunması barədə qətnamə qəbul edir.

355-25.4. Qətnamənin surəti bu Məcəllənin 227.3-cü maddəsinə uyğun olaraq tərəflərə verilir.

355-26. Mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin və ya onun bir hissəsinin təsdiq edilməsindən imtina olunması

355-26.1. Məhkəmə aşağıdakı hallarda barışıq sazişinin və ya onun bir hissəsinin təsdiq edilməsindən imtina edir:

355-26.1.1. barışıq sazişi və ya onun bir hissəsi qanuna zidd olduqda;

355-26.1.2. barışıq sazişi mediasiyada iştirak etməyən üçüncü şəxslərin və ya məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan, yaxud məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin hüquqlarına toxunulan mübahisələr üzrə keçirilmiş mediasiya prosesinin nəticəsində bağlanıldıqda.

355-26.2. Barışıq sazişinin bir hissəsinin təsdiq edilməsinə o hallarda yol verilir ki, təsdiq edilməsindən imtina edilən hissənin təsdiq edilən hissədən ayrılması mümkün olsun.”.

Maddə 3. Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126; 2002, № 12, maddə 702; 2004, № 7, maddə 505; 2006, № 2, maddə 66, № 11, maddə 923, № 12, maddələr 1005, 1006; 2007, № 1, maddə 4, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1218; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 3, maddə 171, № 5, maddə 380, № 7, maddə 578; 2011, № 7, maddələr 585, 620, № 12, maddə 1110; 2014, № 12, maddə 1515; 2019, № 2, maddə 185, № 3, maddə 372, № 5, maddə 800; № 12, maddə 1906; 2020, № 7, maddə 832, № 12 (I kitab), maddə 1424; 2021, № 4, maddə 308) aşağıdakı dəyişikliklər edilsin:

3.1. aşağıdakı məzmunda 7-1-ci maddə əlavə edilsin:

“Maddə 7-1. Ailə münasibətlərindən irəli gələn mübahisələrin mediasiya vasitəsilə həlli

“Mediasiya haqqında” Azərbaycan Respublikası Qanununun 26-cı maddəsinə uyğun olaraq ailə münasibətlərindən irəli gələn mübahisələr mediasiya yolu ilə həll oluna bilər. Ailə münasibətlərindən irəli gələn mübahisələrlə bağlı məhkəməyə müraciət etməmişdən əvvəl “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ilkin mediasiya sessiyasında iştirak tələb olunur.”;

3.2. aşağıdakı məzmunda 38.4-1-ci maddə əlavə edilsin:

“38.4-1. Nikah müqaviləsinə mediasiyaya dair şərtlər daxil edilə bilər.”.

Maddə 4. Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, №

10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2 (I kitab), maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851, № 11, maddə 2212, № 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, № 1, maddələr 23, 50, № 5, maddələr 806, 812, 814, № 6, maddələr 994, 996, № 7, maddə 1202, № 8, maddə 1369, № 11, maddə 1681, № 12, maddə 1908; 2020, № 5, maddə 515, № 7, maddələr 822, 832, 839, 843, № 12 (I kitab), maddələr 1423, 1435; 2021, № 1, maddə 8; 2021, № 4, maddə 307) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 379.1.5-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 379.1.6-cı maddə əlavə edilsin:

"379.1.6. tərəflər arasında yaranmış mübahisə üzrə mediasiya prosesi tətbiq edildikdə.";

4.2. aşağıdakı məzmunda 379.4-1-ci maddə əlavə edilsin:

"379.4-1. Mediasiya prosesinin tətbiqi ilə əlaqədar dayandırılmış iddia müddətinin axımı "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tarixdən davam edir.".

Maddə 5. Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11,

maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; 2021, № 3, maddə 211) 99.3.12-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 99.3.13-cü maddə əlavə edilsin:

"99.3.13. mediator fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən bu fəaliyyətlə bağlı göstərilən xidmətə görə alınan haqq, o cümlədən əldə olunan mükafat.".

Maddə 6. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589,

599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2 (II kitab), maddə 218, № 10, maddə 1607, № 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, № 5, maddə 751, № 12 (I kitab), maddələr 2232, 2267; 2018, № 5, maddələr 877, 882, № 7 (I kitab), maddə 1421, № 11, maddə 2235, № 12 (I kitab), maddə 2515; 2019, № 7, maddələr 1198, 1200, № 12, maddə 1898; 2020, № 6, maddə 675, № 7, maddələr 832, 852, 856, Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 301-VIQD nömrəli Qanunu) 95.2.4-cü maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 95.2.5-ci maddə əlavə edilsin:

"95.2.5. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallar istisna olmaqla, mediasiya zamanı məlum olan məlumatlar barədə mediasiya iştirakçıları və mediasiyada iştirak edən digər şəxslər.".

Maddə 7. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 762, № 12, maddə 973; 2010, № 7, maddə 587; 2011, № 6, maddə 485, № 7, maddə 593; 2012, № 5, maddə 410; 2013, № 1, maddə 16, № 11, maddə 1267; 2016, № 1, maddə 12; 2017, № 4, maddə 522, № 5, maddə 752, № 11, maddə 1976; 2018, № 5, maddələr 855, 878, № 7 (I kitab), maddə 1440; 2019, № 1, maddə 23, № 7, maddə 1199, № 12, maddə 1899; 2020, № 6, maddə 669) aşağıdakı dəyişikliklər edilsin:

7.1. aşağıdakı məzmunda 7.3-cü, 19.1.4-1-ci, 38.4-cü və 49.1.1-1-ci maddələr əlavə edilsin:

"7.3. Məhkəmə prosesinin istənilən mərhələsində məhkəmə işin hallarını nəzərə alaraq öz təşəbbüsü ilə, yaxud tərəflərdən birinin müraciəti əsasında onlara mübahisənin mediasiya vasitəsilə həllini təklif edə bilər. Tərəflər arasında "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlanarsa, məhkəmə icraatı barışıq sazişi və mediasiya prosesinin nəticələri barədə protokol təqdim edilənədək dayandırılır.";

"19.1.4-1. o, məhkəmədə baxılan inzibati mübahisə üzrə əvvəllər tərəflər arasında mediasiya prosesində mediator kimi iştirak etmişdirsə;";

“38.4. Mediasiya prosesinin tətbiqi ilə əlaqədar iddia müddətinin axımının dayandırılması “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.”;

“49.1.1-1. işin hallarını nəzərə alaraq, öz təşəbbüsü ilə, yaxud tərəflərdən birinin müraciəti əsasında onlara mübahisənin mediasiya vasitəsilə həllini təklif etmək;”;

7.2. 15.2-ci maddəyə “baxılmasını” sözündən sonra “bilavasitə özləri tərəfindən, yaxud mediasiya vasitəsilə bağlanılmış” sözləri əlavə edilsin;

7.3. 66.2-ci maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Barışıq sazişi qanuna zidd olarsa və ya hər hansı bir şəxsin hüquqlarını və qanunla qorunan mənafeyini pozarsa, məhkəmə barışıq sazişini təsdiqləməkdən imtina etməlidir.”.

Maddə 8. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306; Azərbaycan Respublikasının 2021-ci il 2 aprel tarixli 287-VIQD nömrəli, 23 aprel tarixli 294-VIQD və 301-VIQD nömrəli, 4 may

tarixli 310-VIQD nömrəli, 27 may tarixli 331-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 43.1-ci maddəyə "603" rəqəmlərindən əvvəl "602-2," rəqəmləri əlavə edilsin;

8.2. 68.0.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 68.0.4-cü maddə əlavə edilsin:

"68.0.4. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallar istisna olmaqla, mediasiya zamanı məlum olan məlumatlar barədə mediasiya iştirakçıları və mediasiyada iştirak edən digər şəxslər.";

8.3. aşağıdakı məzmunda 602-2-ci maddə əlavə edilsin:

"Maddə 602-2. Mediasiya haqqında qanunvericiliyin pozulması

602-2.1. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Mediasiya Şurasının üzvlüyünə qəbul edilmədən fiziki şəxsin mediator fəaliyyəti ilə məşğul olmasına, hüquqi şəxsin mediasiya təşkilatı kimi və (və ya) mediasiya təlimi sahəsində fəaliyyət göstərməsinə görə –

fiziki şəxslər min manat məbləğində, vəzifəli şəxslər iki min manat məbləğində, hüquqi şəxslər dörd min manat məbləğində cərimə edilir.

602-2.2. Mediasiya təşkilatları, mediatorlar və mediasiya təlimi qurumları tərəfindən mediasiya reyestrində onlar haqqında olan məlumatlarda baş vermiş dəyişikliklər barədə "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada və müddətdə məlumatın verilməməsinə görə –

fiziki şəxslər yüz manat məbləğində, vəzifəli şəxslər iki yüz manat məbləğində, hüquqi şəxslər dörd yüz manat məbləğində cərimə edilir.

602-2.3. Mediasiya iştirakçıları və mediasiyada iştirak edən digər şəxslər tərəfindən "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş konfidensiallıqla bağlı qaydaların pozulmasına görə –

fiziki şəxslər səkkiz yüz manat məbləğində, vəzifəli şəxslər min beş yüz manat məbləğində, hüquqi şəxslər üç min manat məbləğində cərimə edilir.

602-2.4. Mediasiya zamanı mediatorun fəaliyyətinə müdaxilə edilməsinə görə –

fiziki şəxslər iki yüz manat məbləğində, vəzifəli şəxslər dörd yüz manat məbləğində, hüquqi şəxslər səkkiz yüz manat məbləğində cərimə edilir.

602-2.5. Mediator tərəfindən uşağın maraqlarına toxunan ailə münasibətlərindən irəli gələn mübahisələr üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyinin alınmamasına, habelə ailə münasibətlərindən irəli gələn mübahisələr zamanı uşağın normal böyüməsinə və inkişafına təhlükə yaradan, yaxud onun maraqlarına zərər vura bilən hallar (və ya belə halların yaranma ehtimalı olduğu) barədə məlumatların, həmçinin uşağın böyüməsinə, inkişafına və digər maraqlarına toxunan barışıq sazişinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməməsinə görə –

beş yüz manat məbləğində cərimə edilir.”.

Maddə 9. “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 348; 1999, № 11, maddə 609; 2000, № 11, maddə 776; 2001, № 9, maddə 576, № 12, maddələr 733, 736; 2002, № 12, maddə 706; 2004, № 7, maddə 505, № 12, maddə 976; 2005, № 1, maddə 2, № 12, maddə 1082; 2006, № 11, maddə 923, № 12, maddə 1018; 2007, № 1, maddə 4, № 12, maddə 1193; 2008, № 2, maddə 49, № 4, maddə 254, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 12, maddə 970; 2010, № 4, maddə 276, № 11, maddə 949; 2011, № 10, maddə 883; 2013, № 11, maddə 1284, № 12, maddə 1487; 2014, № 10, maddə 1171; 2016, № 4, maddə 657, № 6, maddə 971; 2017, № 3, maddə 336, № 7, maddə 1279; 2018, № 3, maddələr 369, 396, № 5, maddələr 870, 894, № 12 (I kitab), maddə 2502; 2019, № 1, maddə 35, № 3, maddə 380; 2020, № 5, maddə 521, № 6, maddə 667, № 7, maddə 826, № 8, maddə 1015, № 12 (I kitab), maddə 1450) aşağıdakı dəyişikliklər edilsin:

9.1. 12-ci maddəyə “üzvləri;” sözündən sonra “mediatorlar;” sözü əlavə edilsin;

9.2. 14.5.5-ci maddəyə “üzvləri,” sözündən sonra “sərbəst mediatorlar,” sözləri əlavə edilsin.

Maddə 10. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 4; 2001, № 3, maddə 141; 2007, № 12, maddə 1212; 2008, № 11, maddə 960; 2014, № 4, maddə 331; 2015, № 4, maddə 352; 2016, № 3, maddə 419; 2018, № 4, maddə 651; 2019, № 1, maddələr 36, 47, № 12, maddə 1904; 2020, № 3, maddə 227, № 5, maddə 521, № 12 (I kitab),

maddə 1426) 15-2.2.2-ci maddəsinə “üzvləri” sözündən sonra “, mediatorlar” sözü əlavə edilsin.

Maddə 11. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddələr 1360, 1363, 1371, № 11, maddələr 1681, 1694; 2020, № 5, maddələr 521, 524, № 6, maddə 665, № 7, maddələr 824, 828, 837, 851, 853, № 11, maddə 1327, № 12 (I kitab), maddə 1423; 2021, № 2, maddə 117) aşağıdakı məzmunda 9.1-1-ci maddə əlavə edilsin:

“9.1-1. “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mediasiya prosesinin nəticəsinə dair barışıq sazişi bağlanmadıqda məhkəməyə müraciət edərkən mediasiya prosesi ilə bağlı xərclərin öz üzərinə düşən hissəsini ödəmiş tərəf və ya həmin Qanunun 36.2-ci maddəsinə uyğun olaraq mediasiya xərclərini ödəmiş tərəf dövlət rüsumunu ödəməkdən azad olunur. Bu Qanunda nəzərdə tutulmuş dövlət

rüsumunun məbləği çəkilmiş xərclərdən artıq olduqda, tərəf çəkdiyi xərc həddində dövlət rüsumundan azad edilir.”.

Maddə 12. “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 8, № 8, maddə 686; 2006, № 1, maddə 4; 2007, № 4, maddə 321; 2010, № 7, maddə 596; 2011, № 2, maddə 71, № 6, maddə 484; 2012, № 12, maddə 1228; 2013, № 12, maddə 1467; 2014, № 7, maddə 783; 2015, № 2, maddə 99, № 4, maddə 347, № 11, maddə 1287; 2016, № 12, maddə 2032; 2017, № 6, maddə 1044, № 12 (I kitab), maddə 2188; 2018, № 7 (I kitab), maddə 1443; 2019, № 12, maddə 1902; 2020, № 7, maddə 845; Azərbaycan Respublikasının 2021-ci il 2 aprel tarixli 289-VIQD nömrəli Qanunu) 13.3-cü maddəsinin ikinci cümləsinə “məlumatlar” sözündən sonra “, habelə “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mediasiyaya yönəldilən işlərin sayı” sözləri əlavə edilsin.

Maddə 13. “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1084; 2006, № 12, maddə 1031; 2008, № 6, maddə 462; 2011, № 7, maddə 592; 2014, № 12, maddə 1516; 2016, № 4, maddə 643; 2018, № 12 (I kitab), maddələr 2470, 2530; 2019, № 1, maddələr 5, 21, № 2, maddə 184, № 12, maddə 1901; 2020, № 6, maddə 669, № 7, maddə 829) aşağıdakı məzmunda 42.1.3-1-ci və 80-1-ci maddələr əlavə edilsin:

“42.1.3-1. həmin iş üzrə əvvəllər tərəflər arasında mediasiya prosesində mediator kimi iştirak etmişdirsə;”;

“Maddə 80-1. İnzibati mübahisələrin mediasiya vasitəsilə həll edilməsi

80-1.1. İnzibati orqanlar tərəfindən inzibati aktların qəbul edilməsi, icra olunması və ya ləğv edilməsi, yaxud inzibati orqanın digər hərəkət və ya hərəkətsizliyindən irəli gələn mübahisələr (bu Qanunun 4.3-cü maddəsində nəzərdə tutulmuş mübahisələr (o cümlədən “Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq inzibati ərazi vahidləri arasında ərazi məsələləri ilə bağlı mübahisələr) istisna olmaqla) “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, mediasiya vasitəsilə həll oluna bilər.

80-1.2. Maraqlı şəxslə inzibati orqan arasında mübahisənin mediasiya vasitəsilə həlli məqsədilə mediasiya prosesinin tətbiqi barədə müqavilə

bağlandıqda, müvafiq olaraq bu Qanunun 73-cü maddəsində nəzərdə tutulmuş müddətin axımı və ya inzibati şikayət üzrə icraat dayandırılır.

80-1.3. Mübahisə mediasiya vasitəsilə həll edildikdə, inzibati orqan barışıq sazişini şikayət instansiyasına təqdim edir. Bununla bağlı şikayət instansiyası tərəfindən inzibati şikayət üzrə icraata xitam verilir.

80-1.4. Mübahisə mediasiya vasitəsilə həll edilmədikdə inzibati orqan mediasiya prosesinin nəticələri barədə protokolu şikayət instansiyasına təqdim edir. Bununla bağlı bu Qanunun 78-ci maddəsində nəzərdə tutulmuş müddətin axımı bərpa olunur və şikayət instansiyası inzibati şikayətə baxır.

80-1.5. Mediasiya prosesinin nəticəsində bağlanılmış barışıq sazişində müvafiq inzibati orqanlar tərəfindən inzibati aktların qəbul edilməsi, dəyişdirilməsi və ya ləğv edilməsi, habelə müvafiq hərəkətin (hərəkətsizliyin) edilməsi öz əksini tapır.”.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 9 iyul 2021-ci il

§

**“Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, “Sosial sığorta haqqında”, “Tibbi sığorta haqqında”, “Dövlət rüsumu haqqında”, “Məhkəmə-Hüquq Şurası haqqında” və “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 360-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə”**

## Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında", "Dövlət rüsumu haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 360-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 602-2.5-ci maddəsində (hər iki halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 602-2.5-ci maddəsində (hər iki halda) "orqan (qurum)" dedikdə yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur.

2. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I

kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyun tarixli 1350 nömrəli və 1360 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.1-ci bəndə "576.4-cü" sözlərindən sonra ", 602-2.5-ci (hər iki halda)" sözləri əlavə edilsin;

2.2. 4.55-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 4.56-cı bənd əlavə edilsin:

"4.56. həmin Məcəllənin 602-2.5-ci maddəsində (hər iki halda) "orqan (qurum)" dedikdə yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur.".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 602-2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında", "Dövlət rüsumu haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında

dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 360-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 23 iyul 2021-ci il

§

## "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsini rəhbər tutaraq qərara alır:

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 69; 2016, № 10, maddə 1600; 2018, № 7 (I kitab), maddə 1396, № 12 (I kitab), maddə 2513; 2019, № 5, maddə 809; 2020, № 4, maddə 384) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.0.8-1-ci maddə əlavə edilsin:

"1.0.8-1. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (bundan sonra – toplu) – qəbul edilmiş Azərbaycan Respublikası qanunlarının, Azərbaycan Respublikası Prezidentinin aktlarının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının dərc edildiyi aylıq rəsmi toplu;".

2. 12.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"12.2. Normativ hüquqi aktların kolliziyasına yol verməmək məqsədilə qanun layihələri ilə yanaşı onların qəbul olunması ilə əlaqədar ləğv, dəyişikliklər edilməli və hazırlanmalı olan qanun layihələri də eyni zamanda təqdim edilməlidir. Azərbaycan Respublikasının Prezidentinə təqdim olunan qanun və Azərbaycan Respublikası Prezidentinin fərmanlarının layihələri ilə yanaşı onların qəbul edilməsi ilə əlaqədar ləğv və dəyişikliklər edilməli və hazırlanmalı olan Azərbaycan Respublikası Prezidentinin aktlarının layihələri də eyni zamanda təqdim olunmalı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ

hüquqi aktlarının (onların struktur elementlərinin) siyahısı müəyyən edilməlidir.”.

3. 19-cu maddə üzrə:

3.1. 19.1-ci maddədə “və onların icrası” sözləri “, Azərbaycan Respublikası Konstitusiyasının, referendum aktının, Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının icrasını təmin etmək” sözləri ilə əvəz edilsin;

3.2. 19.4-cü maddədə “həmin aktın icrası” sözləri “bu Konstitusiya Qanununun 19.1-ci maddəsində göstərilən aktların icrasını təmin etmək” sözləri ilə əvəz edilsin.

4. 20-ci maddə üzrə:

4.1. 20.1-ci maddədə “aktları ilə nəzərdə tutulmuş hallarda və hədlərdə” sözləri “aktına, habelə Azərbaycan Respublikası Konstitusiyasından, referendum aktından, Azərbaycan Respublikası qanunlarından və Azərbaycan Respublikası Prezidentinin aktlarından irəli gəldiyi halda Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktına əsasən” sözləri ilə əvəz edilsin;

4.2. 20.4-cü maddədə “istinad etdiyi Azərbaycan Respublikası Prezidentinin aktı göstərilməli və həmin aktın icrası” sözləri “qəbulu üçün bu Konstitusiya Qanununun 20.1-ci maddəsinə uyğun olaraq əsas olmuş akt göstərilməli və həmin aktın icrasını təmin etmək” sözləri ilə əvəz edilsin.

5. 48-ci maddə üzrə:

5.1. 48.2.1-ci maddəyə “müşayiət məktubu” sözlərindən sonra “, normativ hüquqi aktın layihəsinin uyğunluğunun təmini haqqında arayış (müvafiq layihələr əlavə olunmaqla (olduğu halda))” sözləri əlavə edilsin;

5.2. 48.3.4-cü maddədə “normativ hüquqi aktların” sözləri “Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının” sözləri ilə əvəz edilsin.

6. Aşağıdakı məzmunda 75.3-cü, 76.4-cü və 76.5-ci maddələr əlavə edilsin:

“75.3. Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin aktları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarında dəyişiklik edilən zaman dəyişikliyi nəzərdə tutan normativ hüquqi aktın mətnində mötərizədə, dəyişiklik edilən normativ hüquqi aktın dərc edildiyi, habelə ona əvvəllər edilmiş dəyişiklikləri əks etdirən

topluların (külliyyatların) illəri, nömrələri (kitabları) və maddələri ardıcıllıqla göstərilir.”;

“76.4. Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin aktları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları ləğv edilən zaman onların ləğv edilməsinə dair normativ hüquqi aktın mətnində mötərizədə ləğv edilən normativ hüquqi aktın dərc edildiyi, ona əvvəllər edilmiş dəyişiklikləri əks etdirən topluların (külliyyatların) illəri, nömrələri (kitabları) və maddələri ardıcıllıqla göstərilməklə verilir.

76.5. Bu Konstitusiya Qanununun 76.4-cü maddəsinə uyğun olaraq ləğv edilən normativ hüquqi aktla yanaşı onun ləğv edilməsinə dair normativ hüquqi aktın mətnində göstərilən toplulara (külliyyatlara) uyğun olaraq ona əvvəllər edilmiş dəyişiklikləri nəzərdə tutan normativ hüquqi akt və ya onun müvafiq struktur elementi də ləğv edilmiş hesab edilir. Bu qayda bir neçə normativ hüquqi akta dəyişikliyi nəzərdə tutan normativ hüquqi aktlara münasibətdə də tətbiq edilir. Bu zaman onların adında və mətnində həmin dəyişikliyə dair müddəalar ləğv edilmiş hesab edilir.”.

7. 77-ci maddə ləğv edilsin.

8. 82.2-ci maddə üzrə:

8.1. birinci cümləyə ikinci halda “dərc edilməsi” sözlərindən sonra “, rəsmi internet informasiya ehtiyatında yerləşdirilməsi” sözləri əlavə edilsin;

8.2. ikinci cümləyə “edilməsini” sözündən sonra “və rəsmi internet informasiya ehtiyatında yerləşdirilməsini” sözləri əlavə edilsin.

9. 89-cu maddə üzrə:

9.1. “89.0.”, “89.0.1.”, “89.0.2.” və “89.0.3." rəqəmləri müvafiq olaraq “89.1.”, “89.1.1.”, “89.1.2.” və “89.1.3.” rəqəmləri ilə əvəz edilsin;

9.2. 89.1.2-ci maddəyə “Konstitusiyası” sözündən sonra “, bu Konstitusiya Qanunu” sözləri əlavə edilsin;

9.3. aşağıdakı məzmunda 89.2-ci maddə əlavə edilsin:

“89.2. Bu Konstitusiya Qanununun 89.1.3-cü maddəsinə uyğun olaraq normativ hüquqi akt (onun struktur elementi) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı ilə qüvvədən düşmüş hesab edildikdə həmin normativ hüquqi akt (onun struktur elementi) onu qəbul etmiş normayaratma orqanı tərəfindən ləğv edilir.”.

10. Bu Konstitusiya Qanununa 1 nömrəli Əlavə - “Normativ hüquqi aktın layihəsinin, qanunun məcburi hüquqi ekspertizası rəyinin strukturu”nun 13-cü və 14-cü maddələrində “normativ hüquqi aktların”

sözləri "Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 30 sentyabr 2021-ci il

§

**Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin və sədrlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, aşağıdakı hakimlər birinci instansiya məhkəmələrinin hakimləri və sədrləri təyin edilsinlər:

Zamiq Xudaverdi oğlu Əliyev Naxçıvan Muxtar Respublikası Babək Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

Tural Ziyat oğlu Haqverdiyev Naxçıvan Muxtar Respublikası Ordubad Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

Daşqın Yaqub oğlu Səfərov Naxçıvan Muxtar Respublikası Şahbuz Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

Mehdi Ədalət oğlu Əliyev Naxçıvan Muxtar Respublikası Şərur Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

...

2. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, aşağıdakı hakimlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

...

**kommersiya məhkəmələri üzrə:**

**Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsi**
Hüseynov Elnur Heydər oğlu

...

**Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri üzrə:**

**Naxçıvan Şəhər Məhkəməsi**
Səfərəliyeva Gülnar Xanlar qızı

**Şərur Rayon Məhkəməsi**
Qarayev Seymur Əlfəddin oğlu

...

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 21 dekabr 2021-ci il

§

## Q.V.Əliyevə “Əməkdar hüquqşünas” fəxri adının verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq qərara alıram:

Naxçıvan Muxtar Respublikasında məhkəmə orqanlarında səmərəli fəaliyyətinə görə Qasım Vəli oğlu Əliyevə “Əməkdar hüquqşünas” fəxri adı verilsin.

**Vasif Talıbov**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri*

Naxçıvan şəhəri, 19 iyul 2021-ci il
№ 119-06/S



# MƏHKƏMƏ FƏALİYYƏTİ

***MÜLKİ KOLLEGİYADAN***

## Mülki mühakimə sahəsində məhkəmə fəaliyyətinə dair 2021-ci ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2021-ci ilin birinci yarısında 1280 mülki işə baxılmaqla nəticə verilmişdir. 2020-ci ilin birinci yarısında isə həmin məhkəmələr tərəfindən 932 mülki işə baxılmışdır. Bu onu göstərir ki, baxılan mülki işlərin sayı 2020-ci ilin birinci yarısı ilə müqayisədə 2021-ci ilin birinci yarısında 37,34% artmışdır.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələrinin mülki işlər üzrə çıxardıqları qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 100 apellyasiya şikayətinə baxılıb nəticə verilmişdir.

Apellyasiya şikayətləri ilə bağlı 100 mülki işdən 81 işə apellyasiya qaydasında baxılaraq 35 qətnamə və 16 qərardad dəyişdirilmədən saxlanılmış, 6 qətnamə dəyişdirilmiş, 20 qətnamə və 4 qərardad isə ləğv edilmişdir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 369-cu maddəsində göstərilən əsasla 19 apellyasiya şikayətinin icraatına isə xitam verilmişdir.

Apellyasiya şikayəti ilə əlaqədar kollegiyada baxılıb nəticə verilmiş işləri mülki hüquq münasibətlərinin mahiyyətinə görə təsnif etdikdə bu işlər üzrə göstəricilər aşağıdakı qaydada müəyyən olunur:

- ailə münasibətləri üzrə mübahisələr – 30 iş
- əmək mübahisələri – 1 iş
- mənzil mübahisələri – 6 iş
- mülkiyyət hüququ ilə əlaqədar mübahisələr – 7 iş
- torpaq mübahisələri üzrə – 2 iş
- müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələr – 23 iş

- vərəsəlik hüququ üzrə mübahisələr – 6 iş
- sair mülki işlər – 6 iş

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2021-ci ilin birinci yarısında baxılmış mülki işlər üzrə çıxarılan qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə məhkəmə təcrübəsinin təhlili göstərir ki, 2020-ci ilin birinci yarısı ilə müqayisədə 2021-ci ilin birinci yarısında apellyasiya şikayətlərinin sayı 2,04% artmışdır. Belə ki, 2020-ci ilin birinci yarısında birinci instansiya məhkəmələri tərəfindən mülki işlər üzrə qəbul edilmiş qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 98 apellyasiya şikayətinə baxılmışdır.

Qəbul edilmiş qərarların sabitliyi üzrə göstərici 2020-ci ilin birinci yarısı ilə müqayisədə 2021-ci ilin birinci yarısında yuxarı olmuşdur. Belə ki, 2020-ci ilin birinci yarısında rayon (şəhər) məhkəmələri tərəfindən qəbul edilən 932 qətnamə və qərardaddan 3%-i apellyasiya qaydasında dəyişdirilmiş və yaxud ləğv edilmişdirsə, 2021-ci ilin birinci yarısında məhkəmələrin baxdığı işlər üzrə çıxarılan 1280 qətnamə və qərardaddan 2,34%-i dəyişdirilmiş və yaxud ləğv edilmişdir. Bu isə o deməkdir ki, məhkəmə qərarlarının sabitlik göstəricisi 2020-ci ilin birinci yarısında 97%, 2021-ci ilin birinci yarısında isə 97,66% təşkil etmişdir.

Statistik məlumatlara görə kollegiya tərəfindən 2021-ci ilin birinci yarısında apellyasiya qaydasında baxılan qərarların 37,04%-nin ləğv edilməsinə və yaxud dəyişdirilməsinə həmin işlərə baxılarkən birinci instansiya məhkəmələri tərəfindən maddi və prosessual hüquq normalarının tələblərinin pozulması və məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün halların aydınlaşdırılmaması səbəb olmuşdur.

Apellyasiya baxışının nəticələrinə görə muxtar respublikanın ayrı-ayrı məhkəmələri üzrə 2020 və 2021-ci illərin birinci yarımilinə dair göstəricilər aşağıdakı cədvəllərdə göstərildiyi kimi olmuşdur.

2020-ci ilin birinci yarısında apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Q ə t n a m ə l ə r | | | | | Qərardadlar | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilmişdir | Ləğv edilərək | | | Ləğv edilmişdir | Qüvvədə saxlanılmışdır |
| | | | | | Yeni qətnamə çıxarılıb | Ərizə baxılmamış saxl. | İş.ic.xit ver. | | |
| **Naxçıvan** | **35** | **6** | **12** | | **6** | **1** | **4** | **1** | **5** |
| **Babək** | **13** | **1** | **9** | | **2** | | **1** | | |
| **Şərur** | **27** | **5** | **10** | **2** | **1** | | **1** | **2** | **6** |
| **Şahbuz** | **9** | **1** | **2** | **1** | **2** | **1** | | | **2** |
| **Kəngərli** | **5** | | **3** | **1** | | | | | **1** |
| **Culfa** | **3** | **1** | **2** | | | | | | |
| **Ordubad** | **6** | **1** | **3** | | | **1** | **1** | | |
| **YEKUN** | **98** | **15** | **41** | **4** | **11** | **3** | **7** | **3** | **14** |

2021-ci ilin birinci yarısında apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Q ə t n a m ə l ə r | | | | | Qərardadlar | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilmişdir | Ləğv edilərək | | | Ləğv edilmişdir | Qüvvədə saxlanılmışdır |
| | | | | | Yeni qətnamə çıxarılıb | Ərizə baxılmamış saxl. | İş.ic.xit ver. | | |
| **Naxçıvan** | **40** | **8** | **12** | **2** | **5** | **1** | **4** | **2** | **6** |
| **Babək** | **12** | **1** | **5** | **1** | | **1** | **1** | | **3** |
| **Şərur** | **26** | **7** | **9** | **1** | **3** | | **1** | **2** | **3** |
| **Şahbuz** | **7** | | **3** | **1** | | | **1** | | **2** |
| **Kəngərli** | **5** | **2** | **2** | | | | | | **1** |
| **Culfa** | **6** | **1** | **3** | | **1** | | **1** | | |
| **Ordubad** | **3** | | **1** | | | **1** | | | **1** |
| **Sədərək** | **1** | | | **1** | | | | | |
| **YEKUN** | **100** | **19** | **35** | **6** | **9** | **3** | **8** | **4** | **16** |

Apellyasiya qaydasında 2021-ci ilin birinci yarısında ləğv edilmiş və yaxud dəyişdirilmiş məhkəmə qərarları üzrə ayrı-ayrı məhkəmələrin göstəricilərini bir-biri ilə, eləcə də həmin məhkəmələr tərəfindən çıxarılmış qətnamə və qərardadların ümumi sayı ilə müqayisə etdikdə müəyyən olur ki, qətnamə və qərardadların sabitliyi üzrə ən aşağı göstəriciyə Sədərək Rayon Məhkəməsi, ən yüksək göstəriciyə isə Kəngərli Rayon Məhkəməsi malikdir. Belə ki, 2021-ci ilin birinci yarısında *Sədərək Rayon Məhkəməsində* çıxarılan 29 qərardan 1 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 3,45%-i dəyişdirildiyinə görə məhkəmə qərarlarının sabitliyi üzrə göstərici 96,55% olduğu halda, Kəngərli Rayon Məhkəməsinin qətnamə və qərardadlarının sabitliyi üzrə göstərici 100% təşkil etmişdir. Çünki həmin dövrdə *Kəngərli Rayon Məhkəməsi* tərəfindən çıxarılmış 81 qətnamə və qərardaddan ləğv edilən və ya dəyişdirilən olmamışdır.

*Ordubad Rayon Məhkəməsi* tərəfindən 2021-ci ilin birinci yarısında çıxarılan 81 qətnamə və qərardaddan 1 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,23%-i ləğv edilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,77% təşkil etmişdir.

*Babək Rayon Məhkəməsi* tərəfindən 2021-ci ilin birinci yarısında çıxarılan 194 qətnamə və qərardaddan 3 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,55%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,45% təşkil etmişdir.

*Culfa Rayon Məhkəməsi* tərəfindən 2021-ci ilin birinci yarısında çıxarılan 100 qətnamə və qərardaddan 2 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 2%-i ləğv edilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98% təşkil etmişdir.

*Şərur Rayon Məhkəməsi* tərəfindən 2021-ci ilin birinci yarısında çıxarılan 312 qətnamə və qərardaddan 5 qətnamə və 2 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 2,24%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 97,76% təşkil etmişdir.

*Şahbuz Rayon Məhkəməsi* tərəfindən 2021-ci ilin birinci yarısında çıxarılan 75 qətnamə və qərardaddan 2 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 2,67%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 97,33% təşkil etmişdir.

*Naxçıvan Şəhər Məhkəməsi* tərəfindən 2021-ci ilin birinci yarısında çıxarılan 408 qətnamə və qərardaddan 12 qətnamə və 2 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 3,43%-i ləğv edilmiş və ya

dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 96,57% təşkil etmişdir.

2020-ci ilin birinci yarısında isə baxılmış işlər üzrə qəbul edilmiş qətnamə və qərardadların sabitlik göstəriciləri aşağıdakı kimi olmuşdur:

- *Culfa Rayon Məhkəməsi* – 100% (90 qətnamə və qərardaddan ləğv edilən və ya dəyişdirilən olmamışdır);
- *Sədərək Rayon Məhkəməsi* – 100% (12 qətnamə və qərardaddan apellyasiya şikayəti verilməmişdir);
- *Kəngərli Rayon Məhkəməsi* – 98,46% (65 qətnamə və qərardaddan 1 qətnamə, yəni 1,54%-i dəyişdirilmişdir);
- *Şərur Rayon Məhkəməsi* – 97,58% (248 qətnamə və qərardaddan 4 qətnamə və 2 qərardad, yəni 2,42%-i ləğv edilmiş və ya dəyişdirilmişdir);
- *Babək Rayon Məhkəməsi* – 97,37% (114 qətnamə və qərardaddan 3 qətnamə, yəni 2,63%-i ləğv edilmişdir);
- *Ordubad Rayon Məhkəməsi* – 97,14% (70 qətnamə və qərardaddan 2 qətnamə, yəni 2,86%-i ləğv edilmişdir);
- *Naxçıvan Şəhər Məhkəməsi* – 95,71% (280 qətnamə və qərardaddan 11 qətnamə və 1 qərardad, yəni 4,29%-i ləğv edilmişdir);
- *Şahbuz Rayon Məhkəməsi* – 92,45% (53 qətnamə və qərardaddan 4 qətnamə, yəni 7,55%-i ləğv edilmiş və ya dəyişdirilmişdir).

Qətnamə və qərardadların sabitliyi üzrə 2020 və 2021-ci illərin birinci yarımilinə dair göstəricilərin müqayisəsi onu göstərir ki, Culfa və Sədərək rayon məhkəmələrinin sabitlik göstəricisi 2020-ci ilin birinci yarısı ilə müqayisədə aşağı düşmüş, Naxçıvan şəhər, Şərur, Babək, Şahbuz, Kəngərli və Ordubad rayon məhkəmələrinin qətnamə və qərardadlarının sabitlik göstəricisi isə yüksəlmişdir.

Qətnamə və qərardadların sabitlik göstəricisi, yəni buraxılan məhkəmə səhvlərinin həcmi bir çox amillərlə yanaşı, həm də məhkəmələrin üzərinə düşən iş yükündən də asılı olmuşdur.

Muxtar respublika məhkəmələrinin mülki mühakimə icraatı üzrə iş yükünə görə təsnif etdikdə müəyyən olunur ki, 2020-ci ilin birinci yarısında olduğu kimi 2021-ci ilin birinci yarısında da ən çox mülki işə Naxçıvan Şəhər Məhkəməsində baxılmışdır. Belə ki, bu məhkəmədə 2020-ci ilin birinci yarısında 280 mülki işə, 2021-ci ilin birinci yarısında isə 408 mülki işə baxılmışdır.

Digər məhkəmələr üzrə iş yükü aşağıdakı kimi olmuşdur:

- *Şərur Rayon Məhkəməsi* – 312 iş (2020-ci ilin birinci yarısında 248 işə baxılmışdır);
- *Babək Rayon Məhkəməsi* – 194 iş (2020-ci ilin birinci yarısında 114 işə baxılmışdır);
- *Culfa Rayon Məhkəməsi* – 100 iş (2020-ci ilin birinci yarısında 90 işə baxılmışdır);
- *Ordubad Rayon Məhkəməsi* – 81 iş (2020-ci ilin birinci yarısında 70 işə baxılmışdır);
- *Kəngərli Rayon Məhkəməsi* – 81 iş (2020-ci ilin birinci yarısında 65 işə baxılmışdır);
- *Şahbuz Rayon Məhkəməsi* – 75 iş (2020-ci ilin birinci yarısında 53 işə baxılmışdır);
- *Sədərək Rayon Məhkəməsi* – 29 iş (2020-ci ilin birinci yarısında 12 işə baxılmışdır).

Göründüyü kimi 2020-ci ilin birinci yarısı ilə müqayisədə 2021-ci ilin birinci yarısında muxtar respublika məhkəmələrində mülki mühakimə icraatı üzrə iş yükü artmışdır.

*Məhkəmələr üzrə "nikahın ləğvi" tələbinə dair işlər üzrə isə statistik göstəricilər aşağıdakı kimi olmuşdur:*

**Naxçıvan Şəhər Məhkəməsi üzrə** - 2020-ci ildən 2021-ci ilə 58 iş qalıq qalmış, 2021-ci ilin birinci yarısında 153 mülki iş, ümumilikdə 211 mülki iş icraata daxil olmuşdur. 62 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 46 qərardad çıxarılmaqla 3 iş üzrə iddia baxılmamış saxlanılmış, 43 iş üzrə icraata xitam verilmişdir. 16 mülki iş üzrə ərizə geri qaytarılmış, 1 iş aidiyyəti üzrə başqa məhkəməyə göndərilmiş, 86 iş 2021-ci ilin ikinci yarısına qalıq qalmışdır.

**Şərur Rayon Məhkəməsi üzrə** - 2020-ci ildən 2021-ci ilə 53 iş qalıq qalmış, 2021-ci ilin birinci yarısında 57 mülki iş, ümumilikdə 110 mülki iş icraata daxil olmuşdur. 44 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 12 qərardad çıxarılmaqla 6 iş üzrə iddia baxılmamış saxlanılmış, 6 iş üzrə icraata xitam verilmişdir. 8 mülki iş üzrə ərizə geri qaytarılmış, 46 iş 2021-ci ilin ikinci yarısına qalıq qalmışdır.

**Babək Rayon Məhkəməsi üzrə** - 2020-ci ildən 2021-ci ilə 41 iş qalıq qalmış, 2021-ci ilin birinci yarısında 65 mülki iş, ümumilikdə 106 mülki iş icraata daxil olmuşdur. 28 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin

edilmişdir. Həmin kateqoriya işlər üzrə 35 qərardad çıxarılmaqla 6 iş üzrə iddia baxılmamış saxlanılmış, 29 iş üzrə icraata xitam verilmişdir. 8 mülki iş üzrə ərizə geri qaytarılmış, 35 iş 2021-ci ilin ikinci yarısına qalıq qalmışdır.

**Culfa Rayon Məhkəməsi üzrə** - 2020-ci ildən 2021-ci ilə 15 iş qalıq qalmış, 2021-ci ilin birinci yarısında 46 mülki iş, ümumilikdə 61 mülki iş icraata daxil olmuşdur. 18 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 12 qərardad çıxarılmaqla 3 iş üzrə iddia baxılmamış saxlanılmış, 9 iş üzrə icraata xitam verilmişdir. 1 mülki iş üzrə ərizə geri qaytarılmış, 30 iş 2021-ci ilin ikinci yarısına qalıq qalmışdır.

**Kəngərli Rayon Məhkəməsi üzrə** - 2020-ci ildən 2021-ci ilə 16 iş qalıq qalmış, 2021-ci ilin birinci yarısında 34 mülki iş, ümumilikdə 50 mülki iş icraata daxil olmuşdur. 14 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 5 qərardad çıxarılmaqla 2 iş üzrə iddia baxılmamış saxlanılmış, 3 iş üzrə icraata xitam verilmişdir. 3 mülki iş üzrə ərizə geri qaytarılmış, 28 iş 2021-ci ilin ikinci yarısına qalıq qalmışdır.

**Ordubad Rayon Məhkəməsi üzrə** - 2020-ci ildən 2021-ci ilə 17 iş qalıq qalmış, 2021-ci ilin birinci yarısında 23 mülki iş, ümumilikdə 40 mülki iş icraata daxil olmuşdur. 22 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 1 qərardad çıxarılmaqla 1 iş üzrə iddia baxılmamış saxlanılmışdır. 17 iş 2021-ci ilin ikinci yarısına qalıq qalmışdır.

**Şahbuz Rayon Məhkəməsi üzrə** - 2020-ci ildən 2021-ci ilə 8 iş qalıq qalmış, 2021-ci ilin birinci yarısında 27 mülki iş, ümumilikdə 35 mülki iş icraata daxil olmuşdur. 8 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 5 qərardad çıxarılmaqla 5 iş üzrə icraata xitam verilmişdir. 2 mülki iş üzrə ərizə geri qaytarılmış, 20 iş 2021-ci ilin ikinci yarısına qalıq qalmışdır.

**Sədərək Rayon Məhkəməsi üzrə** - 2020-ci ildən 2021-ci ilə 5 iş qalıq qalmış, 2021-ci ilin birinci yarısında 9 mülki iş, ümumilikdə 14 mülki iş icraata daxil olmuşdur. 5 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. 2 mülki iş üzrə ərizə geri qaytarılmış, 7 iş 2021-ci ilin ikinci yarısına qalıq qalmışdır.

2021-ci ilin birinci yarısında məhkəmələr tərəfindən "nikahın ləğvi" tələbinə dair 95 iş (29,97%) üzrə icraata tərəflərin barışması səbəbindən xitam verilmişdir. Xitam verilmiş işlər üzrə məhkəmələrin göstəriciləri aşağıdakı kimi olmuşdur:

- Babək Rayon Məhkəməsi – 46,03% (63 işdən 29 işin icraatına xitam verilib);
- Naxçıvan Şəhər Məhkəməsi - 39,81% (108 işdən 43 işin icraatına xitam verilib);
- Şahbuz Rayon Məhkəməsi - 38,46% (13 işdən 5 işin icraatına xitam verilib);
- Culfa Rayon Məhkəməsi - 30% (30 işdən 9 işin icraatına xitam verilib);
- Kəngərli Rayon Məhkəməsi - 15,79% (19 işdən 3 işin icraatına xitam verilib);
- Şərur Rayon Məhkəməsi - 10,71% (56 işdən 6 işin icraatına xitam verilib).

2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında baxılan mülki işlər üzrə qəbul olunmuş qətnamə və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasına 14 kassasiya şikayəti verilmiş, həmin şikayətlərdən 12 işə baxılaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının 9 qətnaməsi və 1 qərardadı dəyişdirilmədən saxlanılmış, 2 qətnaməsi ləğv edilmiş, 2 qətnaməsindən verilmiş kassasiya şikayəti isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2021-ci ilin birinci yarısında qəbul edilən qərarlar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının sabitlik göstəricisi 98 % təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈

***KOMMERSİYA KOLLEGİYASINDAN***

## Məhkəmə fəaliyyətinə dair 2021-ci ilin birinci yarısı üzrə statistik məlumatların təhlili

2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatında ümumilikdə 45 kommersiya mübahisələrinə dair iş olmuş, onlardan 6 iş 2020-ci ildən cari ilə qalıq qalmış, 39 iş isə 2021-ci ilin birinci yarısında daxil olmuşdur.

Kommersiya mübahisələri üzrə işlərdən 21 işə mahiyyəti üzrə baxılmaqla 17 iş üzrə iddia təmin edilmiş, 1 iş üzrə iddia rədd edilmiş, 1 iş üzrə məhkəmə əmri çıxarılmış, 1 işin icraatına xitam verilmiş, 1 iş üzrə iddia baxılmamış saxlanılmışdır. 21 iş üzrə iddia ərizəsi geri qaytarılmış, 3 kommersiya mübahisələri üzrə iş isə 2021-ci ilin ikinci yarısına qalıq qalmışdır.

2020-ci ilin birinci yarısı ilə müqayisədə 2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatına daxil olan kommersiya mübahisələrinə dair işlərin sayı 13,46% azalmışdır. Belə ki, 2020-ci ilin birinci yarısında həmin məhkəmənin icraatına kommersiya mübahisələrinə dair 52 iş daxil olmuşdur.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, Kommersiya Məhkəməsinə 2021-ci ilin birinci yarısında daxil olan işlərin böyük əksəriyyətini hüquqi şəxslər və fərdi sahibkarlıq fəaliyyəti subyektləri arasında yaranan mübahisələr üzrə (21 iş - yəni 46,67%) və vergi ödəmələri barədə mübahisələr üzrə (16 iş - yəni 35,56%) iddia tələbinə dair işlər təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin çıxardığı qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasında 4 işə apellyasiya qaydasında baxılaraq 2 qətnamə və 2 qərardad dəyişdirilmədən saxlanılmışdır. 2020-ci ilin birinci yarısında kommersiya kollegiyasında 2 apellyasiya şikayətinə baxılmışdır. Göründüyü kimi 2020-ci ilin birinci yarısı ilə müqayisədə 2021-ci ilin birinci yarısında kollegiyada baxılan kommersiya mübahisələrinə dair işlərin sayı artmışdır.

2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasında baxılan kommersiya mübahisələri üzrə qəbul olunmuş qətnamə və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasına 1 kassasiya

şikayəti verilmiş, həmin şikayətə baxılaraq 1 qətnamə dəyişdirilmədən saxlanılmışdır.

Beləliklə, 2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasının sabitlik göstəricisi 100% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈

## ***İNZİBATİ KOLLEGİYADAN***

### Məhkəmə fəaliyyətinə dair 2021-ci ilin birinci yarısı üzrə statistik məlumatların təhlili

2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsinin icraatında ümumilikdə 139 inzibati mübahisələrə dair iş olmuş, onlardan 14 iş 2020-ci ildən cari ilə qalıq qalmış, 125 iş isə 2021-ci ilin birinci yarısında daxil olmuşdur.

İnzibati mübahisələrə dair işlərdən 72 işə mahiyyəti üzrə baxılmaqla 39 iş üzrə iddia tələbi təmin edilmiş, 4 iş üzrə iddia tələbi rədd edilmiş, 29 işin icraatına xitam verilmişdir. 9 iş üzrə iddia mümkünsüz hesab edilmiş, 58 iş isə 2021-ci ilin ikinci yarısına qalıq qalmışdır.

2020-ci ilin birinci yarısı ilə müqayisədə 2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsinin icraatına daxil olan inzibati mübahisələrə dair işlərin sayı 90,41% artmışdır. Belə ki, 2020-ci ilin birinci yarısında həmin məhkəmənin icraatına inzibati mübahisələrə dair 73 iş daxil olmuşdur.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, İnzibati Məhkəməyə 2021-ci ilin birinci yarısında daxil olan işlərin böyük əksəriyyətini öhdəliyin icrası haqqında (110 iş - yəni 79,14%) və mübahisələndirmə haqqında (16 iş - yəni 11,51%) iddia tələbinə dair işlər təşkil etmişdir.

2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsində baxılan işlər üzrə qəbul olunmuş qərar və qərardadlardan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasına 19 apellyasiya şikayəti verilmiş, apellyasiya şikayətlərinə baxılaraq 12 iş üzrə 7 qərar və 5 qərardad dəyişdirilmədən saxlanılmış, 5 iş üzrə 3 qərar və 2 qərardad ləğv edilmiş, 2 iş üzrə apellyasiya şikayətinin icraatına xitam verilmişdir.

2020-ci ilin birinci yarısı ilə müqayisədə 2021-ci ilin birinci yarısında inzibati mübahisələrə dair işlər üzrə çıxarılan qərarlardan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasına verilmiş apellyasiya şikayətlərinin sayı artmışdır. Belə ki, inzibati mübahisələrə dair işlər üzrə çıxarılan qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə 2020-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasında 10 apellyasiya şikayətinə baxılmışdır.

2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasında baxılan işlər üzrə qəbul olunmuş qərar və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin

inzibati kollegiyasına 6 kassasiya şikayəti verilmiş, kassasiya şikayətlərinə baxılaraq 3 qərar dəyişdirilmədən saxlanılmış, 2 qərar ləğv edilmiş, 1 qərardaddan verilmiş kassasiya şikayəti qeyri-mümkün hesab edilmişdir.

Beləliklə, 2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasının sabitlik göstəricisi 89,47% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈

## *CİNAYƏT KOLLEGİYASINDAN*

### Cinayət kollegiyasının 2021-ci ilin birinci yarısı üzrə fəaliyyətinin nəticələrini əks etdirən statistik məlumatlar

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ərazi yurisdiksiyasına aid olan muxtar respublika məhkəmələri tərəfindən 2021-ci ilin birinci yarısında 36 nəfərin barəsində 27 cinayət işinə mahiyyəti üzrə baxılmışdır. Müqayisə üçün qeyd edək ki, 2020-ci ilin birinci yarısında həmin məhkəmələr tərəfindən 30 nəfərin barəsində 22 cinayət işinə baxılmışdır.

Birinci instansiya məhkəmələri tərəfindən 2021-ci ilin birinci yarısında baxılmış 24 cinayət işi üzrə 32 nəfərin barəsində ittiham hökmü çıxarılmışdır.

*İttiham hökmünün çıxarılması ilə nəticələnən işləri* obyektə görə qruplaşdırdıqda 2020 və 2021-ci illərin birinci yarısına dair göstəricilər aşağıdakı kimi olmuşdur:

| **Cinayətlərin növü** | **2020-ci ilin birinci yarısı üzrə göstəricilər (şəxslərin və işlərin sayı)** | **2021-ci ilin birinci yarısı üzrə göstəricilər (şəxslərin və işlərin sayı)** |
|---|---|---|
| Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər | 4 / 1 | 1 / 1 |
| Həyat və sağlamlıq əleyhinə olan cinayətlər | 2 / 2 | 4 / 3 |
| Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər | - | 4 / 4 |
| Mülkiyyət əleyhinə olan cinayətlər | - | 11 / 5 |
| İqtisadi fəaliyyət sahəsində olan cinayətlər | - | 4 / 3 |
| İctimai təhlükəsizlik əleyhinə olan cinayətlər | 1 / 1 | - |
| Ədalət mühakiməsi əleyhinə olan cinayətlər | 1 / 1 | 1 / 1 |
| Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər | 3 / 3 | - |

| | | |
|---|---|---|
| Hərbi xidmət əleyhinə olan cinayətlər | 16 / 13 | 7 / 7 |
| İdarəetmə qaydası əleyhinə olan cinayətlər | 3 / 1 | - |

Cədvəldən göründüyü kimi 2020-ci ilin birinci yarısından fərqli olaraq 2021-ci ilin birinci yarısında hərbi xidmət əleyhinə olan cinayətlər azalmış, həyat və sağlamlıq əleyhinə olan cinayətlər artmış, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı və ədalət mühakiməsi əleyhinə olan cinayətlər üzrə göstəricilər isə dəyişməmişdir. 2020-ci ilin birinci yarısından fərqli olaraq 2021-ci ilin birinci yarısında hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə, ictimai təhlükəsizlik əleyhinə və idarəetmə qaydası əleyhinə olan cinayətlərə dair işlər daxil olmamış, şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə, mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində olan cinayətlərə dair işlər daxil olmuşdur.

2020 və 2021-ci illərin birinci yarısında məhkumlara təyin olunan cəzalar aşağıdakı kimi olmuşdur:

| **Təyin olunan əsas cəzaların növləri** | **2020-ci ilin birinci yarısı üzrə məhkumların sayı** | **2021-ci ilin birinci yarısı üzrə məhkumların sayı** |
|---|---|---|
| Müəyyən müddətə azadlıqdan məhrum etmə | 13 nəfər | 11 nəfər |
| Cərimə | - | 4 nəfər |
| Azadlıqdan məhrum etməyə şərti məhkum etmə | 14 nəfər | 12 nəfər |
| İslah işləri | - | 1 nəfər |
| Hərbi xidmət üzrə məhdudlaşdırma | 2 nəfər | 2 nəfər |
| İntizam xarakterli hərbi hissədə saxlama | 1 nəfər | 2 nəfər |

Cədvəldən göründüyü kimi müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilənlər 2020-ci ilin birinci yarısında məhkum edilmiş şəxslərin 43,33%-ni, 2021-ci ilin birinci yarısında isə məhkum olunanların 34,37%-ni təşkil etmiş, yəni 2020-ci ilin birinci yarısı ilə müqayisədə 2021-ci ilin birinci yarısında cəzaların ümumi kütləsində azadlıqdan məhrum etmə

cəzasının həcmi 8,96% azalmış, azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaların həcmi isə əksinə 8,96% artmışdır (ümumilikdə götürüldükdə).

2020 və 2021-ci illərin birinci yarısında baxılan cinayət işlərinə dair göstəricilər ayrı-ayrılıqda muxtar respublikanın birinci instansiya məhkəmələri üzrə aşağıdakı kimi olmuşdur:

| **Məhkəmənin adı** | **2020-ci ilin birinci yarısı üzrə (cinayət işinin və məhkumun sayı)** | **2021-ci ilin birinci yarısı üzrə (cinayət işinin və məhkumun sayı)** |
|---|---|---|
| Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi | 2 / 2 | 2 / 2 |
| Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi | 15 / 20 | 13 / 16 |
| Naxçıvan Şəhər Məhkəməsi | 3 / 6 | 8 / 10 |
| Culfa Rayon Məhkəməsi | - | - |
| Şərur Rayon Məhkəməsi | 1 / 1 | 1 / 5 |
| Babək Rayon Məhkəməsi | 1 / 1 | 1 / 1 |
| Kəngərli Rayon Məhkəməsi | - | 2 / 2 |
| Ordubad Rayon Məhkəməsi | - | - |
| Sədərək Rayon Məhkəməsi | - | - |
| Şahbuz Rayon Məhkəməsi | - | - |

Cədvəldən göründüyü kimi 2020-ci ilin birinci yarısından fərqli olaraq 2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsində baxılmış cinayət işlərinin sayı azalmış, Naxçıvan Şəhər Məhkəməsində baxılmış cinayət işlərinin sayı artmış, Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsinin, Babək və Şərur rayon məhkəmələrinin icraatına daxil olan cinayət işləri üzrə göstəricilər isə dəyişməmişdir. 2020-ci ilin birinci yarısından fərqli olaraq 2021-ci ilin birinci yarısında Kəngərli Rayon Məhkəməsinin icraatına cinayət işləri daxil olmuşdur. Culfa, Şahbuz, Ordubad və Sədərək rayon məhkəmələrinin icraatına 2020-ci ilin birinci yarısında olduğu kimi 2021-ci ilin birinci yarısında da cinayət işi daxil olmamışdır.

2021-ci ilin birinci yarısında birinci instansiya məhkəmələrində baxılmış cinayət işləri üzrə çıxarılan hökmlərdən verilmiş apellyasiya şikayətlərinə

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında baxılaraq 7 hökm dəyişdirilmədən saxlanılmış, 1 hökm isə dəyişdirilmişdir.

Dəyişdirilən hökm muxtar respublikanın birinci instansiya məhkəmələrinin 2021-ci ilin birinci yarısında çıxardıqları bütün hökmlərin 4,17%-ni təşkil etdiyi üçün məhkəmələr üzrə hökmlərin sabitlik göstəricisi 95,83% olmuşdur.

Müqayisə üçün qeyd edək ki, 2020-ci ilin birinci yarısında birinci instansiya məhkəmələri tərəfindən çıxarılmış hökmlərin sabitlik göstəricisi 86,36% təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının birinci instansiya məhkəmələri tərəfindən xüsusi icraat qaydasında 2021-ci ilin birinci yarısında 81 işə (materiala) baxılmışdır. 2020-ci ilin birinci yarısı ilə müqayisədə bu göstərici 65,31% artmışdır (həmin dövrdə 49 işə baxılmışdır).

2021-ci ilin birinci yarısında xüsusi icraat qaydasında həll edilən işlərdən 41 iş (50,62%) telefon danışıqlarına qulaq asma, 22 iş (27,16%) həbs qətimkan tədbirinin seçilməsi, 1 iş (1,23%) ev dustaqlığı qətimkan tədbirinin seçilməsi, 5 iş (6,17%) cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə, 4 iş (4,94%) cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi, 2 iş (2,47%) cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəzləşdirilməsi, 1 iş (1,23%) telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların ələ keçirilməsi, 1 iş (1,23%) maliyyə əməliyyatları barədə məlumatların ələ keçirilməsi, 1 iş (1,23%) Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 152-ci maddəsində nəzərdə tutulmuş hallarda tutulma, 1 iş (1,23%) məhkumluğun vaxtından əvvəl götürülməsi və 2 iş (2,47%) digər məsələlər barədə olmuşdur.

Muxtar respublikanın birinci instansiya məhkəmələri üzrə xüsusi icraat qaydasında baxılan işlərlə əlaqədar 2020 və 2021-ci illərin birinci yarımilinin göstəriciləri aşağıdakı cədvəldə təsvir edildiyi kimi olmuşdur:

| **Məhkəmənin adı** | **2020-ci ilin birinci yarımili üzrə (işlərin və şəxslərin sayı)** | **2021-ci ilin birinci yarımili üzrə (işlərin və şəxslərin sayı)** |
|---|---|---|
| Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi | 4 / 4 | 12 / 12 |
| Naxçıvan Şəhər Məhkəməsi | 15 / 15 | 29 / 29 |
| Şərur Rayon Məhkəməsi | 7 / 7 | 9 / 9 |
| Babək Rayon Məhkəməsi | 2 / 2 | 3 / 3 |

| | | |
|---|---|---|
| Culfa Rayon Məhkəməsi | 11 / 11 | 13 / 13 |
| Ordubad Rayon Məhkəməsi | 2 / 2 | 2 / 2 |
| Kəngərli Rayon Məhkəməsi | 8 / 8 | 12 / 12 |
| Şahbuz Rayon Məhkəməsi | - | 1 / 1 |
| Sədərək Rayon Məhkəməsi | - | - |

Naxçıvan Muxtar Respublikasının birinci instansiya məhkəmələrində 2021-ci ilin birinci yarısında 138 nəfərin barəsində 137 inzibati xəta haqqında işə baxılmışdır. Bunlardan 2 nəfərin barəsində 2 iş səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından məhkəməyə verilən şikayət olmuşdur.

2020-ci ilin birinci yarısı ilə müqayisədə 2021-ci ilin birinci yarısında baxılan inzibati xəta haqqında işlərin sayı 59,3%, inzibati xəta törətmiş şəxslərin sayı isə 55,06% artmışdır (2020-ci ilin birinci yarısında 89 nəfərin barəsində 86 inzibati xəta haqqında işə baxılmışdır).

2021-ci ilin birinci yarısında barəsində inzibati tənbeh tətbiq olunan şəxslərdən 94 nəfərə (68,11%) inzibati həbs, 21 nəfərə (15,22%) inzibati cərimə, 2 nəfərə (1,45%) inzibati xəta törətmiş fiziki şəxsin ona verilmiş xüsusi hüququnun məhdudlaşdırılması, 1 nəfərə (0,72%) ictimai işlər növündə inzibati tənbeh tədbirləri tətbiq olunmuş, 18 nəfərin (13,04%) barəsində 18 inzibati xəta haqqında işin icraatına isə xitam verilmişdir.

Səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından məhkəməyə verilən şikayət üzrə 1 qərar dəyişdirilmədən saxlanılmış, 1 qərar isə ləğv edilərək inzibati xəta haqqında iş üzrə icraata xitam verilmişdir.

İnzibati tənbeh tədbirinin tətbiqinə dair qərarın çıxarılması ilə nəticələnən inzibati xətaları növünə görə qruplaşdırdıqda 2020 və 2021-ci illərin birinci yarımilinə dair göstəricilər aşağıdakı cədvəldə təsvir olunduğu kimi olmuşdur:

| **İnzibati xətanın növləri** | **2020-ci ilin birinci yarımili üzrə (şəxslərin və işlərin sayı)** | **2021-ci ilin birinci yarımili üzrə (şəxslərin və işlərin sayı)** |
|---|---|---|
| Sağlamlıq əleyhinə olan inzibati xətalar | 1 nəfər / 1 iş | 12 nəfər / 12 iş |
| Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar inzibati xətalar | 15 nəfər / 15 iş | 5 nəfər / 5 iş |
| Əhalinin sanitariya-gigiyena və sanitariya-epidemioloji salamatlığı qaydaları əleyhinə olan inzibati xətalar | - | 2 nəfər / 2 iş |

| | | |
|---|---|---|
| Mülkiyyət əleyhinə olan inzibati xətalar | 2 nəfər / 2 iş | 9 nəfər / 9 iş |
| Yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalar | 1 nəfər / 1 iş | - |
| Gömrük qaydaları əleyhinə olan inzibati xətalar | - | 3 nəfər / 3 iş |
| İctimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə olan inzibati xətalar | 6 nəfər / 6 iş | 30 nəfər / 30 iş |
| İdarəçilik qaydaları əleyhinə olan inzibati xətalar | 46 nəfər / 44 iş | 38 nəfər / 37 iş |
| Hərbi xidmət əleyhinə olan inzibati xətalar | 1 nəfər / 1 iş | 19 nəfər / 19 iş |
| Digər inzibati xətalar | 9 nəfər / 8 iş | - |
| Siyasi, sosial və əmək hüquqları əleyhinə olan izibati xətalarla bağlı səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından verilən şikayət | - | 1 nəfər / 1 iş |
| Yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalarla bağlı səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından verilən şikayət | - | 1 nəfər / 1 iş |
| Ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalarla bağlı səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından verilən şikayət | 1 nəfər / 1 iş | - |

Göründüyü kimi 2020-ci ilin birinci yarısı ilə müqayisədə 2021-ci ilin birinci yarısında muxtar respublika məhkəmələri tərəfindən baxılan hərbi xidmət əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 19 dəfə, sağlamlıq əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 12 dəfə, mülkiyyət əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 4,5 dəfə, ictimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 5 dəfə artmış, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 66,67%, idarəçilik qaydaları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh

tətbiq edilən şəxslərin sayı 17,39% azalmışdır. Ötən yarımildən fərqli olaraq 2021-ci ilin birinci yarısında yol hərəkəti qaydaları əleyhinə olan və digər inzibati xətalara dair işlər, ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalarla bağlı səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından şikayət daxil olmamış, əhalinin sanitariya-gigiyena və sanitariya-epidemioloji salamatlığı qaydaları əleyhinə və gömrük qaydaları əleyhinə olan inzibati xətalara dair işlər, siyasi, sosial və əmək hüquqları əleyhinə olan izibati xətalarla bağlı və yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalarla bağlı səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından verilən şikayətlər daxil olmuşdur.

Baxılmış inzibati xətalara dair işlər üzrə muxtar respublika məhkəmələrinin 2020 və 2021-ci illərin birinci yarımilinə dair göstəriciləri aşağıdakı cədvəldə təsvir olunduğu kimi olmuşdur:

| **Məhkəmənin adı** | **2020-ci ilin birinci yarımili üzrə (iş və şəxslərin sayı)** | **2021-ci ilin birinci yarımili üzrə (iş və şəxslərin sayı)** |
|---|---|---|
| Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi | 1 / 1 | 22 / 22 |
| Naxçıvan Şəhər Məhkəməsi | 26 / 26 | 50 / 50 |
| Şərur Rayon Məhkəməsi | 25 / 28 | 34 / 34 |
| Babək Rayon Məhkəməsi | 9 / 9 | 12 / 12 |
| Culfa Rayon Məhkəməsi | 9 / 9 | 7 / 8 |
| Ordubad Rayon Məhkəməsi | 3 / 3 | 1 / 1 |
| Kəngərli Rayon Məhkəməsi | 10 / 10 | 4 / 4 |
| Şahbuz Rayon Məhkəməsi | 3 / 3 | 2 / 2 |
| Sədərək Rayon Məhkəməsi | - | 5 / 5 |

2021-ci ilin birinci yarısında muxtar respublikanın birinci instansiya məhkəmələri tərəfindən baxılmış inzibati xətalara dair işlər üzrə çıxarılmış qərarlardan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına apellyasiya şikayəti verilməmişdir.

Beləliklə, muxtar respublikanın birinci instansiya məhkəmələri tərəfindən 2021-ci ilin birinci yarısında inzibati xətalara dair işlər üzrə çıxarılan qərarların sabitlik göstəricisi 100% təşkil etmişdir.

2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında baxılan işlər üzrə çıxarılan

qərarlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına kassasiya şikayəti verilməmişdir.

Beləliklə, 2021-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında qəbul edilən qərarların sabitlik göstəricisi 100% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈



# İNSAN HÜQUQLARI VƏ MƏHKƏMƏ TƏCRÜBƏSİ

## İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icmalı

Bülletenin hər buraxılışında insan hüquq və azadlıqlarına dair məsələlər üzrə Avropa Məhkəməsinin hüquqi mövqeyini əks etdirən qərarların icmalı dərc olunur.

Bu sayımızda da oxucuların tanış olması məqsədilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında" Avropa Konvensiyasının müvafiq maddələrinin pozuntusunun təsdiq edildiyi bir neçə qərarının icmalını təqdim edirik:

***1. Avropa Məhkəməsinin Stanev Bolqarıstana qarşı [Böyük Palata], (ərizə № 36760/06) 17.01.2012-ci il tarixli qərarından***

**Maddə 6**

*Mülki proses*

**6-cı maddənin 1-ci bəndi**

*Məhkəməyə müraciət imkanı*

Hüquq qabiliyyətinin bərpa edilməsini istəyən şəxsin məhkəməyə birbaşa müraciət imkanının olmaması: *pozuntu baş verib*

**Maddə 3**

*Ləyaqəti alçaldan rəftar*

Psixi çatışmazlığı olan şəxslər üçün pansionatda yaşayış şəraiti: *pozuntu baş verib*

**Maddə 5**

**5-ci maddənin 1-ci bəndi**

*Azadlıqdan məhrumetmə*

Qanunla nəzərdə tutulmuş qayda ərizəçinin psixi çatışmazlığı olan şəxslər üçün pansionata yerləşdirilməsi: *pozuntu baş verib*

**5-ci maddənin 4-cü bəndi**

*Məhkəmə prosesinin keçirilməsi*

Psixi çatışmazlığı olan şəxslər üçün pansionata yerləşdirilmənin qanuniliyi məsələsindən şikayət etməkdən ötrü hüquqi müdafiə vasitələrinin olmaması: *pozuntu baş verib*

**Maddə 13**

*Səmərəli hüquqi müdafiə vasitəsi*

Psixi çatışmazlığı olan şəxslər üçün pansionatda pis yaşayış şəraitinə görə kompensasiyaya nail olmaqdan ötrü hüquqi müdafiə vasitələrinin olmaması: *pozuntu baş verib*

**Maddə 46**

**46-cı maddənin 2-ci bəndi**

*Məhkəmə qərarının icrası*

Ümumi xarakterli tədbirlər

Cavabdeh dövlətdən tələb edildi ki, hüquq qabiliyyətinin bərpa edilməsini istəyən şəxslərin məhkəməyə səmərəli şəkildə müraciət imkanını təmin etmək üçün ümumi tədbirlər görsün.

*Faktlar* – 2000-ci ildə ərizəçinin qohumlarından ikisinin ərizəsi əsasında məhkəmə onu qismən hüquq qabiliyyəti olmayan şəxs elan etdi və belə əsas gətirdi ki, o, şizofreniyadan əziyyət çəkir. 2002-ci ildə ərizəçi öz iradəsi əleyhinə qismən qəyyumluğa verildi və ucqar dağlıq ərazidəki kəndin yaxınlığında yerləşən, psixi çatışmazlığı olan şəxslər üçün nəzərdə tutulan pansionata qəbul edildi. 2003-cü və 2004-cü illərdə buraya rəsmi səfərlərindən sonra İşgəncələrin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsi (*CPT*) bu qənaətə gəldi ki, pansionatda saxlanma şəraitini qeyri-insani və ləyaqəti alçaldan rəftara bərabər hesab etmək olar. 2004-cü və 2005-ci illərdə ərizəçi vəkilinin vasitəsilə prokurordan və merdən xahiş etdi ki, qəyyumluqdan azad edilməsi üçün məhkəmədə iş qaldırsınlar, amma vəsatətləri rədd edildi. Eynilə onun qəyyumu da məhkəmədə bu barədə iş qaldırmaqdan imtina edərək hesab etdi ki, pansionat onun yaşayışı üçün ən münasib yerdir, çünki onun müstəqil yaşamaq üçün vəsaiti yoxdur. 2006-cı ildə vəkilinin təşəbbüsü ilə ərizəçi müstəqil psixiatr tərəfindən müayinə olundu və psixiatr bu qənaətə gəldi ki, şizofreniya diaqnozu düzgün deyil, amma ərizəçi spirtli içkilərə meyllidir və ola bilsin ki, bu iki simptom səhv salınıb. Amma onun cəmiyyətə təkrar inteqrasiyası mümkündür və onun pansionatda qalması sağlamlığı üçün olduqca zərərlidir.

*Hüquqi məsələlər* – **5-ci maddənin 1-i bəndi**

a) 5-ci maddənin 1-i bəndinin tətbiqinin mümkünlüyü – Ərizəçinin pansionata yerləşdirilməsi milli hakimiyyət orqanlarının gördüyü tədbir idi, belə ki, müvafiq tədbir ərizəçinin pansionatda yerləşdirilməsi barədə ilkin vəsatətdən sonra və tədbirin həyata keçirilməsi prosesində dövlət

orqanlarının və sosial təsisatların öz vəzifəli şəxsləri vasitəsilə atdığı müxtəlif addımların nəticəsi idi. Ərizəçi elə bir korpusda yerləşdirilmişdi ki, oranı tərk edə bilmirdi, binadan kənarda keçirdiyi vaxtlarda və gedə bildiyi yerlərdə isə həmişə nəzarətə və məhdudiyyətlərə məruz qalırdı. Binanı tərk etmək üçün bu cür icazə sistemi və ərizəçinin şəxsiyyət sənədlərinin müdiriyyətdə saxlanılması onun şəxsi azadlığını əhəmiyyətli dərəcədə məhdudlaşdırırdı. Ərizəçi müəyyən yerlərə səfər etmək imkanına malik olsa da, daimi nəzarət altında olurdu və icazə almadan binanı istədiyi vaxt sərbəst surətdə tərk edə bilməzdi. Hökumət sübut edə bilmədi ki, ərizəçinin sağlamlığı onun özü üçün birbaşa təhlükə yaradır və ya müdafiəsi üçün xüsusi məhdudiyyətlərin tətbiqi tələb olunur.

Ərizəçinin pansionatda qalma müddəti göstərilməmişdi və beləliklə, qeyri-müəyyən idi, çünki bələdiyyənin qeydiyyat kitablarında onun daimi ünvanı kimi pansionat göstərilmişdi. Hazırda ərizəçi orada qalır və səkkiz ildən çoxdur ki, orada yaşayır. Buna görə də o, yəqin ki, ona tətbiq edilən məhdudiyyətlərin mənfi nəticələrini tam hiss edib. Pansionata qoyularkən onun rəyi soruşulmayıb və o, buraya yerləşdirilməsinə heç vaxt birmənalı şəkildə razılıq verməyib. Daxili qanunvericiliyə əsasən ərizəçinin öz istəyi müəyyən dərəcədə əhəmiyyət daşıyırdı və o, öz vəziyyətini kifayət qədər yaxşı dərk edirdi. Ən azı 2004-cü ildən başlayaraq ərizəçi pansionatı tərk etmək istəyini həm psixiatrlara, həm də hüquq qabiliyyətinin bərpa olunması barədə verdiyi ərizələr vasitəsilə dövlət orqanlarına birmənalı şəkildə ifadə etmişdi.

Hökumətin dəlilləri Məhkəməni buna inandırmadı ki, ərizəçi pansionata yerləşdirilməyə razılıq verib və ya susmaq yolu ilə bunu qəbul edib. Məhkəmə qərara aldı ki, ərizəçinin pansionata yerləşdirilməsi barədə qərarın qəbulunda Bolqarıstan dövlət orqanlarının iştirakını, pansionatı icazəsiz tərk etməyə yol verməyən qaydaları, orada saxlanılmanın müddətini və ərizəçinin buna razılıq verməməsini nəzərə alsaq, araşdırılan vəziyyət azadlıqdan məhrumetməyə bərabərdir və 5-ci maddənin 1-ci bəndi bu işə tətbiq edilə bilər.

b) Şikayətin mahiyyəti – Ərizəçinin razılığını almadan onu psixi çatışmazlığı olan şəxslər üçün pansionata yerləşdirmək barədə qərar Bolqarıstan qanunvericiliyinə əsasən etibarsız idi. Bu nəticə özlüyündə Məhkəmənin bu qənaətə gəlməsi üçün yetərli idi ki, ərizəçinin bu cür azadlıqdan məhrum edilməsi 5-ci maddəyə ziddir. İstənilən halda bu tədbir Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndində nəzərdə tutulmuş qanuni

tədbir deyildi, çünki həmin maddədə nəzərdə tutulan istisnaların heç biri, o cümlədən 5-ci maddənin 1-ci bəndinin "e" yarımbəndi ("ruhi xəstələrin" qanuni həbsə alınması) bu hala şamil oluna bilməzdi. Doğrudur, hazırkı işdə məhkəmə prosesinin gedişində ərizəçinin hüquq qabiliyyətinin olmaması barədə təqdim edilmiş tibbi ekspert rəyində onun əziyyət çəkdiyi xəstəliklər qeyd edilmişdi. Lakin dövlət orqanlarının istinad etdiyi ekspert-psixiatrın rəyindən və ərizəçinin pansionata yerləşdirilməsindən iki ildən artıq vaxt keçmişdi və bu müddətdə onun qəyyumu nə onun səhhətində hər hansı dəyişiklik olduğunu yoxlamış, nə də onunla görüşmüş və ya söhbət etmişdi. Bu müddət həddən artıq çox idi və 2000-ci ildə qəbul edilmiş tibbi rəy 2002-ci ildə pansionata yerləşdirildiyi zaman ərizəçinin psixi sağlamlıq durumunu əks etdirən etibarlı sənəd sayıla bilməzdi. Qeyd etmək lazımdır ki, ərizəçi pansionata yerləşdirilən zaman milli hakimiyyət orqanları psixiatr rəyinin verilməsi barədə göstəriş verməkdən ibarət hər hansı hüquqi öhdəlik daşımırdılar. Sonradan tibbi müayinənin aparılmaması bu qənaətə gəlmək üçün yetərlidir ki, ərizəçinin pansionata yerləşdirilməsi qanunsuz olub. Bundan əlavə, ərizəçinin özünə və ya başqalarına qarşı təhlükə yaratdığı sübuta yetirilməyib.

Məhkəmə həmçinin ərizəçinin səhhətindəki problemlərin onun pansionata yerləşdirilməsini zəruri edib-etmədiyinin qiymətləndirilməsində yol verilən qüsurları qeyd etdi. O, psixiatr nəzarəti altında olsa da, bu nəzarət 5-ci maddənin 1-ci bəndinin "e" yarımbəndinin məqsədləri üçün onun pansionatda saxlanılmasının zəruri olub-olmadığını mütəmadi surətdə qiymətləndirmək məqsədi daşımırdı. Əslində daxili qanunvericilikdə bu cür qiymətləndirmənin aparılması üçün heç bir norma yox idi. Ərizəçinin pansionata yerləşdirilməsi barədə qərar "qanunla müəyyən olunmuş qaydada" qəbul edilməmişdi və ona 5-ci maddənin 1-ci bəndinin "e" yarımbəndi ilə və ya "a"-"f" yarımbəndlərinin hər hansı biri ilə haqq qazandırmaq olmazdı.

***Nəticə:* pozuntu baş verib (yekdilliklə).**

**5-ci maddənin 4-cü bəndi:** Hökumət ərizəçinin pansionata yerləşdirilməsinin qanuniliyi məsələsi ilə və bu tədbirin tətbiqinin davam etdirilməsi ilə bağlı ərizəçinin şikayət etməsi üçün birbaşa imkan yaradan hər hansı daxili hüquqi müdafiə vasitəsini göstərmədi. Bolqarıstan məhkəmələri onun pansionata yerləşdirilməsi məsələsinə hər hansı vaxtda və ya hər hansı formada baxmamışdılar və daxili qanunvericilikdə psixi çatışmazlığı olan şəxslərin pansionatda saxlanılmasının zəruriliyi

məsələsinə məhkəmə tərəfindən mütəmadi olaraq yenidən baxılması nəzərdə tutulmayıb. Bundan başqa, ərizəçinin pansionata yerləşdirilməsi Bolqarıstan qanunvericiliyində azadlıqdan məhrumetmə kimi qəbul olunmadığına görə bu cür azadlıqdan məhrumetmə tədbirinin qanuniliyi məsələsindən şikayət etmək üçün hər hansı daxili hüquqi müdafiə vasitələri nəzərdə tutmur. Ərizəçinin razılığının olmamasını əsas gətirməklə pansionata yerləşdirilməyə razılığın etibarlılığı məsələsindən yalnız qəyyumun təşəbbüsü ilə şikayət verilə bilərdi.

***Nəticə:*** **pozuntu baş verib (yekdilliklə).**

**5-ci maddənin 5-ci bəndi:** O da sübuta yetirilmədi ki, Məhkəmə hazırkı iş üzrə qərar çıxarmazdan əvvəl ərizəçi qanunsuz olaraq azadlıqdan məhrum edilməsinə görə kompensasiya tələb etmək hüququna malik idi və ya qərar çıxarıldıqdan sonra bunu etmək imkanına malik idi.

***Nəticə:*** **pozuntu baş verib (yekdilliklə).**

**Maddə 3:** 3-cü maddə istər cinayət prosesi kontekstində həbsə alınma, istərsə də müvafiq şəxsin həyatını və ya sağlamlığını qorumaq məqsədi ilə onu qapalı müəssisəyə yerləşdirmə zamanı dövlət orqanlarının himayəsində olan hər hansı şəxsə qarşı qeyri-insani və ləyaqəti alçaldan rəftarı qadağan edir. Pansionatda qida yetərincə verilmirdi və onun keyfiyyəti aşağı idi. Bina yetərincə qızdırılmırdı və qışda ərizəçi palto ilə yatmalı olurdu. O, həftədə bir dəfə qeyri-gigiyenik və yarıuçuq vanna otağında duş qəbul etməli olurdu. *CPT*-nin rəyinə əsasən, tualetlər bərbad vəziyyətdə idi və tualetə getmək təhlükəli idi. Nəhayət, paltarlar yuyulduqdan sonra pansionat onları eyni adamlara qaytarmırdı ki, bu da sakinlərdə, yəqin ki, alçalma hissi yaradırdı. Ərizəçi uzun müddət, təxminən yeddi il ərzində (2002-ci ildən 2009-cu ilədək, yəni onun yaşadığı bina təmir olunanadək) yuxarıda qeyd edilən şəraitə bütünlüklə məruz qalmışdı. *CPT* binaya baş çəkdikdən sonra bu qənaətə gəldi ki, həmin vaxt oradakı yaşayış şəraiti qeyri-insani və ləyaqəti alçaldan rəftara bərabər sayıla bilər. Bu rəydən xəbərdar olduğuna baxmayaraq, Bolqarıstan Hökuməti həmin pansionatı bağlamaq barədə götürdüyü öhdəliyi yerinə yetirmək üçün 2002-2009-cu illərdə heç bir tədbir görməmişdi. Hökumətin maliyyə ehtiyatlarının olmamasına istinad etməsi ərizəçinin yuxarıda təsvir edilən şəraitdə saxlanılmasına haqq qazandırmaq üçün münasib arqument deyildi.

***Nəticə:*** **pozuntu baş verib (yekdilliklə).**

**3-cü maddə ilə birgə götürülməklə 13-cü maddənin pozulub-pozuılmaması:** Ərizəçinin pansionatda saxlanılması daxili qanunvericiliyə əsasən azadlıqdan məhrumetmə sayılmırdı. Buna görə də o, "Ziyana görə dövlətin məsuliyyəti haqqında" 1988-ci il tarixli Qanuna əsasən oradakı pis yaşayış şəraitinə görə kompensasiya almaq hüququna malik deyildi. Üstəlik həmin Qanunun pansionatlarda pis yaşayış şəraiti barədə iddialara tətbiq edildiyini göstərən heç bir məhkəmə presedenti aşkar edilmədi. Hətta fərz etsək ki, ərizəçi öz hüquq qabiliyyətini bərpa edə və pansionatı tərk edə bilərdi, bu cür ləyaqəti alçaldan şəraitdə saxlanıldığına görə ona heç bir kompensasiya təyin olunmayacaqdı.

***Nəticə:* pozuntu baş verib (yekdilliklə).**

**6-cı maddənin 1-ci bəndi:** Ərizəçi hüquq qabiliyyətinin bərpası üçün özü müraciət etmək imkanına malik deyildi, o bunu ya qəyyumu vasitəsilə, ya da Mülki Prosessual Məcəllənin 277-ci maddəsində sadalanan şəxslərdən birinin vasitəsilə edə bilərdi. Daxili qanunvericilikdə hüquq qabiliyyətindən tam və qismən məhrum edilən şəxslər arasında fərq qoyulmurdu və şəxsin qəyyumluğa verilməsi üçün əsas olmuş səbəblərin hələ də qüvvədə qalıb-qalmadığının avtomatik olaraq mütəmadi qaydada yoxlanılması nəzərdə tutulmurdu. Üstəlik ərizəçinin işində sözügedən tədbir hər hansı müddətlə məhdudlaşdırılmamışdı. Məhkəmələrə müraciət hüququ mütləq hüquq olmasa da və şəxsin prosessual hüquqlarının məhdudlaşdırılmasına haqq qazandırmaq mümkün olsa da, hətta şəxs hüquq qabiliyyətindən qismən məhrum edildikdə belə onun hüquq qabiliyyətinin olmadığı barədə rəyin yoxlanılması üçün məhkəməyə müraciət etmək hüququ müvafiq şəxsin ən mühüm hüquqlarından biridir. Buradan belə nəticə çıxır ki, müvafiq şəxslər bu məsələ ilə bağlı prinsipcə məhkəmələrə birbaşa müraciət etmək hüququna malikdirlər. Bununla belə, dövlət bu cür birbaşa müraciətin həyata keçirilməsi qaydasını müəyyənləşdirməkdə sərbəstdir. Eyni zamanda, milli qanunvericilikdə bu məsələ ilə bağlı məhkəmələrə müraciət hüququna müəyyən məhdudiyyətlərin qoyulması 6-cı maddənin 1-ci bəndinə zidd deyil, bu şərtlə ki, məhdudiyyətlərin yeganə məqsədi həddən artıq miqdarda və açıq-aydın əsassız şikayətlərlə məhkəmələrin yüklənməməsini təmin etmək olsun. Lakin o da aydındır ki, bu problemi birbaşa müraciət imkanını rədd etməklə deyil, daha az məhdudlaşdırıcı vasitələrlə, məsələn şikayətlərin verilməsinin mütəmadilik müddətini məhdudlaşdırmaqla və ya şikayətin qəbuledilən olub-olmadığını işin

materialları əsasında öncədən müəyyənləşdirməyə imkan verən sistem tətbiq etməklə həll etmək olardı.

Bundan əlavə, hazırda Avropa səviyyəsində hüquq qabiliyyəti olmayan şəxslərə bu hüququn bərpası üçün məhkəməyə birbaşa müraciət etmək hüququ vermək tendensiyası mövcuddur. Psixi çatışmazlığı olan şəxslərin müdafiəsinə dair beynəlxalq sənədlərdə də onlara mümkün qədər çox hüquqi sərbəstliyin verilməsinin vacibliyi getdikcə daha çox vurğulanır. 6-cı maddənin 1-ci bəndi prinsipcə ərizəçinin işində olduğu kimi qismən hüquq qabiliyyəti olmayan elan edilmiş hər kəsə hüquq qabiliyyətinin bərpası üçün məhkəməyə birbaşa müraciət etmək hüququ verilməsini təmin edən müddəa kimi şərh olunmalıdır. Bu cür birbaşa müraciət Bolqarıstan qanunvericiliyinin müvafiq müddəalarında kifayət qədər aydın şəkildə təmin edilməyib.

***Nəticə:* pozuntu baş verib (yekdilliklə).**

**Maddə 46:** Ərizəçinin hüquqlarının pozulmasının doğurduğu nəticələri düzəltmək üçün dövlət orqanları onun pansionatda qalmaq istəyib-istəmədiyini aydınlaşdırmalı idilər. Əgər ərizəçinin pansionata yerləşdirilməsinə özünün razılıq verdiyi müəyyən edilibsə, bu qərardakı heç bir mülahizə onun sözügedən pansionatda və ya psixi çatışmazlığı olan şəxslər üçün nəzərdə tutulan digər müəssisələrdə saxlanılmaqda davam etməsinə yol verməyən mülahizə kimi qəbul edilməməlidir. Lakin ərizəçi pansionata yerləşdirilməsinə etiraz edibsə, dövlət orqanları bu qərarı nəzərə alaraq yubanmadan onun vəziyyətini yenidən araşdırmalı idilər. Qismən fəaliyyət qabiliyyətindən məhrum edilən və fəaliyyət qabiliyyətinin bərpa olunmasını istəyən şəxsin məhkəməyə birbaşa müraciət imkanına malik olmaması ilə bağlı 6-cı maddənin 1-ci bəndinin pozulduğu barədə yuxarıda gəldiyi nəticəni nəzərə alaraq, Məhkəmə tövsiyə etdi ki, cavabdeh dövlət məhkəməyə real surətdə birbaşa müraciət imkanının təmin olunmasından ötrü zəruri olan ümumi tədbirləri görsün.

**Maddə 41:** Mənəvi ziyana görə 15.000 avro təyin edildi.

≈≈≈

**2.** ***Avropa Məhkəməsinin Belane Nad (**Béláné Nagy**) Macarıstana qarşı [BP] – (ərizə № 53080/13) 13 dekabr 2016-cı il tarixli qərarından***

**1 saylı Protokolun 1-ci maddəsi**

1 saylı Protokolun 1-ci maddəsinin birinci bəndi

*Mülkiyyətdən maneəsiz istifadə hüququ*

Yeni tətbiq edilən əlillik meyarları səbəbindən əlillik müavinətlərindən məhrum olma: *pozuntu baş verib*

*Faktlar* – 2001-ci ildə ərizəçiyə əlillik pensiyası təyin edildi, 2010-cu ildə onun əlillik dərəcəsi fərqli metodologiyadan istifadə edilməklə yenidən qiymətləndirilərək aşağı endirildikdən sonra həmin pensiya ləğv edildi. O, sonrakı illərdə növbəti müayinələrdən keçdi və son nəticədə durumu əlillik meyarlarına uyğun hesab edildi. Lakin 2012-ci ildə qüvvəyə minmiş yeni qanunvericiliyə əsasən sosial sığorta haqlarının ödənilməsinin müddəti ilə əlaqədar olan əlavə əlillik meyarları tətbiq edildi, ərizəçinin durumu həmin meyarlara cavab vermirdi. Əlavə meyarlar tətbiq edilməsəydi, o, yeni sistemə əsasən əlillik müavinəti almaq hüququ əldə edəcəkdi, amma nəticədə onun müavinət üçün müraciətləri rədd edildi. Ərizəçi şikayət etdi ki, səhhətində heç bir yaxşılaşma olmadığına baxmayaraq, dövlət orqanları tərəfindən ədalət prinsipinə riayət edilmədən qanunvericilik dəyişikliyinin tətbiq edilməsi nəticəsində yaşayışını təmin edən yeganə vəsait olan əlillik müavinətindən məhrum olub.

10 fevral 2015-ci il tarixli qərarında Məhkəmənin Palatası üç səsə qarşı dörd səslə müəyyən etdi ki, 1 saylı Protokolun 1-ci maddəsinin pozuntusu baş verib. Konkret olaraq o bu qənaətə gəldi ki, əlillik müavinətləri almasının şərtlərinin kəskin və gözlənilməz şəkildə dəyişilməsi səbəbindən ərizəçi əlilliyə görə himayə imkanından tamamilə məhrum olub. Hökumətin vəsatəti əsasında 1 iyun 2015-ci ildə iş Böyük Palatanın icraatına verildi.

*Hüquqi məsələlər* – 1 saylı Protokolun 1-ci maddəsi

a) *1 saylı Protokolun 1-ci maddəsinin bu işə tətbiqinin mümkünlüyü məsələsi* – 1 saylı Protokolun 1-ci maddəsi ilə təmin edilən müdafiə müəyyən hallarda əmlakın əldə ediləcəyi ilə bağlı qanuni gözləntiyə də şamil olunur. Bunun üçün qanuni gözlənti sadəcə ümiddən ibarət olmayaraq konkret xarakter daşımalı və qanunvericilik normasına və ya hüquqi akta, məsələn, məhkəmə qərarına əsaslanmalıdır. Eyni zamanda, daxili

qanunvericiliyə əsasən tanınan mülkiyyət marağı (baxmayaraq ki, müəyyən hallarda hüquqi qüvvəsini itirə bilər) əmlak təşkil edə bilər.

Sosial təminat qanunvericiliyində dəyişikliklər cəmiyyətdə baş verən dəyişikliklərə və sosial yardıma ehtiyacı olan insanların müvafiq kateqoriyaları ilə bağlı baxışların təkamülünə reaksiya olaraq qəbul edilə bilər. Hər hansı konkret formada müavinət və ya pensiya təyin edilməsinin ölkədaxili hüquqi şərtləri dəyişdikdə və həmin şərtlərin dəyişməsi səbəbindən maraqlı şəxs müvafiq meyarlara daha cavab vermədikdə, milli qanunvericilikdə kifayət qədər dəqiq müəyyən edilmiş substantiv mülkiyyət marağının konkret halda mövcud olub-olmadığını yoxlamaq üçün işin fərdi hallarının (xüsusən tələblərin dəyişməsinin xarakterinin) diqqətlə araşdırılması tələb oluna bilər.

Ərizəçi on ilə yaxın müddət ərzində əlillik pensiyası almaq hüququ verən bütün şərtlərə cavab verirdi. Beləliklə, müvafiq qanunvericilik aktının müddəaları əsasında qəbul edilən və onun ilkin hüququnun yaranması üçün əsas təşkil edən əlillik pensiyasının təyin edilməsi barədə qərara bu işdə mövcud mülkiyyət kimi baxmaq olar. Bütün bu müddət ərzində o, əlillik dərəcəsi tələb olunan səviyyədə qalacağı təqdirdə həmin akt əsasında əlillik müavinətlərini davamlı olaraq alacağına ümid edə bilərdi və bu gözlənti qanuni gözlənti idi.

Cavablandırılmalı sual ondan ibarət idi ki, 2012-ci ildə yeni qanunvericilik qüvvəyə mindiyi zaman ərizəçinin əlillik müavinəti almaq gözləntisi əvvəlkitək qanuni gözlənti idimi? Qanunvericilikdəki dəyişikliyə əsasən sığorta haqları ödəmiş şəxslərin müəyyən kateqoriyalarına, o cümlədən ərizəçiyə faktiki olaraq elə bir şərt tətbiq edilmişdi ki, onun tətbiq ediləcəyini sığorta haqlarının ödənildiyi müvafiq dövrdə öncədən görmək mümkün deyildi və yeni qanunvericilik qüvvəyə mindikdən sonra həmin şəxslər bu şərtin meyarlarına cavab verə bilməzdilər. 2010-cu ildə ərizəçiyə əlillik pensiyasının verilməsinin dayandırıldığı dövrdən 2012-ci ildə sığorta haqlarının ödənişi barədə yeni tələbin qanunverici orqan tərəfindən qəbul edildiyi dövrə qədər ərizəçi nəinki sosial təminat sisteminin tərkibində qalırdı, həm də əlillik müavinəti almaq üçün qoyulan müvafiq iş stajı tələblərinə cavab verirdi. Beləliklə, baxmayaraq ki, bu dövrdə o əlillik pensiyası almırdı, 1 saylı Protokolun 1-ci maddəsində nəzərdə tutulmuş "mülkiyyət" anlayışının şamil olunduğu qanuni gözləntiyə hələ də malik idi. Ərizəçinin sözügedən sosial təminat sistemindən faydalanmaq hüququ pozulmuşdu və bu pozuntu onun pensiya hüquqlarına xələl gətirilməsi ilə

nəticələnmişdi. Beləliklə, 1 saylı Protokolun 1-ci maddəsi bu işə tətbiq edilə bilər.

b) *Müdaxilənin 1 saylı Protokolun 1-ci maddəsinə uyğunluğu məsələsi* – Məhkəmə razılaşdı ki, müdaxilə qanunilik tələbinə cavab verir və əlilliyə görə sosial müavinətlərin təyin edilməsi sistemini rasionallaşdırmaq yolu ilə dövlət vəsaitlərinin qorunmasından ibarət ictimai maraqlara xidmət edirdi. 1 saylı Protokolun 1-ci maddəsinin tələbinə görə istənilən müdaxilə qarşıya qoyulan məqsədə ağlabatan dərəcədə mütənasib olmalıdır. Şəxsin üzərinə fərdi və həddən artıq ağır yük qoyulursa, tələb olunan ədalətli balans təmin edilməmiş olur. Ərizəçinin müavinətləri mütənasib miqdarda azaldılmamışdı, o, müavinətləri almaq hüququndan tamamilə məhrum edilmişdi. Onun yaşayışını təmin edə biləcək hər hansı digər əhəmiyyətli gəliri yox idi, o, qazanc gətirən iş tapmaqda çətinlik çəkirdi və əlil şəxslər qrupuna mənsub idi.

Mübahisələndirilən tədbir əlilliyə görə sosial müavinətlərin təyin edilməsi sistemini yenidən qurmaq və rasionallaşdırmaq yolu ilə dövlət vəsaitlərinin qorunmasından ibarət ictimai maraqlara xidmət etsə də, ziddiyyətə girən maraqlar arasında ədalətli balansı təmin etməyən qanunvericilik aktına əsaslanırdı. Qüvvəsi geriyə şamil oluna bilən, konkret situasiyaya uyğun keçid tədbirlərini nəzərdə tutmayan və ərizəçini əlillik müavinətləri alacağı ilə bağlı qanuni gözləntisindən məhrum edən qanunvericiliyin qəbuluna yuxarıda qeyd edilən ictimai maraq mülahizələri ilə haqq qazandırmaq olmazdı. Ərizəçinin hüquqlarına bu cür fundamental müdaxilə ziddiyyətə girən maraqlar arasında ədalətli balansın gözlənilməsi tələbinə zidd idi. Qarşıya qoyulan məqsəd ilə istifadə edilən vasitələr arasında ağlabatan mütənasiblik əlaqəsi yox idi. Bu sahədə dövlətin geniş qiymətləndirmə sərbəstliyinə malik olduğuna baxmayaraq, ərizəçinin üzərinə həddən artıq fərdi yük qoyulmuşdu.

***Nəticə: pozuntu baş verib (səkkiz səsə qarşı doqquz səslə).***

Maddə 41: Mənəvi ziyana görə 5.000 avro; maddi ziyana görə isə 10.000 avro təyin edildi.

≈≈≈

3. ***Avropa Məhkəməsinin Vukota-Boyiç*** (***Vukota-Bojić***) ***İsveçrəyə qarşı – (ərizə № 61838/10) 18 oktyabr 2016-cı il tarixli qərarından [III Bölmə]***

**Maddə 8**

**8-ci maddənin 1-ci bəndi**

**Şəxsi həyata hörmət hüququ**

Sosial sığorta işi üzrə iddiaçının hərəkətlərinin özəl xəfiyyələr tərəfindən qanunsuz olaraq müşahidə altında saxlanması: *pozuntu baş verib*

*Faktlar* – Ərizəçi yol-nəqliyyat qəzasında xəsarət almışdı. Qəza onun sığorta şirkəti ilə müxtəlif mübahisələrinə və uzunmüddətli məhkəmə araşdırmalarına səbəb olmuşdu. Həmin araşdırmalar onun əmək qabiliyyətinin səviyyəsi ilə qəza arasında əlaqənin və ona düşən müavinətin məbləğinin müəyyənləşdirilməsi ilə bağlı idi. Ərizəçi bir neçə tibbi ekspertizadan keçmiş və əlavə tibbi ekspertizadan keçməkdən imtina etdikdən sonra sığorta şirkəti dövlət sığorta sistemi çərçivəsində ona verilmiş səlahiyyətlərdən istifadə edərək ərizəçini müşahidə altında saxlamağı qərara almışdı. Sığorta şirkəti tərəfindən cəlb olunan özəl xəfiyyələr 23 gün müddətində ayrı-ayrı dörd müxtəlif tarixdə onun hərəkətlərinin müşahidəsini aparmışdılar. Sığorta şirkəti ərizəçinin iddia etdiyi əmək qabiliyyəti səviyyəsini və onun istinad etdiyi tibbi rəyləri şübhə altına almaq üçün məhkəmə prosesində müşahidənin ətraflı hesabatlarına istinad etmək niyyətində idi. Ərizəçi şikayət etdi ki, onun gündəlik fəaliyyətlərinin sığorta şirkəti tərəfindən təşkil edilmiş gizli müşahidəsi onun Konvensiyanın 8-ci maddəsində nəzərdə tutulmuş hüquqlarını pozub. Konkret olaraq o, hərəkətlərinin müşahidəsini aparmaq üçün əsas təşkil etmiş daxili qanunvericilik normalarının kifayət qədər aydın və dəqiq olmadığını iddia etdi.

*Hüquqi məsələlər* – Maddə 8: Barəsində şikayət edilən müşahidə tədbiri özəl sığorta şirkəti tərəfindən tətbiq edilmişdi. Lakin məcburi tibbi sığortadan irəli gələn müavinətləri ödəmək və sığorta mükafatlarını toplamaq hüququ həmin şirkətə dövlət tərəfindən vermişdi. Dövlət öz öhdəliklərinin icrasını özəl qurumlara və ya fərdlərə həvalə etməklə Konvensiya əsasında daşıdığı məsuliyyətdən özünü kənarlaşdıra bilməz. Sığorta şirkətinin dövlət sığorta sistemini idarə etdiyini və ölkədaxili hüquq sistemində publik qurum hesab edildiyini nəzərə alsaq, ona dövlət orqanı

kimi baxmaq və etdiyi hərəkətlərə görə dövlətin məsuliyyət daşıdığını hesab etmək olar.

Ərizəçinin şəxsi həyatına hörmət hüququna müdaxilənin olub-olmadığına gəlincə, Məhkəmə qeyd etdi ki, onu sığortalamış sığorta şirkətinin tapşırıqları əsasında hərəkət edən peşəkarlar 23 gün müddətində ayrı-ayrı dörd müxtəlif tarixdə onu sistematik və məqsədyönlü şəkildə müşahidə etmiş və hərəkətlərinin videoçəkilişini aparmışdılar. Əldə edilmiş materiallar toplanmış və seçilmişdi, çəkilmiş videogörüntülər ekspert rəyi üçün əsas qismində istifadə edilmiş və son nəticədə onun sığorta müavinətlərinin yenidən hesablanması üçün əsas təşkil etmişdi. Məhkəmə əmindir ki, videoçəkilişlərin mütəmadi xarakter daşıması və sonradan sığorta mübahisəsi üzrə işdə istifadə edilməsi ərizəçinin fərdi məlumatlarının emalı və toplanması hesab edilə bilər ki, bu da onun şəxsi həyatına müdaxilə təşkil edir.

Məhkəmənin qarşısındakı sual ondan ibarət idi ki, ərizəçinin hərəkətlərinin müşahidəsi barədə qərar çıxarılması üçün hüquqi əsas təşkil etmiş daxili qanunvericilik normaları müdaxilənin "qanunla nəzərdə tutulmuş" hesab edilməsi üçün yetərincə aydın və ətraflı idimi? Məhkəmə bununla bağlı qeyd etdi ki, müvafiq daxili qanunvericilik normalarının sığorta şirkətləri tərəfindən həyata keçirilən araşdırma tədbirləri çərçivəsində fotoların və ya videogörüntülərin əldə edilməsini birbaşa və ya dolayısı ilə nəzərdə tutduğu təəssüratı yaranmasa da, İsveçrə Federal Məhkəməsi bu qənaətə gəlmişdi ki, həmin müddəalar ərizəçinin işindəkinə bənzər hallarda aparılan gizli müşahidə tədbirlərini əhatə edir. Daxili qanunvericilikdə sui-istifadə hallarına qarşı adekvat və səmərəli təminatların olub-olmadığını araşdırarkən Məhkəmə qeyd etdi ki, konkret sığorta mübahisələri kontekstində məxfi müşahidə tədbirlərinə icazə verilməsi və onlara nəzarət edilməsi üçün həmin qanunvericilikdə heç bir prosedur nəzərdə tutulmamışdı. Bundan əlavə, müvafiq qanunvericilik normalarında məxfi müşahidə tədbirləri vasitəsilə əldə edilmiş məlumatların saxlanması, qiymətləndirilməsi, yoxlanması, istifadəsi, ötürülməsi və ya məhv edilməsi prosedurları barədə heç nə deyilmirdi. Beləliklə, ərizəçinin vudeogörüntülərinin və fotoşəkillərinin yer aldığı hesabatın nə qədər müddətə saxlanılacağı, kimlər üçün əlçatan olacağı və ərizəçinin həmin hesabatın istifadəsinə etiraz etmək üçün hər hansı hüquqi vasitələrə malik olub-olmadığı aydın deyildi. Məhkəmə qəbul etdi ki, bu işdəki müşahidə, məsələn, telefon danışıqlarının dinlənilməsi ilə müqayisədə şəxsi həyata

daha az müdaxilə hesab edilməlidir; amma bununla belə, bu cür müşahidə zamanı 8-ci maddədə nəzərdə tutulmuş hüquqlara özbaşına müdaxilələrə qarşı adekvat müdafiəni nəzərdə tutan ümumi prinsiplərə riayət edilməlidir.

Bu səbəblərə görə (və ərizəçinin 8-ci maddədə nəzərdə tutulmuş hüquqlarına müdaxilənin dərəcəsinin çox az olduğuna baxmayaraq), Məhkəmə hesab etmədi ki, publik orqan qismində hərəkət edən sığorta şirkətlərinə sığorta mübahisələri zamanı sığorta olunmuş şəxslərin məxfi müşahidəsini aparmaq üçün verilmiş diskresion səlahiyyətlərin hüdudları və tətbiqi qaydası daxili qanunvericilikdə kifayət qədər aydın şəkildə müəyyən edilib. Konkret olaraq həmin qanunvericilikdə sui-istifadə hallarına qarşı təminatlar yer almamışdı. Beləliklə, ərizəçinin 8-ci maddədə nəzərdə tutulmuş hüquqlarına müdaxilə qanunla nəzərdə tutulmamışdı.

***Nəticə*: pozuntu baş verib (bir səsə qarşı altı səslə).**

Məhkəmə yekdilliklə qərara aldı ki, məxfi qaydada görüntüyə alınmış materialların ərizəçinin işi üzrə məhkəmə prosesində istifadəsi Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi ilə təmin edilən məhkəmə araşdırmasının ədalətliliyi tələblərinə zidd deyildi.

Maddə 41: mənəvi ziyana görə 8.000 avro təyin edildi.

*Mənbə: Avropa Məhkəməsinin Hudoc məlumat bazasının rəsmi internet səhifəsinin (http://hudoc.echr.coe.int/) materialları əsasında hazırlanmışdır.*



# NƏZƏRİYYƏ VƏ HÜQUQTƏTBİQETMƏ PROBLEMLƏRİ

**Quliyev Vüqar Kərim oğlu**
*Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi*

## *İştirakçılıq və icraçının ekstsessi: nəzəri və praktiki baxış*

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin *(bundan sonra - AR CM)* 31-ci maddəsinə əsasən iki və ya daha çox şəxsin qəsdən cinayət törətməkdə qəsdən birgə iştirakı iştirakçılıq sayılır.

İştirakçılığın növlərini və mahiyyətini nəzərdə tutan AR CM-in 32-ci maddəsinin məzmunu aşağıdakı kimidir:

*32.1. Cinayətin icraçısı ilə birlikdə, təşkilatçısı, təhrikçisi və köməkçisi cinayətin iştirakçıları sayılırlar.*

*32.2. Cinayəti bilavasitə törətmiş və ya başqa şəxslərlə birlikdə onun törədilməsində bilavasitə iştirak etmiş şəxs (birgə icraçılıq), eləcə də bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda cinayət məsuliyyətinə cəlb edilə bilməyən şəxslərdən istifadə etməklə cinayəti törətmiş şəxs icraçı sayılır.*

*32.3. Cinayətin törədilməsini təşkil etmiş və ya həmin cinayətin törədilməsinə rəhbərlik etmiş, eləcə də mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) yaratmış və ya bunlara rəhbərlik etmiş şəxs cinayətin təşkilatçısı sayılır.*

*32.4. Ələ alma, sövdələşmə, hədə-qorxu gəlmə və ya digər üsullarla başqa şəxsi cinayət törətməyə sövq edən şəxs təhrikçi sayılır.*

*32.5. Cinayətin törədilməsinə məsləhətləri, göstərişləri və məlumatları ilə, cinayət törədilməsi üçün alət və ya vasitələr vermək və ya maneələri aradan qaldırmaqla yardım etmiş şəxs, habelə cinayət törətmiş şəxsi, cinayət alətlərini və ya vasitələrini, cinayətin izlərini, yaxud cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı gizlətməyi, belə pul vəsaitlərini və ya digər əmlakı əldə etməyi, onlara sahiblik və ya onlardan istifadə etməyi, yaxud sərəncam verməyi qabaqcadan vəd etmiş şəxs köməkçi sayılır.*

Cinayətin iştirakçılarının şərti olaraq yuxarıda qeyd olunduğu qaydada bölgüsü və hər bir iştirakçının konkret hansı hərəkətlərlə müəyyən edilməsi

qanunda birbaşa göstərildiyindən iştirakçıların kimliyi ilə bağlı asan təsəvvür yaratmaq mümkündür.

Cinayətin iştirakçılarının əməlləri AR CM-in 32-ci maddəsi və cinayətin icraçısının törətdiyi cinayət əməlini əhatə edən xüsusi norma ilə tövsif olunmaqla iştirakçının məhz hansı qisimdə (təşkilatçı, təhrikçi və köməkçi) cinayət məsuliyyətinə cəlb olunması məsələsini həll edir.

Cinayətin iştirakçılarını birləşdirən ümumi cəhət onların cinayətin obyektiv cəhətini təşkil edən hərəkətlərə yol verməmələridir. Yəni onları cinayətin icraçısının əməlinə münasibətdə "aksessorluq" fəaliyyəti birləşdirir.

Ümumi məqsədə xidmət etdiklərinə görə iştirakçılar tərəfindən qəsdən edilən hərəkətlər və ya hərəkətsizliklər onların "rollar"ına uyğun dəqiq sərhədlər çərçivəsində müşahidə olunmur. Daha dəqiq desək cinayətin iştirakçıları biri digərinə xas davranış elementləri nümayiş etdirir ki, bu da iştirakçılığın növünün müəyyən edilməsində mülahizələrə yol açır.

Cinayətin iştirakçılarından, xüsusilə təhrikçinin əməlləri digər iştirakçılar arasında "paylanır" və bir çox hallarda intellektual köməkçiliklə oxşarlıq təşkil edir. Aydındır ki, təhrikçinin əməli cinayətin icraçısında cinayət əməlini törətməsi üçün inam və əminlik yaratmaqla bitir. Lakin təcrübədə təhrikçinin öz fəaliyyətini köməkçiyə aid əməllərlə davam etdirdiyinə də rast gəlinir. Eyni zamanda təşkilatçının əməllərində təhrikçilik və ya köməkçilik elementlərinin olması istisna deyil. Belə ki, cinayətin təşkilatçısı cinayətin iştirakçılarını taparkən və onlar arasında vəzifə bölgüsü apararkən təhrikçilik funksiyasını da öz üzərinə götürür. Yaxud da iştirakçılar arasında əlaqələndirmə aparılması fonunda maneələri aradan qaldırmaqla təşkilatçı həm də köməkçilik etmiş olur. Bu halların baş verməsinin əsas səbəbi ondan ibarətdir ki, faktiki iştirakçılıq cinayət qanununda göstərilən bölgüyə tabe deyil. Yəni cinayətin iştirakçısı sərhəd tanımır, özünü konkret rolda görmür və aparmır.

Təhrikçiliklə bağlı onu da qeyd etmək lazımdır ki, təhrikçi birmənalı olmasa da digər iştirakçılara nisbətən müstəqil şəxsdir. Yəni təhrikçinin seçilməsi və ya təhrikçinin üzərinə təhrikçilik vəzifəsinin həvalə edilməsi ağlabatan deyil. Çünki təhrikçi müstəqil motivləri olan (qısqanclıq, paxıllıq və s.) iştirakçıdır. Təhrikçi təşkilatçı tərəfindən vəzifə bölgüsü zamanı ortaya çıxan şəxs deyil. Təhrikçi başqa şəxs tərəfindən "təhrik" olunmur. Təhrikçi özü təşkilatçı kimi hadisələrə start verən şəxsdir.

Bununla bağlı fikrimizə aydınlıq gətirək. Belə ki, Azərbaycan Respublikası Ali Məhkəməsinin "Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" 3 mart 2005-ci il tarixli, 1 saylı Plenum Qərarının 15-ci bəndində qeyd olunur ki, digər şəxsi və ya bir qrup şəxsi konkret cinayət törətmək üçün mütəşəkkil dəstə yaratmağa sövq edən şəxs dəstə iştirakçılarının müəyyən edilib seçilməsində, cinayətin (cinayətlərin) həyata keçirilməsində bilavasitə iştirak etməmişsə, onun hərəkətləri CM-in 32.4-cü maddəsinə istinad edilməklə, mütəşəkkil dəstənin törətdiyi cinayətlərdə iştirakçı kimi tövsif edilməlidir.

İştirakçılığın cinayət qanunvericiliyində təsbiti keçmiş sovet respublikalarında təxminən eyni olsa da digər ölkələrin qanunvericiliyinə nəzər saldıqda iştirakçılığın mahiyyəti və formaları ilə bağlı fərqli ifadə tərzi müşahidə edilir.

**Türk Cəza Qanununun** 37-ci maddəsində iştirakçılığa anlayış daha sadə şəkildə aşağıdakı məzmunda verilmişdir:

*"Cinayətin qanunda göstərilən təsvirində qeyd olunan əməli birlikdə həyata keçirən şəxslərdən hər biri cinayətkar olaraq məsuliyyət daşıyır."*

Türk Cəza Qanununda da iştirakçılığın agentlik, təhrikçilik və köməkçilik formalarının adları çəkilir.

Başqa bir şəxsin əməlində iştirak formaları **Almaniya Federativ Respublikasının Cinayət Məcəlləsində** də nəzərdə tutulmuşdur. *Belə ki, AFR Cinayət Məcəlləsi başqa bir şəxsin əməlində iştirakın iki formasını ayırır: təhrikçilik (§26 Almaniya Federativ Respublikası Cinayət Məcəlləsi) və köməkçilik (§27 Almaniya Federativ Respublikası Cinayət Məcəlləsi). İştirakçlıq aksesuarlığı ilə seçilir, yəni başqa bir şəxsin qəsdən və qeyri - qanuni hərəkəti ("əsas hərəkət") ilə şərtləndirilir. Bununla birlikdə, bəzi mülahizələr iştirakın əsas aktdan (hərəkətdən) asılılığını məhdudlaşdırır ("məhdud aksesuarlıq"). Belə ki, iştirakçının niyyəti əsas hərəkəti əhatə etməlidir. Beləliklə, iştirakçı, təhrikçinin və ya köməkçinin xəbəri olmadan icraçının həyata keçirdiyi hərəkətin hallarına görə məsuliyyət daşımır (ekstsess). Aksesuarlıqla bağlı əlavə məhdudiyyətlər Almaniya Federativ Respublikasının Cinayət Məcəlləsinin §28-§29-da göstərilir. Almaniya Cinayət Məcəlləsinin §26-da qeyd olunanlara uyğun olaraq təhrik, başqa bir şəxsi qəsdən qanunsuz hərəkətə sövq etdirməkdir. Təhrikçi sövq etdirdiyi şəxslə açıq təmasda olmalı və əməlin törədilməsinə əminlik yaratmalıdır ("omnimodo facturis"). Yardım başqasının əsas hərəkətinə kömək etməkdir (§26 AFR CM). Əsas aktın icraçısının mövqeyini möhkəmləndirməkdən*

*ibarət olan hər hansı bir kömək kifayətdir. Kömək fiziki olaraq (hərəkətlə) və ya zehni olaraq, məsələn, texniki məsləhət vermək və ya bir hərəkət etmək qərarını gücləndirməklə təmin edilə bilər. İştirakçının niyyəti yalnız öz hərəkətini (yardım göstərmək) deyil, həm də əsas hərəkətin tamamlanmasını əhatə etməlidir( § 27 AFR CM).*

İştirakçılıqla bağlı AFR CM-də olan anlayış və təfərrüat Fransa cinayət qanunvericiliyi ilə oxşarlıq təşkil edir.

**Fransa Cinayət və Cinayət Prosessual Məcəlləsinin** 121-7-ci maddəsində iştirakçılığın anlayışı aşağıdakı kimi göstərilmişdir:

*Cinayətin və ya qanun pozuntusunun hazırlanmasına və ya icra olunmasına kömək və ya dəstək göstərən şəxs iştirakçı sayılır.*

*İştirakçı, həm də hədiyyə etməklə, vəd verməklə, təhdid etməklə, səlahiyyət və ya hakimiyyətdən sui istifadə etməklə cinayətə təhrik etmiş və ya cinayət törətməyə göstəriş vermiş şəxsdir.*

Qeyd olunan maddənin məzmunundan görünür ki, iştirakçılıq şərti olaraq formalara ayrılsa da konkret növlərə bölünməmişdir. Yəni konkret iştirakçı fiqurlarının adı çəkilmir. Lakin maddədə göstərilən hərəkət və ya hərəkətsizliklər iştirakçıların kim olduğunu (təşkilatçı, təhrikçi, köməkçi) ehtiva edir. Maddədə hərəkət və ya hərəkətsizliklər qruplaşdırılmışdır. Belə ki, köməkçiyə aid hərəkət və ya hərəkətsizliklər ayrıca olaraq sadalanmış, təşkilatçı və təhrikçiyə aid hərəkət və ya hərəkətsizliklər isə bir qrupda göstərilmişdir.

İştirakçılıq anlayışına olan belə yanaşma fikrimizcə daha ümumidir və bir qədər qarışıqdır. Lakin təşkilatçılıqla təhrikçiliyin bir bənddə qruplaşdırılması və az qala eyniləşdirilməsi iştirakçılıqla törədilən cinayətlərin tövsifini də ümumiləşdirir. Lakin cəzanın fərdiləşdirilməsində də qeyri-müəyyənlik yarada bilər.

Digər tərəfdən iştirakçılığa münasibətdə ümumi yanaşma vasitəsilə iştirakçılıqla bağlı təqsirləndirilən şəxsin bütün əməllərinə hüquqi qiymət vermək daha əlverişlidir. Qeyd edək ki, təşkilatçılıqla təhrikçlik paralel həyata keçirilən, yaxud biri digəri vasitəsilə həyata keçirilən və yaxud da biri olmadan digərinin realizə edilməsi mümkün olmayan fəaliyyətdir. Məsələn, cinayətin iştirakçılarının tapılması, onların fəaliyyətlərinin istiqamətləndirilməsi və ya onlar arasında əlaqələndirmə funksiyasının həyata keçirilməsi təşkilatçıya xas olan tərkib elementləridir. Belə bir sual yaranır. Təhrikçilik etmədən, yəni cinayətin iştirakçılarını təhdid etmədən, hansısa vəd vermədən və sair üsullarla iştirakçıları cinayətə sövq etdirmədən

təşkilatçıya xas qeyd olunan hərəkətləri realizə etmək, yəni cinayətin iştirakçılarını tapmaq, onları istiqamətləndirmək, aralarında əlaqə yaratmaq mümkündürmü?

Əlbəttə ki, sualın cavabını bütün situasiyalara şamil etmək düzgün olmasa da əksər hallarda təhrikçiliklə təşkilatçılıq qarşılıqlı olaraq biri digərini şərtləndirən fəaliyyətdir.

Belə olan halda hər iki fəaliyyətin bir şəxs tərəfindən həyata keçirilməsi də mümkündür. Nəinki iki iştirakçılıq növünün, üç iştirakçılıq növünün belə bir şəxsdə birləşməsi mümkündür. Yəni bir şəxsin həm təşkilatçılıq, həm təhrikçilik, həm də köməkçilik əməllərini realizə etməsində heç bir maneə yoxdur.

Lakin hazırda təcrübədə cinayətin iştirakçısının əməllərinin iştirakçılığın konkret növü ilə tövsif olunması zərurəti olduğundan baş vermiş əməllərin iştirakçılığın hansı növü ilə əhatə olunmasının mümkünlüyünə və əməllərin hansı növdə intensivliyinə diqqət yetirilməlidir. Bu zaman icraçının cinayət əməli ilə bilavasitə səbəbli əlaqədə olan iştirakçıya məxsus hərəkət və ya hərəkətsizliklər də nəzərə alınmalıdır.

Təcrübəmizdə olan belə bir yanaşma isə yəni, cinayətin iştirakçısını konkret növdə qiymət verməklə onu məsuliyyətə cəlb etmək təcrübəsi mücərrəd mülahizələrə yol açmaqla yanaşı şəxsin digər iştirakçılıq növlərində törətdiyi əməlləri cinayət məsuliyyətinin hədəfindən yayındırmaq ehtimalını da yaradır.

İştirakçılığın sərhədlərinin mücərrəd olması özünü köməkçi ilə icraçı arasında olan münasibətlərdə də büruzə verir.

Bəzən cinayətin icraçıları texniki olaraq biri digərinə kömək edərək iştirakçı görüntüsü yaratsalar da əslində cinayətin obyektiv cəhətini birgə icra etmiş olurlar.

Bununla bağlı Azərbaycan Respublikası Ali Məhkəməsinin *"Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" 3 mart 2005-ci il tarixli, 1 saylı Plenum Qərarının 11-ci bəndində* izah verilərək göstərilir ki, AR CM-in 34.2-ci maddəsinin mənasına görə qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən oğurluq, soyğunçuluq və ya quldurluq cinayətinə görə cinayət məsuliyyəti həm də o zaman yaranır ki, özgə əmlakının bilavasitə götürülməsini, cinayətin iştirakçıları arasında əldə edilmiş razılaşmaya əsasən, onlardan biri həyata keçirsin. Cinayətin digər iştirakçıları, rolların bölgüsünə əsasən, cinayətin törədilməsində icraçıya bilavasitə kömək göstərməyə yönəlmiş hərəkətlər edərsə (məsələn, şəxs

yaşayış sahəsinə girməsə də qapının, cəftənin, qıfılın sındırılmasında iştirak edərsə, əvvəlcədən əldə edilmiş razılığa əsasən talanmış əmlakı apararsa, törədilən cinayət aşkar ediləcəyi hallarda digər iştirakçıları sığortalayarsa) onlar CM-in 32.2-ci maddəsinə müvafiq olaraq birgə icraçı hesab edilir və belə hallarda əməlin tövsifi üçün CM-in 32-ci maddəsinə istinad edilməsinə ehtiyac yoxdur.

Özgə əmlakının talanmasında bilavasitə iştirak etməyən, lakin cinayətin izinin itirilməsi, cinayətin bilavasitə icraçısına kömək göstərməklə əlaqədar olmayan maneələrin aradan qaldırılması, oğurluq əmlakın özgəninkiləşdirilməsi və s. ilə əlaqədar məsləhətləri və göstərişləri ilə cinayətin törədilməsinə kömək etmiş şəxslərin əməlləri CM-in 32.5-ci maddəsinə istinad etməklə köməkçi formada iştirakçı kimi tövsif edilməlidir.

Bu barədə Qərarın 9-cu bəndində də açıqlama verilərək qeyd olunmuşdur ki, özgə əmlakının talanmasında təşkilatçı, təhrikçi və ya köməkçi bilavasitə iştirak etməyibsə, cinayətin icraçısı tərəfindən törədilən əməl cinayətin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi kimi tövsif edilə bilməz. Belə halda, CM-in 33.3-cü maddəsinə müvafiq olaraq, cinayətin təşkilatçısının, təhrikçisinin və ya köməkçisinin hərəkətləri CM-in 32-ci maddəsinə istinad edilməklə tövsif edilməlidir.

Bəzi cinayətlərin tövsifi zamanı iştirakçılığın qiymətləndirilməsi ilə bağlı Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin bir sıra plenum qərarlarında da xüsusi tövsiyələrə rast gəlirik.

İştirakçılığın qanunvericilikdə təsbitində müxtəlif ölkələrdə fərqli yanaşma məsələyə nəzəri baxışların çox şaxəli olmasından irəli gəlir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsində iştirakçılığa və onun növlərinə verilən anlayış daha dəqiq və daha konkretdir. Lakin bu o demək deyil ki, iştirakçının əməlləri qanunda göstəriləni hansısa konkret növdə qiymətləndirilməli və iştirakçı konkret növdə məsuliyyət daşımalıdır.

Fikrimizcə, araşdırılan cinayət əməlində iştirakçılığın hər hansı formada təzahür etməsindən asılı olmayaraq iştirakçının əməlinin hüquqi tövsifi AR CM-in 32-ci maddəsi ilə geniş mənada əhatə olunmalıdır. Yəni iştirakçının əməlləri bir növdə təsdiqini taparsa əməl AR CM-in 32-ci maddəsinin müvafiq bəndi ilə, iştirakçılıq qarışıq formada müəyyən edilərsə iştirakçının əməlinin ümumi olaraq AR CM-in 32-ci maddəsi ilə (iştirak etdiyi cinayət

əməlinin AR CM-in uyğun maddəsi ilə birlikdə) tövsif olunması daha məqsədəmüvafiq olardı.

Fikirlərimi icraçının ekstessinin hüquqi müstəvidə həlli ilə bağlı davam etdirmək istəyirəm.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin ümumi niyyətdən kənara çıxan cinayətin törədilməsi (icraçının ekstsessi) adlanan 35-ci maddəsində aşağıdakılar qeyd olunur:

*35.1. İcraçı tərəfindən razılaşdırılmış ümumi niyyətdən kənara çıxmaqla, yəni cinayətin digər iştirakçılarının qəsdi ilə əhatə olunmayan başqa cinayətin törədilməsi, icraçının ekstsessi hesab olunur.*

*35.2. İcraçının ekstsessinə görə cinayətin digər iştirakçıları cinayət məsuliyyətinə cəlb edilə bilməzlər.*

Qeyd edilən norma iştirakçıları onların qəsdi ilə əhatə olunmayan icraçının əməlinə görə cinayət məsuliyyətindən müdafiə edir.

Lakin maddənin mənasından görünür ki, icraçının hansısa əməlinə görə iştirakçılıq artıq mövcuddur. Yəni icraçı iştirakçıların qəsdi ilə əhatə olunmayan cinayəti və ya əlavə cinayəti törətmişdir.

Belə olan halda icraçının ekstsessi iştirakçılıqla törətmiş olduğu cinayətlə əlaqəli olan, yaxud ümumiyyətlə əlaqəsi olmayan cinayət olub-olmaması ilə bağlı təcrübədə fikirlər müxtəlifdir.

İlk öncə qeyd etmək istəyirəm ki, icraçının ekstsessi əksər hallarda iştirakçılıqla törətdiyi cinayətin fonunda baş verir. Əlbəttə ki, ekstsess sözünün mənası da latınca (“exscessus”) kənara çıxan, yayınan deməkdir. Yəni icraçı kənara çıxaraq nəzərdə tutulan cinayəti deyil, başqa cinayəti yaxud da əlavə cinayəti törədir.

Ekstsessin kəmiyyət və keyfiyyət əlamətinə görə iki yerə ayrılması barədə hüquqi fikir formalaşmışdır. Yəni icraçı ümumi niyyətdən kəmiyyət həddini və ya keyfiyyət həddini aşmaqla cinayət törədir.

Kəmiyyət ekstsessində icraçı cinayətə qəsd etmə formasından kənara çıxaraq düşünülmüş cinayətlə eynicinsli başqa cinayət törədir. Məsələn, soyğunçuluq əvəzinə quldurluq. Bu zaman icraçı quldurluğa, iştirakçılar isə soyğunçuluğa görə məsuliyyət daşıyır. Ekstsessin kəmiyyət formasında icraçı həm də düşünülmüş cinayətin təsnifat növündən kənara çıxa bilər. Məsələn, sadə adam öldürmə əvəzinə xüsusi amansızlıqla adam öldürmə.

Kəmiyyət ekstsessi birgə başlanmış cinayətin arasını kəsmir, ona görə də razılaşdırılmış hərəkət bütövlükdə baş verir. Ekstsessin kəmiyyət

formasında iştirakçılar razılaşdıqları həm bitmiş, həm də bitməmiş (hazırlıq, cəhd) cinayətə görə məsuliyyət daşıyırlar.

Keyfiyyət ekstsessi xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə görə tamamilə başqa bir cinayətin, qanunla qorunan başqa obyektlərə ziyan vuran eyni cinsli olmayan digər cinayətin törədilməsində ifadə olunur. Məsələn, soyğunçuluq əvəzinə adam öldürmə. Keyfiyyət ekstsessi birgə başlanmış cinayətin arasını kəsir. Belə halda icraçı soyğunçuluğa hazırlığa və adam öldürməyə görə məsuliyyət daşıyır. İştirakçıların məsuliyyəti isə kəmiyyət ekstsessində olduğu kimidir. Keyfiyyət ekstsessi düşünülmüş cinayətlə birgə törədilməklə də baş verir. Məsələn, soyğunçuluq və onunla birgə zorlama. Bu zaman birgə başlanmış cinayətə hazırlıq və digər törədilmiş cinayətin məcmusuna görə, yaxud da hər iki törədilmiş cinayətin məcmusuna görə icraçının məsuliyyəti müəyyən olunur.

Lakin iştirakçıların birbaşa qəsdi ilə əhatə olunmasa da iştirakçıların nəticə ilə bağlı üst-üstə düşən maraqları icraçının ekstsessini istisna edir.

Əgər iştirakçı icraçının başqa bir təqsirli əməli törədəcəyi barədə düşünmək, versiyalar qurmaq imkanına malik olmuşdursa və buna yol vermişdirsə, icraçının ekstsessi tanına bilməz, belə ki, bu situasiyada iştirakçının dolayı qəsdi özünü büruzə verir.

Ona görə də cinayətlərin təsnifatını nəzərə almaqla cinayətdə iştirakçılıqla cinayətə aidiyyətliliyi (əlaqəlilik, bağlılıq) fərqləndirmək zərurəti yaranır.

Cinayətə aidiyyətlilik elə bir situasiyadır ki, bu zaman icraçının hərəkətləri nəticənin baş verməsi məqsədini güdən iştirakçıların hərəkətləri ilə səbəbli əlaqədə olmur.

Cinayətə aidiyyətliliyin aşağıdakı növləri vardır:

*Xəbər verməmə* - qanuna zidd hərəkətin hazırlanması və ya baş verməsi barədə müvafiq orqanlara xəbər verməməkdə ifadə olunur. Xəbər verməmək passivlik və məlumatsızlıqla xarakterizə olunur.

*Razılaşma* - cinayətə mane olmamaqdır. Hərəkətsizliklə xarakterizə olunur, yəni cinayətin törədildiyi zaman edilməli olan hərəkətin edilməməsidir.

*Gizlətmə* - şəxsləri, cinayətin alət və vasitələrini, cinayət yolu ilə əldə olunmuş predmetləri gizlətmədə ifadə olunur.

Gizlətmə əvvəlcədən razılaşdırılmamış və hazırlanmamış hallarda belə xüsusi təhlükəli cinayətlərə münasibətdə cinayət məsuliyyəti yaradır.

Beləliklə, iştirakçılıq icraçının törətdiyi cinayət əməlinə görə iştirakçıların birgə məsuliyyət strukturudur.

İcraçının şəxsi motiv və şəxsi təşəbbüslə törətdiyi cinayət əməlinə görə cinayətin baş verdiyi zaman orada olmuş və ya olmamış digər iştirakçılar cinayət məsuliyyətinə cəlb edilə bilməzlər.

İştirakçılar birgə törətdikləri və ya yol verdikləri cinayətə görə məsuliyyət daşıyırlar.

Ekstsess zamanı isə iştirakçılar yeni cinayətin baş vermə imkanlarını görmür və bununla bağlı təsəvvürə malik olmurlar. Ona görə də icraçının əməlinə obyektiv cəhətdən hər hansı üsulla təsir göstərmək imkanına da malik olmurlar.

### *İstifadə olunmuş ədəbiyyat siyahısı:*


1. *Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Bakı "Hüquq Yayın Evi" 2021,*
2. *Azərbaycan Respublikası Ali Məhkəməsinin "Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" 3 mart 2005-ci il tarixli, 1 saylı Plenum Qərarı*
3. *https://teftis.ktb.gov.tr/TR-263596/5237-sayili-turk-ceza kanunu.html*
4. *https://www.legifrance.gouv.fr/codes/article_lc/LEGIARTI000006417212*

## Hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları ilə bağlı Məhkəmə-Hüquq Şurasının 2021-ci ilin birinci yarısında baxdığı bir sıra işlər haqqında

Bülletenin bu sərlövhəsinin əsas məqsədlərindən biri hakimləri Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə çıxarılmış qərarları ilə müntəzəm olaraq tanış etməkdən ibarətdir. Hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları ilə bağlı qərarların digər hakimlərin nəzərinə çatdırılmasının zəruriliyi, xüsusilə intizam tənbehlərinə səbəb olan pozuntular barədə hakim korpusunun məlumatlandırılmasının vacibliyi hakimlərin statusuna aid beynəlxalq hüquqi sənədlərdə də öz əksini tapmışdır. Hesab edirik ki, bu yolla həm hakimlərin özünüidarəsi sahəsində şəffaflıq prinsipi təmin olunur, həm də eyni pozuntuların digər hakimlər tərəfindən törədilməsi hallarının qarşısı alınmış olur. Bu məqsədlərdən çıxış edərək Bülletenin hazırkı buraxılışında 2021-ci ilin birinci yarısında Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə qəbul etdiyi bir sıra qərarlar barəsində ümumiləşdirilmiş məlumatları və buna dair müvafiq təhlili muxtar respublika hakimlərinin diqqətinə çatdırmaq istərdik.

2021-ci ildə Məhkəmə-Hüquq Şurası tərəfindən 7 hakim barəsində intizam icraatı başlanılmış, həmin intizam icraatları üzrə 7 hakimin intizam məsuliyyətinə cəlb olunması haqqında qərar qəbul edilmişdir. Bu qərarlar Məhkəmə-Hüquq Şurasının 24 fevral və 04 may 2021-ci il tarixli iclaslarında qəbul olunmuşdur. Həmin qərarlar əsasında intizam icraatı başlanılan hakimlərdən 3 nəfər Şəki Apellyasiya Məhkəməsinin və 2 nəfər Şirvan Apellyasiya Məhkəməsinin hakimlərinə töhmət verilmişdir.

Barəsində intizam icraatı başlanılmış 1 nəfər Sumqayıt İnzibati Məhkəməsinin və 1 nəfər Bakı şəhəri Nizami Rayon Məhkəməsinin hakiminə irad tutulmuşdur.

İntizam icraatının başlanmasına 2 halda Azərbaycan Respublikası Ali Məhkəməsinin, 2 halda Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və 1 halda vətəndaşların müraciəti əsas olmuşdur.

3 halda intizam icraatının başlanmasına səbəb işlərə baxılarkən qanunvericiliyin tələblərinin dəfələrlə və kobudcasına pozulması, 1 halda əmək və icra intizamı haqqında qanunvericiliyin tələblərinin pozulması, 2 halda “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası

Qanununun 9-cu maddəsində göstərilən hüquqpozmalara yol verilməsi və 1 halda isə hakim etikasının pozulması olmuşdur.

Məhkəmə-Hüquq Şurasının 24 fevral 2021-ci il tarixli qərarından görünür ki, Sumqayıt İnzibati Məhkəməsinin hakimi Quliyev İsmayıl Rza oğlunun barəsində intizam icraatının başlanılmasına səbəb inzibati işə hər hansı əsaslı səbəb olmadan ağlabatan müddətləri ötürməklə 2 il 10 aya baxması, nəticədə süründürməçilik hallarına yol verməklə uzun müddət ərzində əsassız olaraq iş üzrə yekun qərar qəbul edilməməsi olmuşdur.

Belə ki, S.Cəbrayılovun torpaq sahəsi üzərində mülkiyyət hüququnun dövlət qeydiyyatına alınmasına dair iddia tələbi ilə bağlı inzibati mübahisəyə Sumqayıt İnzibati-iqtisadi Məhkəməsində baxılaraq 01.11.2019-cu il tarixli qərarla iddia təmin edilmişdir (hakim İ.Quliyev). Sumqayıt Apellyasiya Məhkəməsinin müvafiq qərarı ilə cavabdehin apellyasiya şikayəti təmin edilməyərək qərar dəyişdirilmədən saxlanılsa da, Ali Məhkəmənin 12 avqust 2020-ci il tarixli qərarı ilə cavabdehin kassasiya şikayəti qismən təmin olunaraq apellyasiya instansiyası məhkəməsinin qərarı ləğv edilməklə iş təkrar baxışa göndərilmişdir.

İşə kassasiya icraatı qaydasında baxılarkən müəyyən edilmişdir ki, 7 dekabr 2016-cı ildə Sumqayıt İnzibati-İqtisadi Məhkəməsinin hakimi İsmayıl Quliyevin icraatına daxil olmuş həmin inzibati iş üzrə cavabdeh məhkəmə iclaslarında təmsil olunmadığına görə hazırlıq icraatı üzrə məhkəmə iclasları dəfələrlə təxirə salınmış, həmin iclas 2017-ci ilin 21 fevral, 9 mart, 30 mart, 8 noyabr, 6 dekabr tarixlərinə, habelə növbəti ilin 15 yanvar və 12 fevral tarixlərinə təyin edilsə də cavabdeh iştirak etməmişdir.

Eyni zamanda 17 aprel 2018-ci il tarixli hazırlıq iclasında isə tərəflər məhkəmə iclasında təmsil olunmamasına baxmayaraq, mübahisənin tərəflər arasında məhkəmədənkənar həlli ilə əlaqədar işə baxılması təxirə salınmış, bundan sonra məhkəmə iclasının vaxtı və yeri barədə tərəflərə məlumat verilmədən 14 fevral 2019-cu il tarixdə hazırlıq icraatı keçirilmiş, tərəflər üzrlü səbəb olmadan məhkəmə iclasına gəlməməsi səbəbi ilə 7 mart 2019-cu il tarixə təyin edilmiş, 7 mart 2019-cu il tarixli iclasda yenə cavabdehin nümayəndəsi məhkəmə iclasına gəlmədiyindən məhkəmə iclası 4 aprel 2019-cu il tarixə təyin edilmişdir.

Məhkəmənin 4 aprel 2019-cu il tarixli qərardadı ilə məhkəmə texniki yer quruluşu ekspertizası təyin edilmiş, ekspert rəyi məhkəməyə daxil olduqdan sonra işə baxılması 7 oktyabr 2019-cu il tarixə təyin edilmiş, cavabdeh məhkəmə iclasına gəlmədiyindən işə baxılması növbəti dəfə 24 oktyabr

2019-cu il tarixə təxirə salınmış, yekunda mübahisə ilə bağlı 1 noyabr 2019-cu il tarixdə iddianın təmin olunması barədə qərar qəbul edilmişdir.

Göründüyü kimi birinci instansiya məhkəməsində icraat zamanı cavabdeh özünün yazılı etiraz və dəlillərini məhkəməyə təqdim etməyinə baxmayaraq, onun nümayəndəsinin məhkəmə iclasına gəlməməsi səbəbi ilə məhkəmə iclası dəfələrlə təxirə salınmış, sonda yekun məhkəmə qərarı yenə cavabdehin nümayəndəsinin iştirakı olmadan qəbul edilmişdir.

Hazırkı işin halları, xarakteri, mürəkkəb olmaması və tərəflərin proseslə bağlı davranışları mübahisəyə bir neçə ay ərzində baxılıb yekun məhkəmə qərarı qəbul edilməsinə mane olmasa da, Sumqayıt İnzibati-İqtisadi Məhkəməsinin hakimi İsmayıl Quliyev hər hansı əsaslı səbəb olmadan ağlabatan müddətləri ötürməklə işə 2 il 10 aya baxmış, nəticədə süründürməçilik hallarına yol verməklə uzun müddət ərzində əsassız olaraq iş üzrə yekun qərar qəbul etməmişdir.

Məhkəmə-Hüquq Şurasının 24 fevral 2021-ci il tarixli qərarından görünür ki, Şəki Apellyasiya Məhkəməsinin hakimləri Elçin Hüseynov, Ayaz Mahmudov və Vəzirxan Məlikov cinayət işinə baxarkən qanunvericiliyin tələblərinin kobud pozuntusuna yol vermişlər. Belə ki, intizam icraatına başlanılmasına səbəb həmin hakimlərin cinayət işinə baxarkən qanunvericiliyin tələblərinin kobud pozuntusuna yol verdiklərinə görə onların barəsində çıxarılmış xüsusi qərar olmuşdur.

Aparılmış araşdırmanın nəticələrinə əsasən müəyyən edilmişdir ki, Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə N.Həsənov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.2.2, 178.2.3 və 32.4, 312.2.2-ci maddələri ilə təqsirli bilinərək CM-in 178.2.2 və 178.2.3-cü maddələri ilə 4000 manat cərimə cəzasına və 32.4, 312.2.2-ci maddəsi ilə 3000 manat cərimə cəzasına və CM-in 66.3-cü maddəsinə əsasən cəzalar qismən toplanmaqla 5000 manat cərimə cəzasına məhkum edilmiş, CM-in 69.4-cü maddəsinə əsasən həbsdə saxlanıldığı 1 ay 19 gün müddət nəzərə alınmaqla üzərində 4000 manat cərimə cəzası saxlanmışdır.

Məhkəmənin hökmünə əsasən N.Həsənov ona görə təqsirli bilinib məhkum edilmişdir ki, öz qulluq mövqeyindən istifadə edərək aldatma və etibardan sui-istifadə etmə yolu ilə özgənin əmlakını ələ keçirərək təkrarən dələduzluq etmiş, xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar onun xeyrinə hərəkətin edilməsi müqabilində vəzifəli şəxsə birbaşa yolla şəxsən rüşvət verməyə digər şəxsləri təkrarən təhrik etmişdir.

Dövlət ittihamçısı tərəfindən verilmiş apellyasiya protestinə, təqsirləndirilən şəxs N.Həsənovun müdafiəçisi tərəfindən verilmiş apellyasiya şikayətinə əsasən işə baxan Şəki Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 15 noyabr 2018-ci il tarixli qərarı ilə (hakimlər: R.Əliyev (sədrlik edən və məruzəçi), M.Hüseynov və İ.Şükürov) apellyasiya şikayəti təmin edilməmiş, apellyasiya protesti qismən təmin edilərək Şəki Ağır Cinayətlər Məhkəməsinin 27 iyun 2018-ci il tarixli hökmü dəyişdirilmiş, N.Həsənov iki il müddətə dövlət və yerli özünü idarə orqanlarında təşkilati və sərəncamverici vəzifə tutma hüququndan məhrum edilmiş və üzərində qəti olaraq Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə ona təyin edilmiş dörd min manat cərimə cəzası və iki il müddətə dövlət və yerli özünü idarə orqanlarında təşkilati və sərəncamverici vəzifə tutma hüququndan məhrum edilmə əlavə cəzası saxlanmışdır.

Həmin qərardan dövlət ittihamçısı tərəfindən verilmiş kassasiya protesti üzrə işə baxan Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının 17 aprel 2019-cu il tarixli qərarı ilə kassasiya protesti təmin edilərək Şəki Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 15 noyabr 2018-ci il tarixli qərarı ləğv edilərək cinayət işi həmin məhkəmədə yeni apellyasiya baxışına təyin edilmişdir.

İşə təkrarən baxan Şəki Apellyasiya Məhkəməsinin cinayət kollegiyasının qərarı ilə (hakimlər: Elçin Hüseynov (sədrlik edən və məruzəçi), Ayaz Mahmudov və Vəzirxan Məlikov) apellyasiya şikayəti təmin edilməmiş, apellyasiya protesti qismən təmin edilərək Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü dəyişdirilmiş, N.Həsənov iki il müddətə dövlət və yerli özünü idarə orqanlarında təşkilati və sərəncamverici vəzifə tutma hüququndan məhrum edilmiş, bu cəza CM-in 66.3-cü maddəsinə əsasən Şəki Ağır Cinayətlər Məhkəməsinin 27 iyun 2018-ci il tarixli hökmü ilə ona təyin edilmiş dörd min manat cərimə cəzası ilə toplanmaqla o, qəti olaraq iki il müddətə dövlət və yerli özünü idarə orqanlarında təşkilati və sərəncamverici vəzifə tutma hüququndan məhrum edilməklə 4000 manat cərimə cəzasına məhkum edilmişdir.

Şəki Apellyasiya Məhkəməsinin həmin qərarından dövlət ittihamçısı tərəfindən verilmiş kassasiya protestinə Ali Məhkəmədə baxılarkən müəyyən edilmişdir ki, işə təkrarən baxan hakimlər E.Hüseynov, A.Mahmudov və V.Məlikov Ali Məhkəmənin Cinayət Kollegiyasının 17 aprel 2019-cu il tarixli qərarında *(Şəki Apellyasiya Məhkəməsinin əvvəlki tərkibinin qərarının ləğv edilərək, yeni baxışa təyin edilməsi barədə)* şərh

ediləon pozuntuları yeni apellyasiya baxışı zamanı araşdırılıb aradan qaldırmamış, qərarda şərh edilən məhkəmə səhvlərinə istinad belə edilməmişdir.

Nəzərə alınmamışdır ki, Şəki Apellyasiya Məhkəməsinin cinayət kollegiyasının 15 noyabr 2018-ci il tarixli qərarı, həmin məhkəmə kollegiyası tərəfindən yol verilmiş və Ali Məhkəmənin Cinayət Kollegiyasının qərarında şərh edilmiş məhkəmə səhvlərinin aradan qaldırılması üçün ləğv edilmişdir. Belə ki, Ali Məhkəmənin həmin qərarında göstərilmişdir ki, birinci instansiya məhkəməsi N.Həsənova təqsirli bilindiyi CM-in 178.2.2, 178.2.3, 32.4, 312.2-ci maddələri ilə bu maddələrin sanksiyasında nəzərdə tutulmuş cəzalardan ən yüngül cəzanı - cərimə cəzasını təyin edərkən (apellyasiya instansiyası məhkəməsi əlavə cəzanın təyin edilməsi istisna olmaqla həmin cəzanı dəyişdirilmədən saxlayarkən) öz nəticələrini cəzanın təyini məsələsinə təsiri ola biləcək bütün halların məcmusundan, uyğun sübutlardan hasil etməmiş, cinayətlərin xarakterini, ictimai-təhlükəlilik dərəcəsini, törədilmə hallarını kifayət qədər nəzərə almamış, təqsirkarın şəxsiyyətini düzgün qiymətləndirməmiş, o cümlədən məsələni lazımınca araşdırmadan onun müsbət xarakterizə olunmasından çıxış etmiş, düzgün olmayaraq maddi zərərin ödənilməsini, pullarından məhrum olunmuş şəxslərin şikayət və tələblərinin olmamasını cəzanı yüngülləşdirən hallar kimi qiymətləndirmişdir. Belə ki, N.Həsənovun təqsirli bilindiyi cinayətlərin təsvirindən görünür ki, o, bir neçə nəfər şəxsə qarşı təkrar olaraq dələduzluq cinayətlərini törətməklə yanaşı həmin şəxsləri həm də rüşvət verməyə təhrik etmiş və bütün hallarda çalışdığı MMC-də tutduğu qulluq mövqeyindən istifadə etmişdir. O, yalan söyləməklə özündən asılı vəziyyətə saldığı şəxsləri rüşvət verməyə təhrik edərkən prokurorluq orqanlarının adından istifadə etməkdən, yəni məhkəmə hakimiyyətinin nüfuzuna təsir göstərən (onları gözdən salan) hərəkətlərdən belə çəkinməmişdir. Bu hallar onun şəxsiyyətinin daha dərindən (o cümlədən, cinayətin törədildiyi vaxt işlədiyi yerdən və əvvəlki iş yerlərindən xarakterizəedici məlumatlar almaqla) öyrənilməsini tələb etsə də, məhkəmələr N.Həsənovun barəsində yaşayış yerindən verilmiş xasiyyətnaməni nəzərdən keçirməklə kifayətlənmişlər.

Bundan başqa, hökmdən və apellyasiya məhkəməsinin qərarından görünür ki, birinci instansiya məhkəməsi N.Həsənova cərimə cəzasını təyin edərkən onun ailədə yeganə qazanc gətirən şəxs olmasından, şahidlər V.T.Nəbiyevə və S.Y.Musayevə vurulmuş ziyanın tam ödənilməsindən,

onların şikayət və tələblərinin olmamasından çıxış etməklə faktiki olaraq həmin halları cəzanı yüngülləşdirən hallar kimi qiymətləndirmiş və bununla apellyasiya instansiyası məhkəməsi də razılaşmışdır. Lakin, nə hökmdən, nə də ki, apellyasiya məhkəməsinin qərarından görünmür ki, məhkəmələr N.Həsənovun ailədə yeganə qazanc gətirən şəxs olması barədə nəticələrini hər hansı bir sübutdan hasil etməmişlər.

Həmçinin məhkəmələr cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsini, şahidlər V.T.Nəbiyevin və S.Y.Musayevin şikayət və tələblərinin olmamasını cəzanı yüngülləşdirən hal kimi qiymətləndirərkən onu nəzərlərindən qaçırmışlar ki, N.Həsənovun təqsirli bilindiyi digər cinayətin - CM-in 32.4, 312.2-ci maddəsində nəzərdə tutulmuş rüşvət verməyə təhrik etmə əməlinin obyekti dövlət hakimiyyətinin normal fəaliyyətinin təmin edilməsi üzrə ictimai-hüquq münasibətləridir. Bu səbəbdən N.Həsənov tərəfindən rüşvət verməyə təhrik edilmiş şəxslərin rüşvətin predmeti olduğunu güman etdikləri pul vəsaitlərini sonradan ondan geri almaları CM-in 32.4, 312.2-ci maddəsi ilə nəzərdə tutulmuş cinayətin və onu törədən şəxsin ictimai təhlükəlilik dərəcəsinə (azalma yönündə) təsir göstərən, müvafiq olaraq da bu cinayət üzrə cəzanı yügülləşdirən hal kimi nəzərdən keçirilə bilməz.

Məhkəmələr isə cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsini, V.T.Nəbiyevin və S.Y.Musayevin şikayət və tələblərinin olmamasını cəzanı yüngülləşdirən hal kimi qiymətləndirməklə N.Həsənova CM-in 32.4, 312.2-ci maddəsi ilə təyin edilməli olan cəza üzrə qənaətlərini düzgün olmayaraq həmin şəxslərin mövqeyindən asılı etmişlər. Bu qaydada təyin edilmiş cəza nə təqsirkar şəxsin özünə münasibətdə islahedici (tərbiyələndirici) funksiyasını, nə də digər şəxslərə münasibətdə xəbərdaredici rolunu səmərəli şəkildə yerinə yetirə - CM-in 41.2-ci maddəsində təsbit olunmuş cəzanın məqsədlərinin realizə edilməsini, o cümlədən sosial ədalətin bərpasını təmin edə bilməz.

Ali Məhkəmənin Cinayət Kollegiyasının 17 aprel 2019-cu il tarixli qərarında şərh edilən məhkəmə səhvlərinin aradan qaldırılması bir sıra halların əlavə araşdırılmasını, bəzi halların isə cəzanı yüngülləşdirən hal kimi nəzərə alınmamasını nəzərdə tutulduğu halda, apellyasiya instansiya məhkəməsi tərəfindən yol verilmiş səhvlər aradan qaldırılmamış, nəticədə həmin qərardan eyni dəlillərlə kassasiya protestinin verilməsinə səbəb olmuşdur. Belə ki, cinayət işinə yenidən baxan apellyasiya instansiyası məhkəməsinin hakimləri E.Hüseynov, A.Mahmudov və V.Məlikov Ali

Məhkəmənin Cinayət Kollegiyasının 17 aprel 2019-cu il tarixli qərarında sadalanan məhkəmə səhvlərini öz qərarında göstərməli, həmin səhvlər üzrə araşdırma aparmalı, həmin səhvlərin əsaslılığını yoxlamalı, məhkumun vəziyyətini pisləşdirən qərar qəbul edilməsi üçün əsasların olub-olmamasına hüquqi qiymət verməli, həmin səhvləri aradan qaldırmalı və ya həmin halları nə üçün səhv hesab etmədiyini qərarında şərh etməli olduğu halda, yeni apellyasiya baxışı gedişində təqsirləndirilən şəxsin ifadəsini, dövlət ittihamçısının dəlillərini dinləməkdən başqa hər hansı araşdırma aparmamışlar. Eyni zamanda məhkəmə iclası protokolunda müdafiəçi qismində vəkil M.Sarıyevin iştirakı göstərilsə də, vəkilin orderi cinayət işinin materiallarına əlavə edilməmişdir.

Bundan başqa, cinayət işinin materialları ilə müəyyən edilmişdir ki, apellyasiya məhkəmə kollegiyasının qərarında əlavə cəzanın təyin edilməsi zamanı da səhv nəticəyə gəlinmişdir. Belə ki, apellyasiya məhkəmə kollegiyası N.Həsənovun təqsirli bilindiyi hansı cinayət əməlinə görə ona əlavə cəza təyin etdiyini qərarın nəticə hissəsində konkret göstərməmişdir.

Beləliklə, Ali Məhkəmə kollegiyası müəyyən etmişdir ki, cinayət işinə yenidən baxan apellyasiya instansiyası məhkəməsinin məhkəmə kollegiyası yenidən nəzərə aldığı eyni cəzanı yüngülləşdirən halları təsdiq edən sübutların mövcudluğunu araşdırmamış, bununla əlaqədar Ali Məhkəmənin cinayət kollegiyasının qərarı ilə müəyyən edilmiş məhkəmə səhvlərini aradan qaldırmamış, məhkumun özündən asılı vəziyyətə saldığı şəxsləri rüşvət verməyə təhrik edərkən prokurorluq orqanlarının adından istifadə etməsinə, yəni məhkəmə hakimiyyətinin nüfuzuna təsir göstərən (onları gözdən salan) hərəkətlərinə lazımi hüquqi qiymət verməmiş, bununla da kobud qanun pozuntularına yol vermişdir.

Göstərilənlərə əsasən Şəki Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 17 sentyabr 2019-cu il tarixli qərarını qəbul etmiş hakimlər E.Hüseynov (sədrlik edən və məruzəçi), A.Mahmudov və V.Məlikov barələrində xüsusi qərar qəbul edilmişdir.

Məhkəmə-Hüquq Şurasının 04 may 2021-ci il tarixli qərarından görünür ki, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin hakimi Mətanət Hacıyeva tərəfindən inzibati xəta haqqında işə baxılarkən hüquqların həyata keçirilməsinə süni maneələr yaradılmasının, habelə hakim etikasının pozulmasının əlamətləri müəyyən edilmişdir. Belə ki, aparılmış araşdırmanın nəticələrinə əsasən müəyyən edilmişdir ki, "Topaz" agenti kimi fəaliyyət göstərən V.Məmmədovun barəsində polis orqanı tərəfindən

müvafiq qərarla İnzibati Xətalar Məcəlləsinin 211.1-ci maddəsi ilə, yəni karantin rejiminin pozulmasına görə inzibati tənbeh tədbiri kimi 400 manat məbləğində cərimə tətbiq edilmişdir.

V.Məmmədov həmin qərardan Bakı şəhəri Nizami Rayon Məhkəməsinə şikayət vermişdir. Məhkəmədə qeyd edilən şikayətə baxarkən, hakim Mətanət Hacıyeva İXM-in 133.2.1-133.2.7-ci maddələrində nəzərdə tutulmuş ilkin hərəkətləri yerinə yetirmədən, o cümlədən etirazın, vəsatətlərin olub-olmamasını müəyyən etmədən, şikayəti elan etmədən birbaşa V.Məmmədovu məhkəmə iclasında təmsil edən S.Əliyevin dəlillərini dinləməyə başlamış və İXM-in 134.1-ci maddəsinə əsasən şikayətə baxılmanın nəticələrinə görə həmin Məcəllənin 134.1.1-134.1.5-ci maddələrində nəzərdə tutulmuş qərarlardan birini qəbul etməli olduğu halda, hər hansı bir qərar qəbul etməmiş, əvəzində nümayəndə S.Əliyevə qərarın həmin gün saat 17-də elan ediləcəyini, ya da ki (məhkəmə iclasına gəlməyən Polis Şöbəsinin nümayəndəsinin məhkəmə iclasında dinlənilməsinə zərurət görərsə) şikayətə baxılmasının təxirə salınacağını bildirmişdir.

Bununla belə, hakim Mətanət Hacıyeva tərəfindən imzalanmış 05 noyabr 2020-ci il tarixli məhkəmə iclas protokolunda məhkəmə tərəfindən bütün hərəkətlərin İXM-in 133.2.1- 133.2.7-ci maddələrinə müvafiq surətdə yerinə yetirildiyi, eləcə də hakimin müşavirəyə gedib-qayıdaraq qəbul edilmiş qərarı elan etməsi və saat 10:40-da məhkəmə iclasını bağlı elan etməsi göstərilmişdir.

Halbuki, araşdrıma zamanı tədqiq edilmiş materiallara əsasən müəyyən edilmişdir ki, məhkəmə iclası təyin edilmiş vaxtda deyil, 10:41-də başlamışdır.

Hakimin məhkəmə iclasının sonunda işin müqəddəratı barədə nümayəndəyə məlumat verməməsi onun tərəfindən hüquqların səmərəli şəkildə həyata keçirilməsinə süni maneə yaratmışdır.

Həmçinin, araşdırma zamanı müəyyən edilmişdir ki, hakim M.Hacıyeva iclasın gedişində Hakimlərin Etik Davranış Kodeksinin tələblərinə zidd olaraq, qərəzsizliyinə şübhə yaradan ifadələrə yol verməklə şikayət vermiş şəxsin işlədiyi quruma münasibətinin mənfi olduğunu və karantin rejimi dövründə bu qurumun fəaliyyətinə icazə verilməsinə tənqidi yanaşdığını bildirmişdir.

“Korrupsiyaya qarşı mübarizə haqqında” Qanunun 9-cu maddəsinə əsasən, fiziki və ya hüquqi şəxslərə hüquqlarının və qanuni mənafelərinin

həyata keçirilməsində süni maneələr yaratmaq korrupsiyaya şərait yaradan hüquqpozma kimi müəyyən edilmişdir.

"Hakimlərin Etik Davranış Kodeksi"nin 2-ci və 8-ci maddələrinə əsasən hakim ona həvalə olunmuş işlərə baxarkən, öz vəzifəsini ləyaqətlə icra etməli, fəaliyyətində ədalətli, qərəzsiz və dəyanətli olmalı, proseslərdə iştirak edən bütün şəxslərə eyni münasibət göstərməli, proses iştirakçılarından hər hansı birinə digərinə nisbətdə üstünlük verməməlidir.

Hakim M.Hacıyevanın yuxarıda qeyd edilən hərəkətlərində həm "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş korrupsiyaya şərait yaradan halların, həm də "Hakimlərin Etik Davranış Kodeksi"nin tələblərinin pozulması hallarının əlamətləri mövcuddur.

Məhkəmə-Hüquq Şurasının 04 may 2021-ci il tarixli qərarından aydın olur ki, Şirvan Apellyasiya Məhkəməsinin hakimi Mirzəyev Nüsrət Fətulla oğlu ədalət mühakiməsinin həyata keçirilməsi zamanı bir sıra işlərə baxarkən əmək və icra intizamına dair qanunvericiliyin tələblərini dəfələrlə pozmuşdur. Belə ki, onun tərəfindən icraatında olan işlər üzrə proses iştirakçılarının məlumatlandırılması, onların hüquq və vəzifələrinin izah edilməsi, məhkəmə iclas protokollarının tərtib edilməsi, məhkəmə qətnaməsinin elan edilməsi sahəsində prosessual qanunvericiliyin tələbləri kobud şəkildə pozulmuş, işlərə baxılarkən süründürməçilik hallarına yol verilmişdir.

Hakim N.Mirzəyev prosessual müddətlərə dair qanunvericiliyin tələblərinə əhəmiyyət verməmiş, Mülki-Prosessual Məcəllənin 368.3-cü maddəsinə əsasən apellyasiya instansiyası məhkəməsində işə onun məhkəməyə daxil olduğu gündən 3 ay müddətində baxılmalı və müvafiq məhkəmə aktı qəbul edilməli olduğu halda prosessual qanunvericiliyin bu tələblərinə zidd olaraq 29.07.2019-cu il tarixdə icraatına daxil olmuş iş üzrə yalnız 1 ildən çox müddət keçdikdən sonra 26.11.2020-ci il tarixdə müvafiq qətnamə çıxarmışdır (iş nömrəsi 139/20). Qeyd edilən prosessual müddət pozuntusuna 2391/19 nömrəli mülki iş üzrə də yol verilmişdir.

Hakim N.Mirzəyevin sədrliyi ilə baxılmış (öyrənilmiş) 39 mülki işin 19-u və ya təxminən hər ikisindən biri üzrə müxtəlif tarixli məhkəmə iclas protokolları mülki prosessual qanunvericiliyin tələbləri pozulmaqla tərtib edilmişdir.

Bundan başqa, N.Mirzəyev tərəfindən qeyd edilən 19 mülki iş üzrə qətnamələrin giriş və nəticə hissələrini əks etdirən çıxarışlar da işə əlavə

edilməmiş və ya tərəflərə rəsmi qaydada verilməmişdir. Nəticədə Mülki-Prosessual Məcəllənin qətnamənin elan edilməsindən bəhs edən 214.1-ci və 214.4-cü maddələrinin tələbləri kobudcasına pozulmuşdur.

Mülki-Prosessual Məcəllənin məhkəmə sənədlərinin çatdırılması və rəsmi qaydada verilməsindən bəhs edən 135.2-ci maddəsinin tələblərinə zidd olaraq hakim N.Mirzəyevin sədrliyi ilə baxılmış 39 mülki işin 20-si və ya təxminən hər ikisindən biri üzrə, məhkəmə sənədləri ünvan sahiblərinə "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada (sifarişli poçt göndərişi ilə) çatdırılması, o cümlədən sənədin şəxsən verilməsi təmin edilməmişdir.

Eyni zamanda Mülki-Prosessual Məcəllənin 139.1-ci və 139.2.7-1-ci maddələrinin tələblərinə zidd olaraq hakim N.Mirzəyevin sədrliyi ilə baxılmış 39 mülki işin 15-i, təxminən hər üçündən biri üzrə 19.02.2019-cu, 04.07.2019-cu, 30.07.2019-cu, 13.03.2020-ci, 28.09.2020-ci, 23.10.2020-ci, 05.10.2020-ci, 12.10.2020-ci, 16.10.2020-ci, 02.11.2020-ci, 11.11.2020-ci il tarixli məhkəmə bildirişləri rəsmi sənəd kimi təsdiq olunmuş formada tərtib edilməmiş, həmçinin bildirişlərdə işdə iştirak edən şəxslərin prosessual hüquq və vəzifələrinin izahı (mətni) göstərilməmişdir.

Mülki-Prosessual Məcəllənin işdə iştirak edən şəxslərə onların hüquq və vəzifələrinin izah edilməsindən bəhs edən 375-ci maddəsinin tələblərinə zidd olaraq hakim N.Mirzəyevin sədrliyi ilə baxılmış 39 mülki işdən 11-nin və ya təxminən hər dördündən birinin məhkəmə baxışlarında prosessual hüquq və vəzifələrin izahı barədə bildirişlərin işdə iştirak edən şəxslərə çatdırılıb-çatdırılmadığı hakim tərəfindən müəyyən edilməmiş, habelə sözügedən bildirişlər onları almamış şəxslərə, yazılı qaydada imza etdirilməklə təqdim olunmamışdır.

Mülki-Prosessual Məcəllənin qətnamənin tərtibindən bəhs edən 227.3-cü maddəsinin tələblərinə zidd olaraq hakim N.Mirzəyevin sədrliyi ilə baxılmış 15 mülki iş üzrə müxtəlif tarixlərdə çıxarılmış qətnamələrin işdə iştirak edən şəxslərə, tərtib edildikdən sonra 3 gün ərzində rəsmi qaydada verilməsi təmin edilməmişdir. Məsələn, 83/18, 1147/18, 1854/18, 349/19 və 2950/19 nömrəli mülki işlər üzrə 16.05.2018-ci, 13.06.2018-ci, 08.08.2018-ci, 11.01.2019-cu və 07.11.2019-cu il tarixlərdə tərtib edilmiş qətnamələr Mülki-Prosessual Məcəllə ilə müəyyən edilmiş müddətlər pozulmaqla tərəflərə göndərilmişdir. Nəticədə işdə iştirak edən şəxslərin həmin qərarlardan vaxtında şikayət vermək hüquqları məhdudlaşdırılmışdır.

Mülki-Prosessual Məcəllənin apellyasiya instansiyası məhkəməsi qətnaməsinin qanuni qüvvəyə minməsindən və icraya yönəldilməsindən bəhs edən 393-cü maddəsinin tələbləri pozularaq hakim N.Mirzəyevin sədrliyi ilə bir çox mülki işlər üzrə çıxarılmış qətnamələr qanunla müəyyən edilmiş müddətdən xeyli gec icraya yönəldilmişdir. Məsələn, 83/18, 1147/18, 1854/18, 349/19 və 2950/19 nömrəli işlər üzrə 16.05.2018-ci, 13.06.2018-ci, 08.08.2018-ci, 11.01.2019-cu və 07.11.2019-cu il tarixlərdə çıxarılmış və kassasiya şikayətləri verilməmiş qətnamələr icraya yalnız 4-5 aydan sonra yönəldilmiş, bununla da hüquqların həyata keçirilməsinə süni maneələr yaradılmışdır.

Yuxarıda qeyd edilən hərəkətləri (hərəkətsizliyi) ilə Şirvan Apellyasiya Məhkəməsinin hakimi N.Mirzəyev əmək və icra intizamı haqqında qanunvericiliyin tələblərini, habelə "Korrupsiya qarşı mübarizə haqqında" Qanunun 9.3.12-ci (fiziki və ya hüquqi şəxslərə hüquqlarının və qanuni mənafelərinin həyata keçirilməsində süni maneələr yaratmaq) maddələrinin tələblərini kobud surətdə pozmuşdur.

Məhkəmə-Hüquq Şurasının 04 may 2021-ci il tarixli qərarından görünür ki, Şirvan Apellyasiya Məhkəməsinin hakimi Tofiq Heydərov ədalət mühakiməsinin həyata keçirilməsi zamanı icra və əmək intizamına riayət edilməsi zamanı qanunvericiliyin tələblərinin dəfələrlə pozulmasına yol vermişdir. Belə ki, hakim T.Heydərovun sədrliyi ilə baxılmış (öyrənilmiş) 40 mülki işin 13-ü və ya təxminən hər üçündən biri üzrə Mülki-Prosessual Məcəlləsinin işə apellyasiya instansiyası məhkəməsində baxılmasının müddətlərindən bəhs edən 368.3-cü maddəsinin tələbləri kobudcasına pozulmuşdur. Məsələn, 2017-ci ildə məhkəmənin icraatına daxil olmuş 01/21 və 02/21 nömrəli mülki işlərin məhkəmə baxışları müxtəlif bəhanələr ilə uzun müddət tamamlanmamış, 3 ildən artıq müddət ərzində hakim T.Heydərovun sədrliyi ilə həmin işlərin mahiyyəti üzrə yekun qərarlar qəbul edilməmişdir.

Bundan başqa, 439/20 nömrəli mülki iş üzrə ekspertiza rəyləri məhkəməyə 22.06.2020-ci il və 25.09.2020-ci il tarixlərdə daxil olmasına baxmayaraq, həmin iş üzrə dayandırılmış icraatlar süründürməçiliyə yol verilməklə, yalnız 1 ay və 1 ay 23 gündən sonra təzələnmişdir.

Hakim T.Heydərovun sədrliyi ilə baxılmış 1470/20 nömrəli mülki iş üzrə isə icraatı dayandırmaya səbəb olmuş hallar 15.09.2020-ci il tarixdən aradan qalxmasına baxmayaraq, 27.01.2021-ci il tarixə kimi ötən 4 aydan artıq müddət ərzində həmin işin icraatı təzələnməmiş və iş məhkəmə

baxışına təyin edilməmişdir. Analoji pozuntuya daha 2 iş üzrə də yol verilmişdir.

Hakim T.Heydərovun sədrliyi ilə baxılmış 40 mülki işin 14-ü üzrə və ya təxminən hər üçündən biri üzrə MPM-in 139-cu maddəsinin tələbləri pozularaq məhkəmə bildirişləri rəsmi sənəd kimi təsdiq olunmuş formada tərtib olunmamış, həmçinin məhkəmə bildirişlərində işdə iştirak edən şəxslərin prosessual hüquq və vəzifələrinin izahı göstərilməmişdir.

Bundan əlavə, 16 mülki iş üzrə məhkəmə sənədləri ünvan sahiblərinə, forması müvafiq qaydada təsdiq edilmiş qəbzlərə (sənədin kötüyünə) imza etdirilib şəxsən verilməmişdir. Nəticədə MPM-in məhkəmə sənədlərinin çatdırılması və rəsmi qaydada verilməsindən bəhs edən 135.2-ci maddəsinin də tələbləri pozulmuşdur.

MPM-in 375-ci maddəsinin tələblərinə zidd olaraq hakim T.Heydərovun sədrliyi ilə baxılmış 12 mülki işin məhkəmə baxışlarında prosessual hüquq və vəzifələrin izahı barədə bildirişlərin işdə iştirak edən şəxslərə çatdırılıb-çatdırılmadığı hakim tərəfindən müəyyən edilməmiş, habelə sözügedən bildirişlər onları almamış şəxslərə yazılı qaydada imza etdirilməklə təqdim olunmamışdır.

Hakim T.Heydərovun sədrliyi ilə baxılmış 40 mülki işin 11-i və ya təxminən hər dördündən biri üzrə qətnamələrin giriş və nəticə hissələrini əks etdirən çıxarışlar işə əlavə edilməməklə və tərəflərə rəsmi qaydada verilməməklə MPM-in qətnamənin elan edilməsindən bəhs edən 214.1-ci və 214.4-cü maddələrinin tələbləri pozulmuşdur.

Bundan əlavə, 2819/20 nömrəli mülki iş üzrə 01.12.2020-ci il tarixli qətnamədən çıxarış məhkəmə tərkibinin digər hakimləri tərəfindən 27.01.2021-ci il tarixə kimi ötən 1 aydan artıq müddət ərzində imzalanmamışdır.

Həmçinin, müəyyən edilmişdir ki, bir sıra qətnamələr qanunla müəyyən edilmiş müddətdə icraya yönəldilməmişdir. Məsələn, 20/20, 576/20 və 643/20 nömrəli mülki işlər üzrə 25.02.2020-ci və 17.03.2020-ci il tarixlərdə qəbul edilmiş qətnamə və ya digər yekun qərarlar 3 aydan sonra 16.06.2020-ci il tarixdə, aliment ilə bağlı dərhal icra olunmalı olan 11.02.2020-ci il tarixli qətnamə isə 06.03.2020-ci il tarixdə icraya yönəldilmiş, bununla da hüquqların həyata keçirilməsinə süni maneələr yaradılmışdır.

Eləcə də, hakim T.Heydərovun sədrliyi ilə baxılmış 9 mülki iş üzrə apellyasiya instansiyasına aid olan sənədlərin Azərbaycan Respublikasının məhkəmələrində kargüzarlığın aparılmasına dair Təlimat"ın tələblərinə

uyğun olaraq dərhal, ardıcıl nömrələnməsi və yaxud xronoloji qaydada mülki iş materiallarına tikilməsi təmin edilməmişdir.

Yuxarıda qeyd edilən hərəkətləri (hərəkətsizliyi) ilə Şirvan Apellyasiya Məhkəməsinin hakimi T.Heydərov əmək və icra intizamı haqqında qanunvericiliyin tələblərini, habelə "Korrupsiya qarşı mübarizə haqqında" Qanunun 9.3.12-ci (fiziki və ya hüquqi şəxslərə hüquqlarının və qanuni mənafelərinin həyata keçirilməsində süni maneələr yaratmaq) maddələrinin tələblərini kobud pozmuşdur.

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 99-cu maddəsinə əsasən, hakimlər ədalət mühakiməsini həyata keçirərkən qanunların tələblərinə dəqiq və dönmədən əməl etmək, məhkəmə fəaliyyətinin mənəvi və tərbiyəvi təsirini təmin etmək, ədalətli və qərəzsiz olmaq, ədalət mühakiməsinin nüfuzuna, hakimin yüksək adına, şərəf və ləyaqətinə xələl gətirən hər hansı hərəkətdən çəkinmək kimi vəzifələri yerinə yetirməlidirlər.

Beləliklə, Məhkəmə-Hüquq Şurasının təhlil edilən qərarlarında qeyd edilən pozuntular maddi və prosessual hüquq normalarının pozulmasında ifadə edilmişdir.

Hesab edirik ki, Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə qəbul etdiyi qərarların, həmin qərarlarda intizam məsuliyyətinə səbəb olan əsaslar kimi müəyyən edilən halların öyrənilməsi faydalı olacaq.

Ümid edirik ki, muxtar respublika məhkəmələrinin hakimləri tərəfindən işlərə baxılması zamanı belə hallara yol verilməyəcəkdir.



# AZAD TRİBUNA

***Əliyev Mehdi Ədalət oğlu***
*Şərur Rayon Məhkəməsinin sədri*

## ***Ədalət mühakiməsinin iqtisadi inkişafda rolu: milli qanunvericilik və beynəlxalq təcrübə***

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın qurulması, azad sahibkarlığa təminat verən qanunvericilik islahatlarının həyata keçirilməsinə başlanılmışdır. Azərbaycan Respublikasının ilk milli Konstitusiyası 1995-ci ildə qəbul olunmuş, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi elan edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının "İqtisadi inkişaf və dövlət" adlanan 15-ci maddəsinə görə Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Konstitusiyada qeyd edilən iqtisadiyyatın inkişafına və azad sahibkarlığa təminat dövlət hakimiyyətinin bölünməsi prinsipi əsasında qanunverici, icra və məhkəmə hakimiyyətləri tərəfindən həyata keçirilir.

Məqaləmizdə iqtisadiyyatın inkişafında ədalət mühakiməsinin rolu, milli qanunvericilik sahəsində həyata keçirilən islahatlar, məhkəmə təcrübəsi və beynəlxalq təcrübə nəzərə alınmaqla aşağıdakı suallar ətrafında öz fikir və mülahizələrimiz oxucularla paylaşacağıq.

*Sahibkarlarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin, habelə xarici investorların məhkəmə sistemindən əsas gözləntiləri nələrdir?*

*Milli qanunvericilikdə məhkəmələrin iqtisadi inkişafa daha optimal və operativ təsir imkanları ilə bağlı hansı islahatlar həyata keçirilir?*

*İqtisadi inkişafın və azad sahibkarlığın dəstəklənməsində hakimlərin rolu nədən ibarətdir və işə baxılarkən hansı hallara xüsusi diqqət yetirilməlidir?*

*Mübahisələrin alternativ həlli (mediasiya institutu) iqtisadi inkişafa necə töhfə verə bilər?*

*Məhkəmə qərarlarının icrası iqtisadi inkişafa necə təsir göstərir?*

**İlk sualımızla** yəni, sahibkarların məhkəmə sistemindən gözləntiləri ilə bağlı qeyd etməliyik ki, beynəlxalq təcrübədə qəbul olunmuş ümumi meyarlar şəffaflıq, proqnozlaşdırma imkanı, səmərəlilik, ağlabatan qaydada operativlik, digər yurisdiksiyalarda da tanınan məhkəmə qərarlarının olması hesab olunur.[1]

Bəs, şəffaf, proqnozlaşdırılan və səmərəli məhkəmə sistemi iqtisadi inkişafa və azad sahibkarlığa necə təkan verir? Bu bir çox aspektlərdə özünü göstərir. İlk olaraq mülkiyyət və müqavilə üzrə hüquqların mühafizəsi ticarət və investisiyaya təkan verir. Məhkəmələr qanunvericiliyə uyğun olaraq hər kəsə, o cümlədən hər bir şirkətə qarşı bərabər yanaşmaqla mübahisələrin həllində etibarlı forma kimi çıxış edir. Qanunvericiliyə uyğun bərabər yanaşma rəqabətə təkan verməklə və bazar iştirakçıları arasında mülki dövriyyəni artırmaqla iqtisadi fəaliyyət sahəsini bütün tərəflər üçün daha ədalətli edir. Məhkəmələr geniş yayılmış müsbət reputasiyaya malik olmayan yeni başlayan şirkətlərə qarşı ayrı-seçkiliyi azaldan hüquqi çərçivə formalaşdırırlar. Müflisləşmə haqqında qanunvericilik kreditorlara qarşı riskləri azaldır və şirkətlərin səmərəli restrukturizasiyasına töhfə verir. Mülkiyyət hüquqlarının mühafizəsi daha uzun-müddətli iqtisadi fəaliyyət ilə əlaqədardır. Daha güclü fəaliyyətə malik məhkəmələr daha inkişaf etmiş kredit bazaları, korporasiyalar və digər biznes müəssisələrinin inkişafı ilə əlaqədardır.[2]

**Şəffaflıq** tələbi ilə bağlı əsas tezis bundan ibarətdir ki, kommersiya sirrləri, milli təhlükəsizlik və şəxsi həyatın qorunması halları istisna olmaqla məhkəmə araşdırması və məhkəmə qərarları ictimaiyyət üçün açıq və əlçatan olmalıdır. Şəffaflıq ictimaiyyət qarşısında daha da məsuliyyətli olmağı təmin edir və məhkəmələrin daha geniş şəkildə mübahisələri həll edən mexanizm kimi qəbul olunmasına gətirib çıxarır. Şəffaflıq şirkətlərə qarşı riskləri azaldır və beləliklə mübahisələri həll etmək üçün məhkəmələrə etimadın artmasına təkan verir.

**Proqnozlaşdırma** tələbi ilə bağlı ümumi yanaşmalar da mövcuddur. Mübahisələri həll etmək üçün qanunvericiliyi tətbiq edərkən hüquqi müəyyənlik sahibkarlıq, investisiya və innovasiyalara təkan verir. Proqnoz şirkətlərə qabaqcadan planlaşdırma və riskləri ehtimal etməyə və onlara

---

[1] Stephan Haggard & Lydia Tiede, The Rule of Law and Economic Growth: Where Are We?, 39 World Dev. 673, 674 (2011)

[2] Kenneth W. Dam, The Judiciary and Economic Development 1 (John M. Ohlin Law & Economics Working Paper No. 287, 2006)

qarşı plan qurmağa imkan yaradır. Proqnozlaşdırma imkanı həmçinin fərdlər və şirkətlərə gələcək fəaliyyətlərlə bağlı anlaşma əldə etməyə və yazılı razılaşmalar üzrə öhdəlikləri yerinə yetirməyə şərait yaratmaqla mürəkkəb əməliyyatları asanlaşdırır. Xüsusilə sabit və aydın tənzimləyici sxemlər – o cümlədən sabit məhkəmə sistemi – birbaşa xarici investisiyanı ölkəyə cəlb edir.

**Səmərəlilik** dedikdə nələr nəzərə alınır? Qeyd edə bilərik ki, mübahisələrin məhkəmədə ağılabatan şəkildə sürətli həlli tərəflərə qeyri-müəyyənliklə əlaqədar dəyən zərəri azaldır, məhkəmələr mübahisələri ağlabatan xərc qarşılığında həll edir, prosedurun müəyyən və ictimai qaydaları dəqiqliyi artırır və məhkəmə xərclərini azaldır.

Bəs, xarici investorlar mübahisələri həll edən məhkəmə sistemindən nə istəyir? Beynəlxalq təcrübədə müqavilə şərtlərinin qüvvəyə minməsi ilə bağlı proqnozlaşdırma imkanı və tərəflərin niyyətlərinə hörmətlə yanaşılacağı barədə əminliyin olması, yerli tərəflərin lehinə və xarici tərəflərin əleyhinə çıxış etməyən sistemin mövcud olması, ağlabatan şəkildə operativ bir sistemin olması kimi meyarlar xarici investorları ölkə iqtisadiyyatına sərmayə qoymağa təşviq edən əsas hüquqi meyarlar hesab olunur.

**İkinci suala** gəldikdə qeyd edə bilərik ki, milli qanunvericilikdə məhkəmələrin iqtisadi inkişafa təsir imkanları ilə bağlı bir sıra hüquqi islahatlar həyata keçirilmiş və hazırda da bu islahatlar davam etməkdədir.

Bu sahədə mülki prosessual qanunvericiliyə də mühüm dəyişikliklər edilmişdir. Bunlara 28 dekabr 2018-ci il tarixli 1436-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə yeni məzmunda 23-1-ci fəsil – "Kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat" əlavə edilmişdir. Bununla da mülki işlər üzrə iddianın qiyməti iki min manatdan, kommersiya mübahisələrinə dair işlər üzrə iddianın qiyməti on min manatdan az olan iddialar üzrə işlərə sadələşdirilmiş qaydada yəni, 30 iş günü ərzində tərəflərin təqdim etdiyi sənədlər əsasında, məhkəmə baxışı keçirilmədən və tərəflər izahatları dinlənilmək üçün çağırılmadan yazılı icraatda baxılması nəzərdə tutulmuşdur. 9 iyul 2021-ci il tarixli 363-VIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə isə mülki işlər üzrə iddianın qiyməti iki min manatdan beş min manata artırılmaqla artıq beş min manatdan az olan olan iddialar üzrə də işlərə sadələşdirilmiş qaydada yazılı icraatda baxılması mümkün hesab edilmişdir. Həmçinin Elektron Məhkəmə İnformasiya Sisteminin tətbiqinə başlanılmış, elektron kabinet vasitəsilə

dövlət rüsumunun onlayn şəkildə ödənilməsi və məhkəmədə iddia qaldırılmasının mümkünlüyü təmin olunmuşdur. Göründüyü kimi, mülki prosessual qanunvericilikdə yazılı icraat qaydasında ədalət mühakiməsinin həyata keçirilməsi və bu icraatda işlərə qısaldılmış müddətdə, elektron məhkəmə informasiya sisteminin imkanlarından istifadə etməklə baxılmasının nəzərdə tutulması da sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin vaxtlarına və resurslarına qənaət etməklə onların azad sahibkarlıqla məşğul olması, gəlirlərini artırması və bununla da iqtisadi inkişafa töhfə verməsinə geniş imkan yaratmışdır.

**Üçüncü suala,** yəni iqtisadi inkişafın və azad sahibkarlığın dəstəklənməsində hakimlərin roluna gəldikdə isə bu müəyyən mənada ikinci suala verdiyimiz izahla bağlıdır. Yəni hesab edirəm ki, hakimlər işlərə baxarkən bu sahədə qanunvericiliyin inkişaf istiqamətlərini rəhbər tutmalı və hər bir konkret işə baxarkən öz qərarlarının iqtisadi inkişafa töhfə verməsi və bu zaman tərəflər arasında ədalətli tarazlığın da gözlənilməsini nəzərdən qaçırmamalıdırlar.

Elektron məhkəmə sisteminin anonimləşdirilmiş qərarlar bölməsində[3] məhkəmələr tərəfindən yerləşdirilmiş qətnamələrin təhlili zamanı da maraqlı hallar ortaya çıxır. Məsələn, kredit borcu üzrə pul tələbinə dair işlər üzrə rədd olunmuş qətnamələrin öyrənilməsi zamanı aydın olur ki, hakimlər bəzən iş materiallarında pul vəsaitinin verilməsini təsdiq edən sübutlar (məs, məxaric orderi) olmadığından iddianı rədd edirlər. Hesab edirəm ki, bu sahədə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin bir sıra qərarlarında (məsələn, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 399.3, 399.4, 445 və 449-cu maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair 24 dekabr 2014-cü il tarixli, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 439.1, 439.2 və 439.7-ci maddələrinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılması və həmin maddələrin bəzi müddəalarının şərh edilməsinə dair 14 may 2015-ci il tarixli, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 746-cı maddəsinin istehlak kreditlərinə tətbiqinin mümkünlüyü baxımından şərh edilməsinə dair 27 may 2019-cu il qərarları) ifadə etdiyi hüquqi mövqelər xüsusilə nəzərə alınmalıdır.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 399.3, 399.4, 445 və 449-cu maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair 24 dekabr 2014-cü il tarixli qərarında qeyd olunur ki, istənilən halda məhkəmələr bu kimi məsələlərə

---

[3] https://e-mehkeme.gov.az/Public/Anonymizedecisions

baxarkən müqavilə azadlığı, azad sahibkarlıq fəaliyyəti, sosial dövlət və s. kimi müxtəlif konstitusiya dəyərləri arasında balansı gözləməli, işlə əlaqədar hər hansı qərarı qəbul etməmişdən əvvəl onun iqtisadi və sosial nəticələrini qabaqcadan görməlidirlər.

Həmçinin Konstitusiya Məhkəməsinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 747.1, 747-1.3 və 747-2-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair 28 dekabr 2020-ci il tarixli Qərarında qeyd olunur ki, tərəflərin hansı müqavilə münasibətlərinin qurulması üçün iradələrini ifadə etdikləri müəyyən olunmalı, iradə ifadəsinin təfsiri zamanı onun həqiqi məzmunu təkcə hərfi mənaya görə deyil, həm də ağlabatan mühakimə əsasında müəyyənləşdirilməlidir (Mülki Məcəllənin 324.5-ci maddəsi). Bunun üçün bütün hallar, o cümlədən müqaviləyə qədərki danışıqlar və yazışmalar, tərəflərin qarşılıqlı münasibətlərində yaranmış praktika, işgüzar adətlər və tərəflərin sonrakı davranışları nəzərə alınmalıdır (Mülki Məcəllənin 404.2-ci maddəsi).

Hesab edirəm ki, bu sahədə işlərə baxıb iddia tələbini rədd edərkən qanunvericiliyə edilmiş dəyişikliklərin məqsədləri, Konstitusiya Məhkəməsinin formalaşdırdığı hüquqi mövqelər nəzərə alınmalı, iddia rədd edilərkən digər sübutların məcmu halında qiymətləndirilməsi, tərəflərin şəxsən iştirak etməsi ilə bağlı MPM-in 69.1-ci maddəsinin hüquqi imkanlarından geniş istifadə edilməlidir.

**Dördüncü suala**, yəni mübahisələrin alternativ həlli sisteminin tətbiqinə gəldikdə qeyd edə bilərik ki, bir sıra kateqoriyada olan işlərin məhkəmələrdən mediasiyaya yönləndirməklə məhkəmə tərəfindən mövcud resursları (hakimlər, aparat, infrastruktur və s.) digər mübahisələrin həllinə yönəltməyə imkan verir ki, bu da ümumilikdə məhkəmə sisteminin səmərəliliyini artırır. Ölkəmizdə 1 iyul 2021-ci il tarixdən mediasiya institunun tətbiqinə başlanılmışdır. "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununa görə mediasiya mübahisələrin məhkəmədən kənar alternativ həll yollarından biridir. Mediasiya tərəflər arasında münaqişə səviyyəsinin azaldılması və onları razı salacaq şəkildə mübahisənin həllini təmin etmək məqsədini daşıyır. Mediasiya könüllü xarakter daşıyır və tərəflər mediatorun seçilməsində sərbəstdirlər. Həmin qanunun 28-ci maddəsinə görə kommersiya mübahisələri, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl tərəflər ilkin mediasiya sessiyasında iştirak etməlidirlər.

Göründüyü kimi mövcud qanunvericilik kommersiya mübahisələri üzrə məhkəməyə müraciət etməzdən öncə mediasiyanın tətbiqini məcburi etməklə onun təşviq olunmasına, ictimaiyyət tərəfindən qəbul olunmasına, biznes subyektləri üçün məcburi hesab olunan məhkəmə qərarı çıxarılmazdan öncə mübahisənin dostcasına, hər iki tərəfin mənafelərinə cavab verən şəkildə həllinə imkan yaratmaqla münaqişə səviyyəsinin azalmasına və mülki dövriyyənin operativliyinin təmin olunmasına, biznes subyektlərinin əsas fəaliyyətinin məhz hüquqi mübahisələrə deyil, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə imkan yaratmışdır.

**Sonuncu sualla** bağlı qeyd edə bilərik ki, məhkəmə qərarlarının icrasının iqtisadi inkişafa necə təsiri məhkəmə icraatı qədər mühüm məsələdir. Ümumiyyətlə məhkəmə qərarlarının vaxtında icra olunması ilə bağlı Bülletenin 2021-ci il 1-saylı buraxılışında dərc olunan yazımızda ətraflı məlumat vermişik.[4] Bir daha vurğulamaq istərdim ki, Azərbaycan Respublikasının tərəfdar çıxdığı "İnsan Hüquqları və Əsas Azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının 6-cı maddəsinə görə ədalətli məhkəmə araşdırması hüququ həm məhkəmədə işə baxılması, həm də məhkəmə qərarlarının ağlabatan müddətlərdə icra olunmasını təmin etməyə yönəlmişdir. Əks təqdirdə icrası təmin edilməyən və ya vaxtında icra edilməyən məhkəmə qərarları xəyali sənədə çevrilməklə ədalət mühakiməsini həyata keçirilməsini əhəmiyyətsiz edərək sahibkarların ədalət mühakiməsinə olan inamının sarsılmasına səbəb olardı. Ali Məhkəmənin hüquqi mövqeyinə görə mülki işlər üzrə məhkəmə baxışı müddəti iddia ərizəsinin məhkəməyə daxil olduğu vaxtdan başlayır və məhkəmə qərarının icrasının başa çatmasına kimi davam edir. "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə görə icra məmuru icra sənədini aldığı gündən iki ay müddətində bütün zəruri icra hərəkətlərini həyata keçirməlidir. Bu baxımdan hesab edirik ki, icra məmurları tərəfindən icra sənədlərinin vaxtında icra olunması tələbkar sahibkarlıq subyektlərinin iqtisadi mənafelərinin vaxtında təmin olunmasına, ümumilikdə həm yerli, həm də xarici sahibkarlıq subyektlərinin ədalət mühakiməsinə inamını artırmaqla daha çox investisiyaların cəlb olunmasına, sahibkarlıq sahəsində mülki dövriyyənin operativliyinin təmin olunmasına və ümumilikdə ölkəmizin iqtisadi inkişafına töhfə vermiş olar.

---

[4] Naxçıvan MR Ali Məhkəməsi Bülleteninin 2021-ci il 1-saylı buraxılışı

**İstifadə olunmuş normativ-hüquqi aktların və ədəbiyyatın siyahısı:**

1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi
2. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi
3. İcra haqqında Azərbaycan Respublikasının Qanunu
4. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 399.3, 399.4, 445 və 449-cu maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair 24 dekabr 2014-cü il tarixli Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Qərarı
5. "Hakimlərin iqtisadiyyatda və iqtisadi inkişafdakı rolu" mövzusunda Cənubi Nyu-York Mahalının Fəxri Hakimi Jed S. Rakoffun mühazirə materialları (Hakim Etikası və işlərə baxılmanın təşkili mövzusunda seminar, Bakı, 19-20 iyun, 2017-ci il)
6. Stephan Haggard & Lydia Tiede, The Rule of Law and Economic Growth: Where Are We?
7. Kenneth W. Dam, The Judiciary and Economic Development (2006).



# ALİ MƏHKƏMƏNİN MƏTBUAT XİDMƏTİNDƏN

**2021-ci ilin iyul-dekabr aylarında keçirilən tədbirlərin xülasəsi**

İyul ayının 16-da Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin iclası keçirilib. İclasda 2021-ci ilin birinci yarısında muxtar respublika məhkəmələrinin fəaliyyətinin yekunları müzakirə olunub.

İclasda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev ölkəmizdə insan hüquqlarının təmin olunması və müasir standartlara cavab verən məhkəmə-hüquq islahatlarının aparılmasının ulu öndər Heydər Əliyevin adı ilə bağlı olmasını qeyd edərək, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl islahatlardan danışıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun birbaşa rəhbərliyi altında muxtar respublikamızda hüquq institutlarının təkmilləşdirilməsi və ədalət mühakiməsinin keyfiyyətinin daha da artırılması istiqamətində geniş miqyaslı işlər görülüb.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi hüquqi-maarifləndirmə sahəsində də bir sıra işlər görmüş, ötən illərdə olduğu kimi cari ilin müvafiq dövründə də milli qanunvericiliyə edilən əlavələr və dəyişikliklər barədə müntəzəm olaraq muxtar respublikada yaşayan əhali arasında hüquqi təbliğat və izahat işləri aparılması sahəsində bir sıra tədbirlər həyata keçirmişdir.

Ali Məhkəmənin sədri muxtar respublikanın ixtisaslaşdırılmış və rayon (şəhər) məhkəmələri tərəfindən baxılıb nəticə verilmiş mülki və digər işlər üzrə çıxarılmış qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətlərinin nəticələrini təhlil edib.

Daha sonra Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin sədri Hüseyn Məmmədov, Hərbi Məhkəmənin sədri Polad Həsənov, Kommersiya Məhkəməsinin sədri Elşən Salmanov və muxtar respublikanın şəhər və rayon məhkəmə sədrlərinin 2021-ci ilin birinci yarısında görülən işlərə dair məlumatları dinlənilib.

İclasa Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev yekun vuraraq bildirib ki, Naxçıvan Muxtar Respublikasının Ali

Məhkəməsi 08 iyul 2021-ci il tarixdə keçirilmiş altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasında Ali Məclisin Sədri tərəfindən verilmiş tövsiyələri Ali Məhkəmənin fəaliyyətində rəhbər tutaraq bundan sonra da ədalət mühakiməsini obyektiv, tam və qərəzsiz şəkildə həyata keçirəcək, vətəndaşların hüquqi maarifləndirilməsi işinin daha da gücləndirilməsi və əhalinin hüquq xidmətlərinə olan tələbatının keyfiyyətli ödənilməsi üçün səylərini davam etdirəcəkdir.

≈ ≈ ≈

Oktyabrın 26-da Məhkəmə-Hüquq Şurasının videokonfrans formatında iclası keçirilib.

İclasda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Qasım Əliyev iştirak edib.

İclasda dövlət başçısının növbəti onillikdə ölkənin sosial-iqtisadi tərəqqisinin davamlılığı, inklüziv cəmiyyətin və müasir innovasiyaların inkişafı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdışı təmin etmək məqsədilə təsdiq etdiyi “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərin” əhəmiyyəti bildirilib. Onun məhkəmə fəaliyyətində şəffaflığın artırılması üzrə qarşıda qoyduğu mühüm vəzifələrlə bağlı tədbirlər qeyd edilib.

Son dövrlər bu sahədə görülən işlər, habelə məhkəmə icraatı zamanı çevikliyin təmin edilməsi, süründürməçilik və mümkün sui-istifadə hallarının qarşısının alınması məqsədilə yeni qanunların qəbulu, o cümlədən mülki-prosessual qanunvericiliyə mütərəqqi dəyişikliklərin edilməsi, elektron sistemlərin məhkəmə icraatında geniş tətbiqi, yüksək texnoloji – “hi-tech” məhkəmələrin inşası diqqətə çatdırılıb, yeni fəaliyyətə başlamış mediasiya institutunun əhəmiyyəti vurğulanıb.

İclasda həmçinin hakimlərin fəaliyyətinin hərtərəfli və prinsipial qiymətləndirilməsi məqsədilə Şura tərəfindən təsdiq edilmiş yeni Qaydalara uyğun olaraq cari ildə 117 hakimin fəaliyyətinin qiymətləndirildiyi, 14 nəfərin fəaliyyətində peşəkar çatışmazlıqlar müəyyən olunaraq işdə dönüş yaratmaları üçün 6 ay vaxt verildiyi, 3 nəfərin isə səlahiyyətlərinə xitam verildiyi bildirilib.

Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi Qaydalarının yeni qanunvericiliyə uyğun təkmilləşdirilməsi ilə bağlı müvafiq qərar qəbul edilib. Bu ilin sonunadək fəaliyyətlərinin qiymətləndirilməsi nəzərdə

tutulmuş daha 120 hakimlə bağlı hərtərəfli təhlillərin aparılması və nəticələrin Şuranın iclasına çıxarılması üzrə konkret tapşırıqlar verilib.

Şuranın iclasında qanunvericiliyin tələblərinin, çəkişmə prinsipinin və icra intizamının pozulmasına, süründürməçiliyə yol verildiyinə və digər nöqsanlara görə birinci instansiya və apellyasiya məhkəmələrinin 5 hakiminin intizam məsuliyyəti məsələsinə baxılıb, eyni xarakterli pozuntulara görə bir sıra hakimlər barədə intizam icraatları başlanılıb.

≈ ≈ ≈

Noyabrın 5-də Avropa İttifaqının ekspertləri tərəfindən Naxçıvanda "Hakimlər üçün münaqişənin həll edilməsi və kommunikasiya bacarıqları" mövzusunda təlim keçirilib.

Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında Fərmanının icrası ilə bağlı aidiyyəti dövlət qurumlarına texniki dəstəyin göstərilməsi məqsədilə Avropa İttifaqı tərəfindən maliyyələşdirilən, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin benefisiar olduğu "Azərbaycanda Mübahisələrin Alternativ Həlli xidmətlərinin və İxtisaslaşdırılmış məhkəmələrin inkişafına Dəstək" layihəsi çərçivəsində Naxçıvan şəhərində "Hakimlər üçün münaqişənin həll edilməsi və kommunikasiya bacarıqları" mövzusunda təlim keçirilib. Avropa İttifaqının baş ekspertləri Mark Seqal və Ruslan Mirzəyev tərəfindən keçirilən təlimdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimləri, ixtisaslaşdırılmış və rayon şəhər məhkəmələrinin sədrləri iştirak ediblər.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin müavini Əsgər Novruzov çıxış edərək, ölkəmizlə Avropa İttifaqı arasında məhkəmə-hüquq sahəsində həyata keçirilən layihələrin əhəmiyyətindən danışıb.

Diskusiya şəklində keçirilən təlimdə slaydlar vasitəsilə məsələlər izah ounub, iştirakçılarla mövzular üzrə müzakirələr aparılıb, suallar cavablandırılıb.

≈ ≈ ≈

29 noyabr – 02 dekabr tarixlərində Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində hamiliyə verilmiş ixtisaslarda təhsil alan hüquqşünas tələbələr üçün "Ədalətli məhkəmə araşdırması hüququ üzrə" təlim keçirilib.

Tələbələrin hüquqa dair biliklərini daha da təkmilləşdirmək, eləcə də bu sahəyə olan marağını artırmaq məqsədilə keçirilən təlimdə Naxçıvan Dövlət Univerisitetinin 2-ci və 3-cü kurs hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələri iştirak edib. Əvvəlcə tələbələr məhkəmənin müxtəlif strukturlarında iş şəraiti ilə tanış olub onları maraqlandıran suallar cavablandırılıb. Tələbələr Ali Məhkəmədəki kitabxana ilə tanış olub, məhkəməyə daxil olan sənədlərin, cinayət, mülki, inzibati və sair işlərin, materialların qeydiyyatı, rəsmiləşdirilməsi, formalaşdırılması, göndərilməsi və vətəndaşların müraciətlərinə baxılması qaydaları haqqında onlara ətraflı məlumat verilib.

Təlim zamanı tələbələr real məhkəmə prosesini izləyiblər.

Keçirilən təlimin növbəti günündə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin əməkdaşları tərəfindən müxtəlif hüquqi mövzularda çıxışlar edilib. Sonrakı gün təlimdə tələbələrə kazuslar verilib, tələbələr komanda şəklində kazusları cavablandırıblar.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi, Kommersiya kollegiyasının sədri Əhliman Xıdırov "Ədalətli məhkəmə araşdırması hüququ üzrə" tələbələrə təlim keçib.

Layihənin sonuncu günü Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev tələbələrlə görüşüb. Ali Məhkəmənin sədri sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsinin əhəmiyyətindən danışıb. Tələbələrin nəzəri biliklərlə yanaşı, praktik bacarıqlara yiyələnməsi baxımından sərəncamın əhəmiyyətini vurğulayan Qasım Əliyev qeyd edib ki, bu istiqamətdə nəzərdə tutulan vəzifələrin uğurlu şəkildə icra olunmasını təmin etmək məqsədilə hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr üçün seminar-məşğələlərin keçirilməsi, onların məhkəmə proseslərində iştirakının təmin olunması diqqətdə saxlanılır.

Sonra tələbələri maraqlandıran suallar cavablandırılıb.

# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ


4700000000
053-2021

Yığılmağa verilmiş: 22.12.2021.
Çapa imzalanmış: 24.12.2021.
Formatı 70x100 1/8 “Tayms” qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 5,5 ç.v.
Sifariş № 323. Tiraj 100 nüsxə.

“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.